Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**MUSTAFA ÇƏMƏNLİ**

# SƏHNƏMİZİN AĞ ÇİÇƏYİ




«ASPOLİQRAF»
BAKI–2017



*"Rəqs mənim həyatımdı. Həyatımın ən cazibədar, gözəl anlarını bu sənətə qurban vermişəmsə, deməli, o mənim canımdı, bütün varlığımdı. Mənə tamaşaçı məhəbbəti, şan-şöhrət, ən başlıcası isə mənəvi zənginlik bəxş edən sənətimə minnətdaram"*



MUSTAFA ÇƏMƏNLİ

# SƏHNƏMİZİN AĞ ÇİÇƏYİ

**Rəyçilər:** **Ziyadxan Əliyev**
*Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
**Səadət Təhmirazqızı**
*Əməkdar mədəniyyət işçisi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Redaktor:** **Gülər Ələkbərqızı**

**Çəmənli M.**
**Ç45 Səhnəmizin ağ çiçəyi.** Bakı, «Aspoliqraf», 2017, 192 səh.

Kitabda Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Roza Cəlilovanın həyat və səhnə fəaliyyətindən bəhs olunur. Roza xanımın həyat və yaradıcılığından danışarkən yeri gəldikcə müəllif mahnı və rəqs ansamblının yaranma tarixi, bədii rəhbərləri, Roza xanımla çiyin-çiyinə çalışan sənət dostlarından da söz açır. Kitabı müəllif fikrini tamamlayan görkəmli rəqqasənin ömür yolu və ümumilikdə, milli rəqs sənətimizin tarixini əks etdirən fotoşəkillər bəzəyir.

Ç $\frac{4702060204}{053}$ 2017

**© Çəmənli M., 2017**

## BİR NEÇƏ SÖZ

Qəribədir, mən onunla üzbəüz oturub söhbət edəndə belə, nədənsə onu ancaq səhnədə təsəvvür edirəm. Gözlərim önündə heç bir rəqqasənin rəqsinə bənzəməyən rəqsləri, hər biri mahir bir rəssamın çəkdiyi tablonu xatırladan «Bənövşə»si, «Qaragöz»ü, «İlk baharı»ı, «Zərif gülüşlüm»ü, «Bala ceyran»ı, «Hind rəqsi», «Naz eləmə»si, «Tərəkəmə»si canlanır.

Söhbət ömrünün altmış ilini Azərbaycan xalq rəqslərinin inkişafına, təbliğinə, dünyada tanınıb-sevilməsinə sərf etmiş Xalq artisti, Prezident təqaüdçüsü Roza Cəlilovadan gedir. Öz gözəl, bənzərsiz rəqsləri ilə Azərbaycan professional rəqs sənətinə yeniliklər gətirən, zəriflik, lirik ovqat qatan, milli rəqslərimizi bir çox dünya xalqlarının səhnəsində yüksək peşəkarlıqla nümayiş etdirən Roza Cəlilovadan!

Roza Cəlilova səhnə fəaliyyəti dövründə daim axtarışda olub. Öz sənətini ürəkdən sevib, onun inkişafı üçün çalışıb və nəticədə adı xalqın yaddaşında, mədəniyyət tariximizdə kamil sənətkar kimi əbədiləşib.

Bir rəqqasə kimi Roza Cəlilova həmişə yeniliyə can atıb. Məhz bu yenilikçiliyinə görə milli rəqslərimizlə yanaşı, dünya xalqlarının rəqslərinə də biganə qalmayıb. Cəsarətlə demək olar ki, bir çox əcnəbi xalqların milli rəqslərini öyrənən, doğma səhnəmizdə ilk dəfə oynayan, nümayiş etdirən, bu sahədə xoreoqraflara yeni mövzular verən də məhz Roza Cəlilova olmuşdur.

Deyirlər hər bir insanın həyatı yazılmamış bir kitabdır. Etiraz etmirəm, elədir ki, var. Amma baxır kimin həyatı... Fikrimcə, hər yoldanötənin həyatını vərəqləməyə dəyməz. Ancaq xalqın fəxr etdiyi elə dəyərli şəxsiyyətlər, sənətkarlar var ki, onların həyatını kitablarda, filmlərdə əbədiləşdirmək gərəkdir. Çünki beləlәri bizim mənəvi sərvətimizdir. Xalq artisti Roza Cəlilova da belə sənətkarlardan biridir.

Hörmətli oxucular bu kitabda Roza xanımın keşməkeşli həyat tarixçəsini vərəqləyərək çox-çox illər arxaya – keçmiş günlərə qayıdacaqlar. Əslində, mənalı, xalqı, vətəni üçün çalışan insanların yaşanmış keçmişi, necə deyərlər, keçmişdə qalmır, daim yad edilir, xatırlanır və beləcə nəsildən-nəslə ötürülərək yaşayır.



*Ömrün qayğısız illəri*

## ÖMÜRDƏN FRAQMENTLƏR

Roza xanımın babası Saleh kişi vaxtilə Cənubi Azərbaycandan Gürcüstana – Tiflisə gəlmiş, burada azərbaycanlıların daha sıx yaşadığı Şeytanbazarda məskunlaşmışdı. Gənc Saleh burada Borçalı qızı Bahar xanımla evlənmişdi. Bu nikahdan 1906-cı ilin 17 mayında oğlu İsmayıl dünyaya gəlmişdi. Çar Rusiyasının dövrü idi. Qafqaz canişinliyi də burada yerləşdiyindən o dövrdə Tiflis mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. İsmayılın uşaqlıq və ilk gənclik illəri belə bir şəhərdə keçmişdi. Kür çayının hər iki sahilində salınmış Tiflis biz Azərbaycan türkləri üçün də həmişə əziz bir şəhər olmuşdur. Vaxtilə bu şəhərdə yaşayan azərbaycanlıların sayı heç də gürcülərdən az olmamışdır. Bu şəhərdə Azərbaycanın ən görkəmli oğulları – Abbasqulu ağa Bakıxanov, Məhəmməd ağa Şahtaxtinski, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Nəriman Nərimanov, Abdulla Şaiq, Əbdülbaqi Zülalov (Bülbülcan), Seyid Şuşinski və başqaları yaşayıb-yaratmışlar. İsmayıl Cəlilov belə bir mühitdə yaşamış, ilk təhsilini də burada almışdır. İsmayıl öz fitri istedadı, zəhmətsevərliyi ilə diqqəti çox erkən cəlb etmişdi. Lap gənc yaşlarında indi ermənilərin əlində olan Zəngəzur, Gorus bölgəsinə dövlət qulluğuna göndərilən İsmayıl gələcək ömür-gün yoldaşını da elə orada, Şahverdi kəndində görüb bəyənmişdi. Qaynar təbiətli İsmayıl bir gün



*İsmayıl Cəlilov*

həmin Şahverdi kəndində Kübra adlı gözəl bir qıza rast gəlir, necə deyərlər, elə ilk baxışdaca qıza vurulur. Əliağa Vahid demiş: «Hər kim deyirsə, sevmə bu rəna gözəlləri, bilmir ki, sevgi aləmi biixtiyaridir». Sevib-sevilmək günah deyildir. Ancaq iş burasında idi ki, İsmayılın sevdiyi qızın on beş yaşı vardı. Bu yaşda qızı ona verərdilərmi? Kübra da ona biganə deyildi. İyirmi bir yaşlı gəncin qaynar çağıydı və Kübranın gözəlliyi onun varlığına hakim kəsilmişdi. Yetkinlik yaşına çatmamış qızı qaçırdardısa, başına nələr gələ biləcəyinin fərqində deyildi. Ən azı işini itirə bilərdi. Lakin gənc kommunist öz qərarını vermişdi, Kübranı qaçırtmışdı. Təsadüfdənmi, ona olan xoş münasibətlərdənmi, hər nə idisə, on beş yaşlı bir qızla evlənməsinə görə İsmayılı incitməmişdilər.

Sovet hökumətinin ilk illəriydi. İsmayıl kimi fərasətli, savadlı, sədaqətli gənclərə ehtiyac vardı. Vəzifəsi ilə əlaqədar İsmayıl Cəlilov tez-tez yaşayış yerini dəyişməli olurdu. Elə buna görə də övladlarının doğum şəhadətnamələrində fərqli məkanlar göstərilib.

Roza – İsmayıl Cəlilovun ilk övladı idi. O, 1929-cu ilin 17 mayında Qubada doğulmuşdu. Çünki İsmayıl Cəlilov o vaxt Quba rayonunun I katibi vəzifəsində işləyirdi. Atası ilə eyni ayın eyni günündə dünyaya gəlmiş qızın adını isə anası Kübra xanım qoymuşdu.



*Kübra Cəlilova*

Ancaq qəribədir ki, Rozanın şəhadətnaməsində doğum yeri Quba yox, Dəvəçi (İndiki Şabran) yazılıbdır. Nə üçün belə bir hal baş verib, indi söyləmək çətindir. Roza xanımın bacısı Azadə (Lenay) isə 1930-cu ildə Dilicanda anadan olmuşdu.

Cəlilovlar ailəsi 1931-ci ildə Bakıya köçmüşdü. Roza xanımın qardaşları Saleh (1932) və Ramiz (1940) paytaxtda doğulmuşdular.

İsmayıl Cəlilov bu illərdə elmi işlə məşğul olurdu və Azərbaycan Neft İnstitutunda dekan vəzifəsində çalışırdı. İsmayıl Cəlilov öz ailəsi ilə birgə xalq arasında Alimlər evi kimi tanınan binada yaşayırdı. İşlər qaydası ilə gedirdi. Balaca Roza ailənin sevimlisi idi. Bəs necə, atası ilə eyni ayda, eyni gündə doğulmuşdu! Bu, hər ailəyə, hər uşağın bəxtinə yazılmayan bir xoşbəxtlikdi. Hər il eyni gündə ata ilə qızının ad gününü qeyd edirdilər. Dost-tanışın da iştirak etdiyi bu ad günləri çox şən keçərdi. Çünki İsmayıl musiqini, xanəndə və aşıqları çox sevirdi, onların şirin avazlarına, ifalarına qulaq asmaqdan doymazdı. Qərb musiqisinə də biganə deyildi. Onun incəsənətə olan bu məhəbbəti balaca Rozaya da sirayət etmişdi. Pianonu çox sevirdi. Xəyalən balaca barmaqları pianonun ağappaq şirmayı dilləri üstə gəzirdi.



*Sağdan: Roza bacısı Azadə ilə*

Gürcüstanda doğulub boya-başa çatan İsmayıl gürcü dilini də yaxşı bilirdi və hərdən bu dili balaca Rozaya da öyrədirdi. Rozanın maraq dairəsi böyük idi. Rəqs etməyi də çox sevirdi. O, zərif qollarını yana açıb oynayanda elə gözəl görünürdü ki... Atası fərəhlənib qızının üzündən öpər:

– Ay maşallah, lap balerinaya oxşayırsan! – deyərdi.

– Balerina nədi, ata? – Roza heyrətlə soruşardı.

– Vaxt gələr, bilərsən.

– Mən indi bilmək istəyirəm.

– İndi desəm də, başa düşməyəcəksən. Bir az böyü, səni xoreoqrafiya məktəbinə qoyaram, bilərsən balerina nə deməkdi.

– Bəs xoreoqrafiya nədi?

Uşağın min bir sualına cavab vermək üçün hövsələ lazımdı. İsmayıl da səbir göstərib demişdi:

– Orada rəqs etməyi öyrənəcəksən. Sən Azərbaycanın ilk balerinalarından biri olacaqsan.

Roza bu cavabdan sevinmişdi. Qanadlanıb uçmaq istəyirdi.

Roza məktəb yaşına gəlib çatmışdı. Qanlı-qadalı 1937-ci il idi. Roza bu 37-nin fəlakətlərini dərk edəcək

yaşda olmasa da, 132 nömrəli məktəbin birinci sinfinə getdiyi üçün yadında əlamətdar il kimi qalmışdı. Bir də ona görə əlamətdar il idi ki, atası İsmayıl Cəlilov professor elmi adına layiq görülmüşdü. 31 yaşında professor!

***

Rozanın doqquz yaşı olanda atası ona dedi:

– Roza, yadındadı, sənə demişdim vaxt gələndə səni xoreoqrafiya məktəbinə qoyacağam?

– Bəli, yadımdadı, ata.

– Hazırlaş, bu gün səni xoreoqrafiya məktəbinə aparacağam.

O zaman azərbaycanlı balerinaları barmaqla sayardın. Qəmər Almaszadə, Sara Mirəliyeva, Aliyə Əzimova, Adilə Almaszadə və Tamara Əliyevadan başqa azərbaycanlı balerina yox idi.

Xoreoqrafiya məktəbi Opera və Balet Teatrının nəzdində fəaliyyət göstərirdi. Binaları da yanyanaydı.

Günəşli bir gün idi. İsmayıl üz-gözündən sevinc yağan Rozanın əlindən tutub xoreoqrafiya məktəbinə aparırdı. Məktəbə çataçatda qarşılarına tələbəsi, xoreoqrafiya məktəbinin müəllimi Sara xanım Mirəliyeva çıxmışdı. Bu, gözlənilməz və çox uğurlu bir təsadüf idi.

Sara xanım sevincək:

– Xoş gördük, müəllim, – dedi.

– Xoş gördük, necəsən, Sara xanım, – İsmayıl Sara xanımın əlini mehribancasına sıxdı.

Sara xanım:

– Çox sağ olun, yaxşıyam, – dedi və atasına qısılmış Rozanın başına sığal çəkdi. – Maşallah, nə gözəl qızınız var!

– Hə, sağ ol.



*Xoreoqrafiya məktəbində Olqa İlyinanın rəhbərliyi ilə məşq zamanı. Soldan 2-ci Roza. 1938*

– Adı nədi bu Şərq gözəlinin?

– Roza.

– Adı ilə böyüsün!

– Sağ ol... Bu gözəl qızımı sizin məktəbə qoymaq istəyirəm.

Sara xanım dərhal dilləndi:

– Çox gözəl. Çox şad oldum. Bilirsiniz də, səhnəmizdə, əsasən, başqa millətdən olan balerinalar çalışırlar.

– Bilirəm. İnşallah, gün gələr bizimkilərin də sayı çoxalar.

– Allah qoysa, – deyə Sara xanım Rozanın əlindən tutdu. – Gedək, Roza, bu gündən bizim şagirdimizsən.

Sara xanım xəzinə tapıbmış kimi yumşaq əlini Rozanın zərif kürəyində gəzdirə-gəzdirə xoreoqrafiya məktəbinə sarı irəlilədi. Məktəbin qapısına çatanda Roza ixtiyarsız dönüb geriyə baxdı, atası hələ də bayaq dayandığı yerdən tərpənməmişdi. Üzünə təbəssüm qonmuş İsmayıl Cəlilov

əlini yellədərək qızına «uğur» dilədi. Bu an balaca Rozanın yaddaşına ömürlük həkk olundu.

***

Roza səhərlər 132 nömrəli məktəbə dərsə, günortadan sonra isə xoreoqrafiya məktəbinə gedirdi. O elə ilk gündəcə başa düşmüşdü ki, balerina olmaq elə də asan sənət deyil, gərək buna bütün həyatını qurban verəsən.

Əlbəttə, rəqs sənətinin tarixi çox qədimdir, balet isə ona nisbətən çox cavandır. Mütəxəssislərin qənaəti belədir ki, balet beş-altı əsr bundan əvvəl İtaliyada yaranıb. Elə buradan da Avropaya, daha sonra Rusiyaya qədəm basıb. Beləliklə, XVIII əsrdə balet artıq Avropada, Rusiyada dəbə minmişdi. Başlanğıcda Rusiyada peşəkar balet təlimçiləri olmadığından balet müəllimləri fransızlar idi. Çar sarayında, ayrı-ayrı mülkədarların böyük ziyafət zallarında balet ustaları rəqs tamaşaları göstərərdilər.

Zaman keçdikcə balet operanın əlavəsindən çıxaraq öz hərəkətlərinin gözəlliyi ilə tamaşaçıları valeh edən səhnə sənətinə çevrilmişdi. Rusiyada məşhur bəstəkar P.İ.Çaykovski «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» kimi gözəl baletlərini yaratmışdı.

Azərbaycanda isə baletin tarixi daha cavandır. Buna baxmayaraq, Azərbaycan bəstəkarları bu sahədə də böyük uğurlar əldə etmişlər. Görkəmli bəstəkarlarımızdan Əfrasiyab Bədəlbəylinin «Qız qalası», Qara Qarayevin «Yeddi gözəl», «İldırımlı yollarla», Arif Məlikovun «Məhəbbət əfsanəsi», Fərəc Qarayevin «Qobustan kölgələri», Fikrət Əmirovun «Min bir gecə» baletləri dünyada məşhurdur. Bütün bu uğurlar sonra olacaqdı, hələ Azərbaycan baleti ilk addımlarını atırdı.



*Məşq zamanı. Sağdan: Roza Cəlilova*

Baleti uşaq yaşlarından başlayaraq yetkinlik yaşına kimi – 9–10 il müddətinə öyrənirlər. Balerina olmaq istəyən kəs hər gün usanıb-yorulmaq bilmədən məşq etməlidir. Bu məşq sözü, əslində, yeniyetmə balet məktəblisinin keçirdiyi həyəcanları, fiziki çətinlikləri, yorğunluqları heç də tam əks etdirmir. Balerina olmaq istəyən əvvəl-əvvəl heç cürə «sözə baxmayan» ayaqlarını, əllərini, bütün əzələlərini möhkəmlədib çevik, elastik forma verənəcən çalışmalıdır.

Roza Cəlilova belə bir yola qədəm qoymuşdu. Onun gözləri önündə başqa bir aləm açılmışdı. Divara bərkidilmiş tirdən yapışıb müəllimin göstərdiyi hərəkətləri ayaqlarınla usanmadan təkrar etmək ona ilk vaxtlar çox çətin gəlirdi. Lakin Roza bütün çətinliklərə dözməyə hazır idi. Axı atası onu balerina görmək istəyirdi. Səhnə onu gözləyirdi. Lakin o günlərə hələ çox vardı. Hələ musiqiyə alışmayan qulaqlarını min bir məna daşıyan səslərə, musiqinin ritminə diqqət kəsilməyə öyrətməliydi. Hələ bu

harasıydı, ayaq barmaqları ucunda ox kimi düz dayanmağı öyrənmək... «Puant» adlandırılan bu hərəkəti mənimsəmək üçün nə qədər əmək, vaxt sərf etməliydi, günlərlə ağrıyan barmaqlarını ovuşdurmalıydı. Bir sözlə, səhnədə hərəkətlərin yüngül və gözəl olması üçün çox əmək sərf etməliydi. Bunun üçün isə hər gün müəllimin nəzarəti, təlimi əsasında yorulmadan məşq etmək gərək idi. Nəticədə gözəl, əsrarəngiz musiqinin sədaları altında səhnədə quş kimi uçacaqdı.

Səhnədə yalnız rəqs etməklə obraz yaratmaq, tamaşaçı yaddaşında qalmaq sadə məsələ deyildir. Sənin əllərin, ayaqların, baxışların, bir sözlə, bütün vücudun «danışmalıdı». Qəhrəmanın hiss və duyğularını yaşamağı bacarmalı, mənfi, ya müsbət keyfiyyətlərini rəqsində, baxışlarında, sifət mimikalarında təcəssüm etdirməlisən. Müəllimləri bütün bu incə nüansları Rozaya və onun yaşıdlarına aşılayırdılar. Aktyorluq sənətindən isə ona A.A.Tuqanov dərs deyirdi. Görkəmli rejissor, teatr xadimi A.A.Tuqanov 20–30-cu illərdə Azərbaycanda fəaliyyət göstərmiş, böyük dramaturqumuz Cəfər Cabbarlı ilə sənət dostluğu etmiş, Azərbaycan dramaturqlarının bir çoxunun pyeslərinə rejissorluq etmişdi. Eyni zamanda teatr texnikumunda dərs demişdir. Əsl ziyalı, teatr işinin bilicisi A.A.Tuqanov bir çox tələbələri kimi Roza Cəlilovanın da xatirəsində əsl insan kimi yaşamaqdadır.

Günlər gəlib keçirdi. Roza orta məktəbdə oxumaqla yanaşı, xoreoqrafiya məktəbində də təhsilini davam etdirirdi. O, hətta kiçik yaşlarındaykən P.İ.Çaykovskinin A.S.Puşkinin «Pikovaya dama» («Qaratoxmaq qadın») poeması əsasında yazdığı operasında ərəb qızı rolunda oynamışdı. Bu qarayanız, suyuşirin qızda qəribə bir aura,

cazibə vardı. Davranışı, rəftarı dərhal ətrafındakılara sirayət edir, diqqəti cəlb edirdi.

1939-cu ildə Moskvada Ümumittifaq paradı keçirilirdi. Bu parada müttəfiq respublikalardan məktəblilər cəlb olunmuşdu. Roza Cəlilova da bu uşaqlardan biriydi. Bir yerə cəlb olunmuş on minlərlə yeniyetməni təlimatlandırıb, müxtəlif şüarlar, plakatlarla Kremlin qarşısına, Qızıl Meydana toplamışdılar. Sovet İmperiyasının başçısı tribunada olmasına baxmayaraq, meydanın bir tərəfini həm də onun nəhəng portreti bəzəyirdi.

O zaman dünyada baş verən hadisələr heç də ürəkaçan deyildi. 1939-cu ilin sentyabrında Sovet–Fin müharibəsi olmuşdu. Doğrudur, bu müharibə qısa müddətli, həm də Sovet İttifaqının qələbəsi ilə başa çatmışdı. Bununla belə İtaliyada, Almaniyada baş verən proseslərdən müharibə qoxusu gəlirdi və İsmayıl Cəlilov bunu aydınca hiss edirdi.

Ancaq müharibə hələ başlamamışdı. Həyat öz axarıyla davam edirdi. İsmayıl Cəlilov öz iş-gücü ilə, Kübra xanım uşaqlarıyla məşğul idi. Roza həm orta məktəbdə oxuyur, həm də fasilə vermədən balet dərslərinə gedirdi.

1940-cı ildə İsmayıl Cəlilovun sonbeşiyi – dördüncü övladı dünyaya gəldi. Adını Ramiz qoydu. Onun gəlişi ilə ailə bir az da böyümüşdü, indi altı baş olmuşdular. Ailəyə yeganə qazanc gətirən isə İsmayıl idi və bundan heç də darılmırdı, kommunist olsa da, ruzini verən Allahdı – deyirdi.

1941-ci il 22 iyunda İsmayılın fəhmi özünü doğrultdu. Alman qoşunu müharibə elan etmədən Sovet İttifaqının sərhədini keçib ölkənin içərilərinə doğru irəlilədi.

İkinci Dünya müharibəsi beləcə gözlənilmədən başlamışdı, dərhal da ölkədə səfərbərlik elan edilmişdi.

İsmayıl daxilən narahat olsa da, həyəcanını büruzə vermirdi, özünü toxtaq aparırdı, amma Kübra xanım əri sarıdan nigarançılıq içindəydi. 41-ci ili beləcə səksəkə içində yola saldılar. Gənc professoru, elm adamını, dörd uşaq atasını müharibəyə aparmadılar. Ön cəbhədən isə hər gün ziddiyyətli xəbərlər gəlirdi. Bu ziddiyyətli xəbərlərlə yanaşı, döyüşdə həlak olanların «qara kağız»ları da qapıları döyməyə başlamışdı. Artıq Rozanın sinif yoldaşlarının çoxusunun atası cəbhədə vuruşurdu, atasını itirənlər vardı. Ürəyində şükür eləyirdi ki, atasına hələ ki, dəyib-toxunmurlar.

Ancaq 42-ci ilin yayında Mərkəzi Komitənin birinci katibi Mir Cəfər Bağırovun göstərişi ilə İsmayıl əlli nəfərlik dəstəylə cəbhəyə gedəsi oldu. İsmayılın ilk və sonuncu məktubu Kerçdən gəldi. Bir daha ondan səs-soraq çıxmadı. Hər şey aydın idi, o əlli nəfər elə ilk döyüşdəcə həlak olmuşdu.

Atasının onlarla birgə olduğu sonuncu gecə də on iki yaşlı Rozanın yaddaşına əbədi həkk olunmuşdu. Mərkəzi Komitəyə çağırılan, Mir Cəfər Bağırovdan əlli nəfərlik bir heyətlə Kerçə getmək göstərişini alan atası o gecə fikirli və tutqun idi. Qəsdən özünü şən göstərmək istəsə də alınmırdı. Kübra xanımın da sifəti avazımışdı. Atası sonbeşiyini, ikiyaşlı Ramizi qucağına alıb elə hey üz-gözündən öpür, sinəsinə sıxıb qoxlayırdı, sonra uşağı ayaq üstəcə quruyub qalmış gənc xanımı Kübranın qucağına verib o biri uşaqlarını öpüb oxşadı. Növbə Rozaya çatanda alnından öpüb yanında oturtdu:

– Roza, – dedi və susdu, deyəsən, boğazını qıcıqlandıran qəhərin keçib getməsini gözləyirdi. Nəhayət, özünə gəlib fikrini tamamladı. – Nə olursa-olsun, xoreoqrafiya

məktəbini atma. Sən səhnəmizin ən məşhur rəqqasəsi, balerinası olacaqsan! Bax, bu saat mən səni səhnədə dəniz üzərində qanad çalan qağayı kimi təsəvvür edirəm. Səni necə alqışlayırlar, tamaşaçılar ayaqlarının altına necə güllər səpirlər...

Atasının bu ayrılıq gecəsində ona söylədiyi sözləri çox poetik, emosional bir tövsiyə idi.

Rozanın gözlərindən bir cüt yaş axıb yanaqlarında iz saldı. Elə bil dili tutulmuşdu, danışmağa söz tapmırdı, ancaq qəlbində and içirdi ki, nə olursa-olsun, atasının inamını doğruldacaq, Azərbaycan səhnəsinin ən sevilən rəqqasəsi olacaqdır.

***

Daim atasının qayğısını, məhəbbətini hiss eləyən, onunla öyünən, güvənən on iki yaşlı qızın gözlənilmədən atasız qalması çox ağır idi. Bircə günün içində bu itkidən doğan kədər onun varlığına hakim kəsilmişdi. Evin başçısı, ruzi gətirəni cəbhədə həlak olmuşdu. İndi onlar neyləyəcəklər, anası bu dörd uşağı böyüdüb boya-başa çatdıra biləcəkmi? Kübra xanımı da düşündürən bu idi. Bu günə qədər heç harda işləməmişdi. Nə biləydi ki, müharibə onun ömür-gün yoldaşını, uşaqlarının atasını əlindən alacaqdır.

İsmayıl müharibəyə gedəndə Kübra xanım hamilə idi. Bununla yanaşı, ailənin bütün ağırlığı da onun çiyinlərindəydi. Fikir çəkməkdən saralıb-solmuşdu. Bu da körpəsinin vaxtından bir ay tez dünyaya gəlməsinə səbəb oldu. Onda bildi ki, bətnində əkiz uşaq daşıyırmış. Lakin vaxtından tez doğulmuş əkizlər yaşamadılar. Əkizlərini itirməsi də gənc anaya dərd oldu. Kübra xanım çox

qənaətlə dolanırdı. Məktəbli Rozaya hər səhər altı qəpik yolpulu verirdi. Yaşyarımlıq sonbeşiyinə görə hər gün talonla bir ağ çörək, bir dənə də bulka alırdı. Kübra xanım bulkanı sonbeşiyi üçün saxlayır, ağ çörəyi isə Rozaya verirdi ki, mağazaya aparıb qara çörəklə dəyişsin. Roza da 400 qramlıq ağ çörəyi mağazaya aparıb 1 kq 600 qramlıq qara çörəklə dəyişdirər, sevinə-sevinə evə qayıdardı. Bir gün yenə ağ çörəyi dəyişib geri qayıdanda ortayaşlı bir qadın yeniyetmə Rozaya təklif etmişdi ki, o da hər gün ağ çörəyi qara çörəklə dəyişə bilər. Roza da qadının bu təklifi ilə razılaşmışdı: axı onun üçün nə fərqi vardı, əsas o idi ki, çəkisi ağ çörəklə müqayisədə daha çox olan qara çörək alıb evə aparaydı.

Lakin Kübra xanım uzun müddət bu sayaq yaşaya, körpə uşaqlarını böyüdüb boya-başa çatdıra bilməzdi. Çox düşünüb-daşınandan sonra bir işin qulpundan yapışmaq niyyəti ilə o zaman Mərkəzi Komitədə təbliğat və təşviqat şöbəsinin müdiri (1941–1944) vəzifəsində çalışan yazıçı Süleyman Rəhimova müraciət etdi. Süleyman Rəhimov Kübra xanımı dinləyib onu Mərkəzi Komitənin şöbə müdirlərinə xidmət edən bufetə işə düzəltdi.

Bir müddətdən sonra İsmayılın cəbhədə həlak olmasına görə dövlət Kübraya iyirmi min manat verdi, uşaqlara on səkkiz yaşına kimi təqaüd də kəsildi.

Sovet hökuməti müharibədə qalib gəlməyin bir yolunu da təbliğat-təşviqatda görürdü. Buna görə də ölkənin çox ağır dövrü olsa belə, mədəniyyətə, incəsənətə, ədəbiyyata çox diqqət yetirilirdi. Öz vətəndaşlarını qələbəyə inandırmaq, ön və arxa cəbhənin monolit birliyini yaratmaq üçün bütün təbliğat vasitələrindən istifadə edilirdi. Bu sahədə mədəniyyətin, incəsənətin, ədəbiyyatın rolu çox

böyük idi. Buna görə də insanları ruhlandırmaq üçün tamaşalar, konsertlər, musiqi festivalları keçirilir, ön cəbhəyə konsert briqadaları göndərilirdi.

Rozanın oxuduğu xoreoqrafiya məktəbində dərslər əvvəlkindən də ciddi keçilirdi. Uşaqları həvəsləndirmək üçün ayda 62 manat təqaüd, həm də səhər yeməyi verilirdi.

***

1943-cü il idi. Müharibənin ən şiddətli çağı. Buna baxmayaraq, respublikada Uşaq və Gənclərin olimpiadası keçirilirdi. Buna görə də komissiya üzvləri orta məktəblərə gedir, olimpiadada iştirak etmək üçün istedadlı uşaqları seçirdilər. Bu niyyətlə komissiya üzvlərindən 132 nömrəli məktəbə də gələnlər oldu. Komissiya üzvləri arasında məşhur rəqqaslar – Əlibaba Abdullayev və Əminə Dilbazi də vardı. Məktəbin zalında istedadlı uşaqlar öz məharətlərini göstərirdilər. Altıncı sinif şagirdi Roza Cəlilovanın rəqsi Əlibabayla Əminənin diqqətini cəlb etmişdi. Ona görə də Əlibaba Abdullayev ondan soruşmuşdu:

– Qızım, sən oynayansan?

– Xeyr.

– Bəs bu hərəkətləri haradan bilirsən?

– Mən həm də xoreoqrafiya məktəbinin şagirdiyəm.

– Hə... Çox gözəl. Mən sənin üçün gözəl bir «Bala ceyran» rəqsi quracam, öyrənib olimpiadada iştirak edərsən. Razısan?

– Bəli.

Beləcə, məşq üçün günlər təyin olundu. Qısa müddətdə «Bala ceyran» rəqsini hazırladılar. Olimpiadada

rəqsin solo hissəsini ifa edən Roza birinci yeri tutdu. Fərəhindən az qala qanad açıb uçacaqdı. Atasının arzuları çin olurdu.

Olimpiadanın sonunda qaliblərin yekun konserti oldu.

***

Yeddinci sinifdə oxuyanda vəziyyət dəyişdi. Altı il səhər növbəsində oxuyan Roza indi günün ikinci yarısında oxumalıydı. Orta məktəbdəki dərslərlə xoreoqrafiya məktəbindəki təlimlər eyni vaxta düşürdü. Roza seçim qarşısında qalmışdı: ya məktəb, ya da xoreoqrafiya. Lakin Roza heç nəyə baxmayaraq, orta və xoreoqrafiya məktəblərini bitirmək fikrindəydi. Allaha şükür ki, anası işlədiyi üçün ailələri indi o qədər də korluq çəkmirdi. Anası ilə məsləhətləşib sənədlərini orta məktəbdən götürərək axşam məktəbinə verdi.

Gecə qız uşağı üçün məktəbə getmək elə də asan deyildi. Anası da işdən gec gəlirdi. Lap tez gəlsə belə, bacı-qardaşlarına baxmaq, bişirib-düşürmək də Rozanın üstünə düşürdü. Ona dəyib-dolaşan olmasa da, axşamlar məktəbə bir qədər səksəkə içində gedirdi. Müharibənin şiddətli vaxtıydı. Küçələrdə işıqlar yanmırdı, hətta evlərin pəncərələri belə örtülü olardı. Hitlerin neft Bakısını ələ keçirmək planı hələ də qüvvədəydi. Ona görə də gecələr şəhər işıqlandırılmırdı.

Roza bir dəfə də olsun xoreoqrafiya məktəbindən qalmırdı. Çünki balerina sənəti davamlı, ardıcıl və məqsədli şəkildə məşqlər etməyi tələb edirdi. Əks təqdirdə yaxşı rəqqasə olmaq, dəniz üzərində qanad çalan qağayılar kimi səhnədə barmaqların ucunda gəzmək, bütün varlığınla musiqini duyub sözsüz obraz yaratmaq, səssiz

nəğmələr oxumaq mümkün deyildi. Müəllimləri onların üstündə əsirdilər, qayğılarına qalırdılar. Məktəbdə, hətta fiziki çəkilərinə belə nəzarət edirdilər. Hər şey qaydasında olmalıydı. Səhnə çevikliyi sevir. Roza da yemək-içməyinə nəzarət etməklə yanaşı, hər gün yorulub, usanmadan məşq edirdi. Kerç sularına qərq olmuş atasının arzularını doğrultmalıydı. Klassik musiqinin gah coşqun, gah həzin sədaları altında məşq edərkən bəzən yaddaşında olimpiadada oynadığı «Bala ceyran» xalq rəqsinin melodiyası canlanır, sanki onu gözəgörünməz tellərlə özünə doğru çəkirdi. Nə olmuşdu, nə baş verirdi? Dərk edə bilmirdi. Onu P.İ.Çaykovskinin «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik», Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baletində oynamaq üçün hazırlayırlar, o isə «Bala ceyran» xalq rəqsinin orbitinə düşüb.

Rozanın içində, daxilində gedən bu qabarıb-çəkilməni heç kəs görə və onun o çağdakı, o yaşdakı təbəddülatlarını başa düşə bilməzdi. Bu həm başa düşülən, həm də anlaşılmaz bir duyğuydu. Kimsə Xəzərə əmr edə bilməzdi ki, dalğalarını sahilə çırpmasın. Sakit havada ləpələri Günəşin şüası altında par-par parıldamasın. Təbiət təzadlarla, əksliklərlə dolu olduğu kimi, insan qəlbi, ruhu da dəyişkəndir, istəyi, arzusu hüdudsuzdur. O, daim düşünür-daşınır, arzusunun, istəyinin dalınca qaçır, bəzən çatır, bəzər yarı yolda qalır. Kimliyindən asılı olmayaraq insanın qisməti belədir. Bəzən getmək istədiyin yolla deyil, tamam başqa bir səmtə yol alırsan. Burada bəxtin gətirəcək, gətirməyəcək, bilmirsən. Çünki taleyi, bəxti verən Tanrıdır.

1945-ci il 9 mayda Böyük Vətən müharibəsi Sovet İttifaqının qələbəsi ilə başa çatdı. Bu yolda milyonlarla

adam canından keçdi, şikəst oldu, şəhərlər, kəndlər viran qaldı. Bununla belə müharibənin zəfərlə başa çatması adamların həyat eşqini, qurub-yaratmaq əzmini özünə qaytardı. Təbii ki, Roza ordudan tərxis olunanlar arasında atasını görməyəndə atasızlığın ağrısını bir daha qəlbən yaşadı. Ancaq nə etmək olardı, müharibə itkisiz, fəlakətsiz başa çatmır, atasını itirən təkcə o deyildi. İndi axşamlar şəhərin işıqları yanırdı, pəncərələr taybatay açılmışdı, evlərdən gülüş səsləri gəlirdi. Roza məktəbə daha qorxub-çəkinmədən gedib-gəlirdi.

1947-ci ildə Roza xoreoqrafiya məktəbini bitirdi. Təyinatını Opera və Balet Teatrına verdilər. İki il Opera və Balet Teatrının balet truppasında balerina işlədi. İlk baxışda hər şey öz qaydasında idi. Gündəlik məşqlər, tamaşalar, tamaşaçı alqışları, tanınmış sənətkarlarla ünsiyyət dünyagörüşünü daha da zənginləşdirirdi... Bütün bunlar qiymətliydi, ancaq xalq rəqsi onu maqnit kimi özünə çəkirdi. Fikri on üç yaşında oynadığı «Bala ceyran» rəqsində qalmışdı. Bu nə haldı, bu nə istəkdi, heç özü də baş açmırdı. Bu barədə anasına bir söz deməyə də ürəyi gəlmirdi. Bilirdi ki, bu barədə danışsa, etiraz edəcək, «atanın arzusunu beləmi yerinə yetirirsən?» deyəcəkdi. İki il birtəhər dözdü, iki ildən sonra opera teatrından getmək qərarına gəldi. Bu dəfə anasının etirazının, israrının da bir nəticəsi olmadı. «Filarmoniyada mahnı və rəqs ansamblında oynayacam!» – dedi. Kübra xanım gördü ki, Rozanı fikrindən daşındıra bilməyəcək, razılaşdı.

1949-cu ilin lap əvvəlində opera teatrından, balet yoldaşlarından ayrılıb filarmoniyaya gəldi. Ona yer olmadığını söylədilər. Buna görə də o zaman İncəsənət

İşləri üzrə İdarənin rəisi işləyən Hökumə Sultanovanın* qəbuluna getdi. Hökumə xanım onu mehriban qarşıladı:

– Buyur, qızım, eşidirəm səni. Nə lazımdı?

– Hökumə xanım, mən istəyirəm...

– Çəkinmə, de görüm nə istəyirsən?

– İstəyirəm filarmoniyada mahnı və rəqs ansamblında...

– Haranı bitirmisən?

– Xoreoqrafiya məktəbini.

– Ay qız, dövlət xərc çəkib səni oxudub ki, balerina olasan, indi gəlib başqa fikrə düşmüsən. Özün görürsən ki, bu sahədə azərbaycanlı qızlar azdır. Biz istəyirik ki, balerina qızlarımızın sayı çox olsun, amma gör sən nə fikrə düşmüsən. Xalq rəqsinə özfəaliyyətdən gəlirlər, sən isə...

Roza fikrində israr etdi:

– Hökumə xanım, ya mənə kömək eləyin mahnı və rəqs ansamblına gedim, ya da mən balerinalıq etməyəcəm.

Hökumə xanım bu gözəl qızı sındırmaq istəmədi. Kağız parçasında diləkçə yazıb ona verdi:

– Yaxşı, bir halda ki, israr edirsən, get filarmoniyaya. Bu kağızı da verərsən rəhbərliyə.

Mahnı və rəqs ansamblında da onu yaxşı qarşılamadılar. «Yerimiz yoxdur», – dedilər. – «Vəssalam».

---

* Hökumə İsmayıl qızı Sultanova 1909-cu ildə anadan olub. 26 yaşında Azərbaycan KP MK-nin şöbə müdiri vəzifəsində işləyib. İşləməklə bərabər, 1936-cı ildə Marksizm-Leninizm İnstitutunu bitirib. Uzun müddət indiki ADPİ-də, Dövlət Neft Akademiyasında, Dövlət İdarəçilik Akademiyasında kafedra müdiri vəzifəsində çalışıb. 1944–1947-ci illərdə «Azərnəşr»in direktoru olub. 1947–1951-ci illərdə İncəsənət İşləri üzrə İdarə rəisi, Nazirlər Soveti sədrinin müavini və s. vəzifələrdə çalışıb. 1981-ci ildə vəfat edib.



*Hökumə Sultanova*

Təkrar Hökumə xanımın yanına qayıtdı. Hökumə xanım Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri Qılman Salahova zəng edib dedi: «Əgər yeriniz yoxdursa, rəqqasələrdən birini çıxarıb bu qızı götürün, axı bu qız xoreoqrafiya məktəbini bitirib».

Əslində, Qılman Salahovun bu məsələdə heç bir günahı yox idi, sadəcə, Rozanı rəqs qrupunda özlərinə rəqib görənlər vardı. Bəs necə? Peşəkar balerina milli rəqs havaları oynamağa gəlmişdi. Ola bilməz ki, özü ilə yenilik gətirməsin, fərqlənməsin... Bəli, zaman-zaman belə olur, köhnələr, oturuşmuşlar təzə gələnə bir qədər yad, ögey münasibət bəsləyiblər. Əvvəl-əvvəl həmişə belə olub, sonra qaynayıb-qarışırlar.

Və beləcə Roza Cəlilova 1949-cu ildə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında rəqqasə kimi fəaliyyətə başladı. Ona görə kimsəni də işdən çıxartmadılar, yoxsa buna görə özünü bağışlamazdı.



*Gənclik gözəllikdir*

## AZƏRBAYCAN DÖVLƏT MAHNI VƏ RƏQS ANSAMBLINDA

Bu mahnı və rəqs ansamblının yaşı elə də qədim deyildi. İlk peşəkar rəqs ansamblı Əşrəf Məşədi Mustafa oğlu Səfərov tərəfindən 1935-ci ildə yaradılmışdı. Əminə Dilbazi, Leyla Bədirbəyli (bir müddət Cavanşirova soyadı ilə çıxış edib), Əlibaba Abdullayev, Məhərrəm və Fərəc Cavanşirov qardaşları, Hacı Ağayev, Böyükağa Atababayev, Hənifə Şəfi Ələsgərov, Gülrux Zahidova, Urfa Səfərova, Münəvvər Dadaşova, Qüdsiyyə Qafarova, Nəsibə Məmmədova ansamblın ilk üzvləri idilər. Elə həmin ildə Üzeyir bəy Hacıbəylinin yaxından köməyi ilə ansambl Azərbaycan İncəsənət İşçiləri İdarəsi yanında I Dövlət Xalq Rəqs Ansamblına çevrildi. Ansambla rəhbərlik, təbii ki, onun yaradıcısı Əşrəf Səfərova tapşırıldı. 1936-cı ilin oktyabr ayında ölkə başçısı M.C.Bağırovun göstərişi ilə I Dövlət Xalq Rəqs Ansamblı təzəcə yaradılmış Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyətə başladı. Elə həmin ildə Üzeyir bəyin idarəsi altında 80 nəfərdən ibarət I Azərbaycan Dövlət Xoru yaradılmışdı. 1938-ci ilin aprelində Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə hər iki kollektiv ayrılıqda iştirak edirdi.

Moskvada Azərbaycan incəsənəti ongünlüyünün ilk çıxışı 1938-ci ilin aprel ayının 5-də olmuşdu. 700 nəfərlik möhtəşəm bir heyətin qatıldığı bu tarixi ongünlük çox uğurla keçmişdi.



*Mahnı və rəqs ansamblının kollektivi*

Ongünlükdən sonra filarmoniyada yaradıcı mühit daha da canlanmışdı. Burada Dövlət Simfonik Orkestri, daha sonra Üzeyir bəyin rəhbərliyi ilə mahnı və rəqs, Sazçı Qızlar ansamblları yaradılmışdı. Bir müddətdən sonra Üzeyir bəy mahnı və rəqs ansamblının bədii rəhbərliyini öz assistenti Qılman Salahova etibar etmişdi. Yeri gəlmişkən, xatırladım ki, Dövlət Mahnı və Rəqs Ansamblının 1938-ci ildə yarandığını söyləyənlər olsa da, bu fikir yanlışdır. Heç şübhəsiz, bu fikir hər iki kollektivin – Dövlət Rəqs Ansamblının və Dövlət Xorunun ongünlükdə iştirakından qaynaqlanmışdır. Təsadüfi deyildir ki, 1941-ci ildə rus dilində nəşr olunmuş «Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı» kitabında bu ansamblın 1940-cı ilin yayında yarandığı və 80 nəfərdən ibarət olduğu yazılmışdır *(göstərilən kitab, səh. 6).*

Xalq artisti Əminə Dilbazi Üzeyir bəyə həsr etdiyi «Mənim xeyirxahım» adlı xatirəsində bu məsələyə toxunaraq yazır: «1941-ci ilin iyun ayı idi. Krıma qastrol səfərinə hazırlaşırdıq. Üzeyir bəy ansamblın (Mahnı və Rəqs



*Qılman Salahov*

Ansamblı nəzərdə tutulur – *M.Ç.*) rəhbərliyini Qılman Salahova tapşırmışdı. Rəqs qrupuna mən başçılıq edirdim *(«Üzeyir Hacıbəyov haqqında söz». Bakı, «Elm», 1990, səh. 67).*

Üzeyir bəyin düşüncəsinin bəhrəsi olan Dövlət Mahnı və Rəqs Ansamblı öz orijinallığı ilə diqqəti cəlb edir. Bu ansamblda xorla milli rəqsin vəhdəti yaradılıb. Burada xor, rəqs, instrumental ifaçılar dəstəsi birgə fəaliyyət göstərir. Ansamblın bu cür tərkibi imkan verirdi ki, kollektivin bütün üzvlərinin iştirakı ilə daha böyük süjetli musiqili xoreoqrafik tamaşalar hazırlasınlar. Mahnı və rəqs ansamblının tarixində «Dədə Qorqud», «Toy», «Bir bağçanın çiçəkləri» kimi teatrlaşdırılmış möhtəşəm quruluşlu musiqili xoreoqrafik konsertlər olmuşdur. Bu teatrlaşdırılmış musiqili xoreoqrafik konsertlərə nəinki ansamblın bütün üzvləri, filarmoniyanın solistləri Xan Şuşinski, Zülfü Adıgözəlov kimi məşhur xanəndələr, hətta şair Əliağa Vahid də cəlb olunardı.

Bu ansamblın yüksək səviyyəyə çatdırılmasında Üzeyir Hacıbəylinin, Qılman Salahovun, Cahangir Cahangirovun, Rəşid Əfəndiyevin, Məmmədağa Muradovun, xormeyster Hacıbaba Əliyevin, rejissor Soltan Dadaşovun böyük zəhməti olmuşdur. Dövlət Mahnı və Rəqs Ansamblının bu özünəməxsusluğu, repertuarının zənginliyi onu respublikada çox sevilən bir kollektivə çevirmişdi. Bu ansambla rəhbərlik edən insanlar təşkilatçılığı çox yaxşı bacaran,



*Rəşid Əfəndiyev*

həm də yaradıcı insanlardı. 1940-cı ildən 1964-cü ilə qədər mahnı və rəqs ansamblının bədii rəhbəri olmuş Əməkdar incəsənət xadimi Qılman Salahov (1906–1974) bu ansambl üçün «Əlində sazın qurbanı», «Ay gözəl», «Gəlmə», «Muleyli» xalq mahnılarını, «Naz eləmə», «Qəşəngi», «Turacı», «Lalə», «Qazağı» rəqs havalarını yenidən işləmiş, ansambl üçün «Nəlbəki», «Sevgilim», «Qaval», «Könül verdim» (sözləri Məmməd Rahimindir), «Bir dənəsən», «Dilbər» (sözləri Zəka təxəllüsü ilə şeirlər yazan rejissor Soltan Dadaşovundur) və s. rəqs-duetlərini yazmışdır.

Çox gənc yaşlarından tarzən kimi filarmoniyanın Xalq Çalğı Alətləri Orkestrində fəaliyyətə başlayan, Azərbaycan Dövlət Konservatoriyasının xor dirijorluğu şöbəsini bitirmiş Əməkdar incəsənət xadimi Rəşid Əfəndiyev (1916–1973) ömrünün axırınadək Dövlət Mahnı və Rəqs Ansamblının çalğı alətləri üzrə bədii rəhbəri olmuş, kollektiv üçün «Küsmərəm səndən», «Təzə gəlin», «Sən deyən olsun» kimi mahnılar, «Bənövşə», «Gənclik», «Üç dost», «Sevinc», «Qaytağı», «Çobanlar» və s. rəqs havaları bəstələmişdir.

Hər iki şəxsin – Qılman Salahov və Rəşid Əfəndiyevin dirijorluğu ilə 50–60-cı illərdə Dövlət Mahnı və Rəqs Ansamblının ifasında musiqili xoreoqrafik konsertlər maqnitofon lentlərinə, qrammofon vallarına yazılmışdır.



*Soldan: Əməkdar artist Tutu Həmidova və Roza Cəlilova*

İndi gec-gec də olsa, o illərin əks-sədası kimi mahnı və rəqs ansamblının ifasında həmin konsertlər səsləndirilir və bizi yenidən o illərə qaytarır.

Bu gün Xalq artisti Roza Cəlilovanın da taleyi, sözü-söhbəti, xatirələri elə o illərlə, Dövlət Mahnı və Rəqs Ansamblının o şöhrətli çağları ilə bağlıdır.

Məsəldi, deyir «Su girdi qaba, oldu içməli». Roza kollektivə çox tez isnişdi. İstedad adicə bir avazdan, havada bir anlıq görünüb çəkilən bir əl hərəkətindən görünür. Onu gizlətmək mümkün deyil. Bu gün olmasa da, sabah üzə çıxacaq. Rozanın istedadı çox tez üzə çıxmışdı.

Ondan əvvəl ansamblda çalışan Şəfiqə Əmirova və Tutu Həmidovayla rəfiqəlik edirdi.

Onlar, hətta müharibə dövründə ön cəbhələrdə əsgərlər qarşısında konsert vermiş rəqqasələr idilər. İki ifaçı – Xalq artisti Əlibaba Abdullayev ilə Tutu Həmidova həm də öz gözəl səsləri ilə Mahnı və Rəqs Ansamblına xüsusi rövnəq verirdilər. Şəfiqə Əmirovanın şux qaməti, bənzərsiz rəqsləri Rozanın çox xoşuna gəlirdi. Roza Şəfiqə Əmirovanın ifasında «Bənövşə» rəqsini çox sevirdi. O da ansamblın veteranlarından idi. Heyif ki, bu istedadlı rəqqasənin sonralar bəxti gətirməmiş, xəstəlik nəticəsində tədricən eşitmə qabiliyyətini büsbütün itirmişdi. Buna baxmayaraq, bir müd-



*Roza Cəlilova «Qaragöz» rəqsini oynayarkən*

dət heç bir yanlışlığa yol vermədən səhnədə öz məharətini göstərmişdi, onun vəziyyətindən xəbərdar olan yoldaşları belə, Şəfiqənin musiqini eşitməyə-eşitməyə ritmi necə dəqiq tutub oynamasına heyran qalardılar. Əlbəttə, uzun illər bu cür davam edə bilməzdi, etmədi də. Şəfiqə Əmirova vaxtından əvvəl təqaüdə çıxdı. Roza üçün onun səhnədən getməyi böyük itki idi.

Roza xanıma qayğı ilə yanaşanlardan biri də 1935-ci ildən başlayaraq ansamblda rəqqas kimi fəaliyyət göstərən, dəfələrlə rəqs qrupunun bədii rəhbəri olan Əlibaba Abdullayev idi. Əlibaba Abdullayev Rozanın istedadını o hələ 13 yaşındaykən oynadığı «Bala ceyran» rəqsindən duymuşdu. Əlibaba Abdullayev biləndə ki, Roza balerinalığı atıb Dövlət Mahnı və Rəqs Ansamblına gəlib, çox sevindi. Rozaya təklif etdi ki, Üzeyir bəyin «Qaragöz» mahnısı əsasında onun solo ifaçılığı ilə musiqili proqram



*Əlibaba Abdullayev*

hazırlasın. Roza bu təklifi məmnuniyyətlə qəbul etdi. Əlibaba Abdullayev xüsusi məktəb görməsə də, fitri istedad sahibiydi, xalq ruhunu, xalq musiqisini, rəqslərimizin incəliklərini çox gözəl bilirdi və milli rəqslərimiz əsasında quruluş verməkdə də xüsusi məharəti vardı. Beləcə davamlı məşqlərdən sonra «Qaragöz»ün səhnə variantı hazır olmuşdu. Əlibaba müəllim məşq zamanı Rozanın oyununda balerinalara xas hərəkətlərin daha qabarıq olduğunu görürdü və çox ustalıqla onun milli rəqsin incə hərəkətlərini mənimsəməsinə kömək edirdi: «Roza, – deyirdi, – fırlanmaq baletə xasdır. Sən su üzündə üzən yaşılbaş kimi səhnədə süzməlisən. Bax belə, – özü barmaqları üstə qalxıb oynayardı. – Bir qulağın da xorda olsun. Eşidirsən necə oxuyurlar, özün də ürəyində oxu. Bax belə:

*Gülü bağçadan üz,*
*Saçına saçaq düz.*
*Yanıma gəlib süz,*
*Qaragöz, qaragöz.*

– Hə, başladıq».

Musiqiçilər çalır, xor oxuyur, Roza oynayırdı. Roza Mahnı və Rəqs Ansamblının növbəti konsertində «Qaragöz»ü oynadı və tamaşaçıların məhəbbətini qazandı. Tamaşaçılar onu dönə-dönə səhnəyə çağırdılar.



*Böyük uğurlar hələ qabaqda idi...*

## BERLİN SƏFƏRİ

Fitri istedadı, üstəlik daim öz üzərində yorulub-usanmadan çalışması öz nəticəsini gözlənildiyindən də tez üzə çıxartdı. Roza zəhmətdən, gündəlik məşqlərdən qorxub çəkinmirdi. Xoreoqrafiya məktəbində keçdiyi təlimlər də, peşəkar balerina olması da onun milli rəqs sahəsində uğurlarını artırırdı, səhnəyə ilk qədəmlərini basanda, musiqinin sədaları altında rəqsə başlayan andaca tamaşaçıların alqışıyla qarşılanırdı. Əsl Şərq xanımlarına xas zahiri görünüşü, mütənasib bədən quruluşu, insanı ovsunlayan qarayanız çöhrəsi, rəqsindəki incəlik onu ön plana keçirmişdi. Rəfiqəsi Şəfiqə Əmirovanın «Bənövşə» rəqsini çox sevirdi və çox keçmədi bu rəqslə çıxış etməyə başladı. Əlbəttə, Şəfiqənin oynunu təkrar etmədi, rəqsin ruhunu mənimsəyib tamaşaçılara öz rəqsini təqdim etdi. Daha sonra istedadlı rəqqas Böyükağa Məmmədovla «Naz eləmə» rəqsini böyük məharətlə ifa etdi.

1950-ci ildə Macarıstan Respublikasına qastrola gedənlər siyahısına onun da adını salmışdılar, lakin təsadüfən tərəf-müqabili xəstələndi və onun bu ilk qastrol səfəri baş tutmadı. Ancaq buna görə Roza heç də ruhdan düşmədi.

1951-ci ilin avqust ayında Berlində 105 ölkənin iştirakı ilə üçüncü Ümumdünya Tələbə və Gənclər festivalı keçirilirdi. Bu festivalda iki min gənc iştirak edirdi. Sovet hökumətini təmsil edən sənət adamlarının siyahısında Roza xanım Cəlilovanın və Böyükağa Məmmədovun da adı

yazılmışdı. Festivalda iştirak etmək o dövrdə elə də asan məsələ deyildi. İndi kimin pulu, imkanı var, hara istəsə, gedə bilər. Ancaq o zaman, Stalinin sağlığında, hər addımına, hər hərəkətinə, fikir və düşüncənə belə diqqət yetirildiyi bir vaxtda bu, sadə məsələ deyildi. O zaman sənət adamlarının səhnə görkəminə, hazırlığına ciddi nəzarət vardı. Xaricə göndərilən sənət adamlarının həyatlarına, fəaliyyətlərinə, siyasi görüşlərinə çox diqqətlə yanaşılır, onlar neçə-neçə mərhələdən keçməli olurdular.

**Kiçik bir haşiyə.** Bu Ümumdünya Tələbə və Gənclər festivalı İkinci Dünya müharibəsindən cəmi altı il sonra – Sovet Almaniyasında keçirilirdi. Hər yanda müharibənin acınacaqlı mirasını görmək olardı. Müharibə milyonların taleyindən keçmişdi. Berlində Rozagil avtobusa minib mehmanxanaya getməyə hazırlaşanda bir kişi maşının qapısını açdı: – Azərbaycanlısınız? – deyə soruşdu. Təcrübəsiz, qadağaların mənasını, mahiyyətini hələ dərindən başa düşməyən gənc Roza doğma ana dilində eşitdiyi bu sorğuya cavab verməyə bilərdimi? Astaca: – Bəli, – dedi. Onun yanında oturmuş tarzən Həbib Bayramov yavaşca Rozanın qoluna toxundu – yəni danışma. Maşın tərpəndi. O kişi də qışqıra-qışqıra maşının dalınca qaçır və deyəsən, kimlərəsə xəbər çatdırmağı xahiş edirdi.

Bu kişi müharibə vaxtı almanlara əsir düşmüş, indi Vətənə qayıtmağa ehtiyat edən yüzlərlə azərbaycanlıdan biri idi. Bilirdi ki, Sovet İttifaqına qayıtsa, əsir düşdüyünə görə mühakimə olunacaq, azı on il Sibirə sürgün ediləcəkdir.

Roza xanım uzun illər boyu maşının qapısını açıb «azərbaycanlısınız?» soruşan, sonra da maşının dalınca qaçan o kişini unuda bilmədi. O zaman bu cür acınacaqlı taleyi yaşayan insanların say-hesabı yox idi. Ən acınacaqlısı



*«Dostluq rəqsi»nin ifaçıları*
*Soldan 2-ci Böyükağa Məmmədov və Roza Cəlilova*

o idi ki, insan insana ürək qızdırmırdı. Hamı bir-birindən ehtiyat eləyirdi, xof içində yaşayırdı...

Çox-çox sonralar Rozanın bir qonşusu ağır xəstələnmişdi. Salam-kalamları vardı. Roza xanım bir gün ömrünün son günlərini yaşayan qonşusuna baş çəkməyə getmişdi, ona ürək-dirək verib, tezliklə sağalmasını arzulamışdı. Qonşusu ona razılığını bildirəndən sonra az qala pıçıltıyla:

– Roza, istəmirəm ürəyimdə qalsın, – demişdi. – Sən hər dəfə xaricə qastrola gedəndə «KQB»dən gəlib həyətdəkilərdən sənin necə adam olduğunu soruşurdular. Mən həmişə onlara deyirdim ki, özü kimisi yoxdur, qızıl kimi adamdı. İndi son günlərimi yaşayıram. İstəyirəm biləsən ki, hər qastrol ərəfəsi gəlib səni soruşurdular. Şükür ki, hamı sənin yaxşılığını deyirdi. Sən bütün bunlardan xəbərsiz idin. Halal olsun sənə ananın südü.

O dövrün acı mənzərəsi beləydi. Bilmirdin ki, səninlə eyni binada divar-divara yaşayan qonşun arxada nə işlə məşğuldu, «KQB»yə xidmət edir, ya yox.

Roza Cəlilova, Böyükağa Məmmədov, musiqiçilərdən Həbib Bayramov, Mütəllim Novruzov və Azər Bakıxanov Berlində keçiriləcək festivala hazırlaşanda nə az, nə çox, düz bir il Moskvada üç aydan bir tur keçirib onları yoxlayırdılar: kökəlməyiblər, arıqlamayıblar, zədə-filan almayıblar ki...

***

Festivala Maya Plisetskaya, Raisa Struçkova kimi balet ustaları, Moskvanın, Leninqradın (indiki Sankt-Peterburq – *M.Ç.*) ən gözəl balerinaları da getmişdilər. Geyimlərinə belə fikir verilmişdi. Roza əsl milli geyimlə təmin edilmişdi. Bu milli geyimi tamamlayan tacı isə rəqs qrupunun rəhbəri Əminə Dilbazi kinostudiyadan götürmüşdü. Tac altı min manat dəyərində qiymətləndirilmişdi. Təsadüfən tac itərdisə, 6 min manat ödənməli idi. Bu tacı «Fətəli xan» filmində Tutubikə rolunun ifaçısı Leyla Bədirbəyli başına qoymuşdu.

Roza festivalda «Bənövşə», Böyükağa Məmmədovla birlikdə «Naz eləmə» rəqslərini məharətlə oynadı.

Sonuncu qala-konsertə hazırlaşarkən Rozaya xəbər verdilər ki, səni Moskvaya çağırırlar. Gənc rəqqasə bu xəbərdən sevinmək əvəzinə həyəcan keçirməyə başladı. Qorxu içində fikirləşirdi ki, görəsən, neyləyib, nə iş tutub, onu pay-



*Bu tac Roza xanımı çox sevindirmişdi*



ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!

ПОЧЕТНАЯ
ГРАМОТА

ЦК ВЛКСМ НАГРАЖДАЕТ
НАСТОЯЩЕЙ ГРАМОТОЙ

Розалию Исмаил кызы
за активное участие во Всемирном фестивале
молодежи и студентов в Берлине.

12/IX-51



CERTIFICATE FOR PARTICIPANTS
УДОСТОВЕРЕНИЕ УЧАСТНИКОВ
DOCUMENT DE PARTICIPATION
TEILNEHMERURKUNDE
DOCUMENTO DE PARTICIPACION

Rosalia Dschalilowa
Sowjetunion

hat in der Disziplin

Solo Tanz

an den Internationalen Kulturwettbewerben
der III. Weltfestspiele der Jugend und Studenten
für den Frieden in Berlin 1951 teilgenommen.

*Tələbə və Gənclərin Berlində keçirilən Ümumdünya festivalında fəal iştirakına görə verilmiş fəxri fərman*

taxta nə üçün çağırırlar? Çox fikirləşdi, çox götür-qoy etdi, Sovet qanunlarından kənar bir iş tutduğunu xatırlaya bilmədi. Bununla belə, bir sual elə hey yaddaşının qapısını döyürdü: «Görəsən, mən neyləmişəm?» Özü də cavab verirdi:

– Heç nə. Axı sən qanundan kənar nə iş görə bilərsən? Bəs görməmisənsə, nə üçün Moskvaya səninlə birgə festivalda iştirak edən yoldaşlarını – Böyükağanı, Həbibi, Azəri, Mütəllimi çağırmırlar.

Moskvaya nigarançılıq içində gəlib çıxmışdı. Məlum oldu ki, nigarançılığı əbəsmiş, onu Albaniya Respublikasına qastrola göndərmək fikrindədirlər. Bunu eşidəndə göz yaşlarını saxlaya bilmədi. Bu heç də sevinc yaşları deyildi, keçirdiyi qorxunun, həyəcanın nəticəsiydi.



*Xatirələrin qanadında*

## ALBANİYA SƏFƏRİ

Moskvada Rozanı bir qrup incəsənət ustaları ilə birgə Albaniyaya dostluq səfərinə hazırladılar. Hətta bəstəkarlardan birinə onun üçün xüsusi musiqi yazdırmışdılar.

1951-ci ilin sentyabrında böyük bir teploxodla Odessaya gəldilər. Oradan isə «Böyük Pyotr» kreyseriylə (çox sürətli hərb gəmisi) səkkiz gün ərzində beş dənizi – Qara dəniz, Mərmərə, Egey, İon, Adriatik dənizlərini keçərək Albaniya torpağına qədəm basdılar. Bu da Durres limanı. Budur, ötüb keçən müharibənin izləri hələ də itməyib. Hiss olunur ki, düşmən bu ölkəni məhv etmək üçün heç nədən çəkinməyib. Amma nəticədə alban xalqı qalib gəlib. Durres limanından Albaniyanın paytaxtı Tiranaya gedəcəkdilər. Limanda radioda cürbəcür musiqi səsləndirilirdi. Birdən Rozanın qulaqlarına tanış, doğma musiqi sədaları gəldi. Dahi Üzeyir Hacıbəylinin «Koroğlu» operasının əzəmətli uvertürası çalınırdı. Bu əzəmətli uvertüranın səfərbəredici musiqisi Rozanın qəlbini fərəh hissi ilə doldurmuşdu. Elə bildi Bakıdadı. Axı üç ay idi ki, Vətənindən, doğmalarından ayrı düşmüşdü.

Musiqinin sədaları altında ona tanış olmayan mənzərələri, nəhayətsiz dənizi seyr edirdi. Elə bu vaxt adamların arasından ona diqqətlə baxan bir cüt doğma göz gördü. Roza doğmasını görübmüş kimi irəli sıçradı. O doğma baxışların sahibi də ona doğru gəlirdi. Onu kim tanımırdı? Bu qadın Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırova idi. Ana-bala kimi qucaqlaşdılar.


*Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırova. Rəssam P.E.Bendel*

Roza:

– Bəsti xanım, axı sizi gəmidə görmədim, – dedi.

Bəsti xanım:

– Biz təyyarə ilə gəlmişik, – dedi.

Onlar buradan Albaniyanın paytaxtı Tirana şəhərinə yollandılar. Tiranaya təzə dəmiryolu çəkilmiş, yeni məktəblər, xəstəxanalar, mədəniyyət evləri tikilmişdi. Müharibənin izləri yavaş-yavaş silinməkdəydi.

Albaniya Respublikası Balkan yarımadasında yerləşən bir ölkədir. Əvvəllər bu yerlər Yuqoslaviya SFR-in tərkibində idi. Ayrı-ayrılıqda deyildi. Hazırda bu ölkənin qonşuları şimalda Monteneqro, şimal-şərqdə Kosova, şərqdə Makedoniya Respublikası, cənubda isə Yunanıstandır. Ölkənin qərbdə Adriatik dənizinə, cənub-qərbdə isə İon dənizinə çıxışı var. Albanlar öz ölkələrini Şipçi – yəni Qartallar diyarı, yerli əhalini isə Şiptar adlandırırlar.

Bu kiçik ölkə zaman-zaman bizansların, bolqarların, Yunanıstanın, Osmanlı dövlətinin işğalına məruz qalmışdır. 1943–1944-cü ildə isə ölkəni faşist Almaniyası işğal etmişdi. Albaniya, nəhayət, Ənvər Xoca və Məmməd Şehinin başçılığı ilə müstəqil respublika yaratmışdı. Beləliklə, 1946-cı ildə ölkədə Sosialist Xalq Respublikası qurulmuşdu.

Roza Cəlilova bir ay Albaniyada qaldı. Ölkənin müxtəlif şəhərlərində – Korçada, Vlorda milli rəqslərimizi böyük



*Roza Cəlilova Albaniyada çıxış edərkən*

ustalıqla nümayiş etdirən gənc rəqqasə albanların məhəbbətini qazanmışdı. Hər şeydə qənaətcil olan Sovet hökuməti əlavə xərc çəkməmək üçün instrumental ifaçılar dəstəsi göndərməmişdi. Rozanın oynayacağı rəqs havalarını nota köçürmüşdülər. Onun oynadığı havaları notla çalırdılar.

Albaniyada qaldığı müddətdə Roza təkcə milli rəqslərimizi nümayiş etdirməklə kifayətlənməmişdi. O, məşhur alban rəqqasəsi Milanla, rəqqas İsgəndər və başqaları ilə dostlaşmış, onlardan alban xalq rəqslərinin incəliklərini öyrənmişdi. Roza Bolqarıstan və Rumıniyaya da səfər etdikdən sonra Bakıya qayıtmışdı.

***

Albaniya səfəri çox uğurlu keçdi və o gündən sonra Rozanın sənət yolu açıldı. Uğurlu konsert çıxışlarının



*Sağdan 2-ci Roza Cəlilova. Albaniya. 1951*

nəticəsi o oldu ki, vaxtının çoxu Azərbaycanla Moskva arasında keçirdi. Onu tez-tez müxtəlif konsertlərə, qastrol səfərlərinə göndərirdilər. Hətta onu rəqs etmək üçün Azərbaycan SSR Kommunist Partiyasının birinci katibi Mir Cəfər Bağırovun təşkil etdiyi banketlərə çağırırdılar. Əlbəttə, başqa rəqqasələr də vardı, ancaq bu tədbirlərə başqasını yox, məhz onu dəvət edirdilər. Bu da səbəbsiz deyildi. Xoreoqrafiya məktəbini bitirmişdi. Davranışında, oyununda kübarlıq, estetik gözəllik, millilik dərhal özünü göstərirdi.

Bu banketlərə getmək heç də ürəyincə deyildi. Ancaq Mir Cəfər Bağırovun təşkil etdiyi banketə necə getməyə bilərdi? O banketlərdə İmam Mustafayev, Vəli Axundov da iştirak edərdi. Bir dəfə dözməyib filarmoniyanın direktoru bəstəkar Soltan Hacıbəyova dedi ki, Soltan müəllim, axı belə olmaz, mən oynayıram, onlar isə çörək yeyirlər.

Soltan müəllim gülümsəyib dedi ki, Roza, bu banketdə oynamağı arzulayanlar çoxdu, amma səni çağırırlar.

Roza bu banketlərdə oynasa da, heç vaxt Mir Cəfər Bağırovla təmasda olmamışdı. O zaman Mir Cəfər Bağırov indiki İncəsənət muzeyinin binasında, Rozagil isə filarmoniya ilə üzbəüz Alimlər binasında yaşayırdılar. Hərdən təsadüfən rastlaşardılar. Mir Cəfər Bağırov əlləri arxasında ağır addımlarla tək-tənha addımlayar, xeyli arxada isə mühafizəçiləri onu izləyərdilər. Mir Cəfər Bağırovla rastlaşanda Roza çəkinə-çəkinə rəhbərə salam verərdi, o da eynəyinin altından diqqətlə ona baxıb salamını alardı.

Bütün bu söylədiklərimiz Roza xanımın söhbətlərindən əxz etdiyimiz məqamlardır. O, mənə danışıb, mən də sizə söyləyirəm. Çünki bütün bunlar səhnəni canı qədər sevən ixtiyar bir xanım sənətçinin ömür tarixçəsidir. Çox istərdik onun gəncliyinə, orta yaş dövrünə yaşadığı illərin, o çağın insanlarının gözü ilə baxasınız. O dövrdə azərbaycanlı qızlar bugünkü kimi səhnəyə can atmırdılar. Çünki o zaman valideynlər qızlarının balerina, rəqqasə olmalarına etiraz edirdilər. Əlbəttə, onları da başa düşmək olardı. Hər bir valideyn övladını xoşbəxt görmək istəyir. Ailənin nəzərində isə əsl xoşbəxtlik qızın ailə qurmasından başlayırdı.



*Çiçəklərin söhbəti*

## AİLƏ

Rozanın da sevib-sevilən çağlarıydı. Konsert gecələrində sona baxışları, sirayətedici gülüşü, incə yerişi, rəqsinin zərifliyi ilə elə salondaca neçəsinin ürəyinə od salırdı.

O çağlarda Roza xanımı istəyənlər çoxdu. Amma o razılıq vermirdi. Çünki onu istəyənlərin şərti vardı: «Ailə qursaq, gərək sənəti atasan!»

Bu sözlər daim onun başında əks-səda vermişdi: «Ailə qursaq, gərək sənəti atasan!» Nə müdhiş qərardı.

Bu anda, bu məqamda danışmaq belə istəmirdi. Əsl sevgi cəfakeşlik, saflıq, inam deməkdi. Bəs nə üçün onu məhz səhnədə görüb-bəyənənlər onu səhnədən düşürmək, tamaşaçı məhəbbətindən, tamaşaçı alqışından məhrum etmək istəyirlər? Nə üçün? Axı bu inamsızlıq haradandı belə? Nədir bu inamsızlıq? Səhnədə oxuyub-çalanın, rəqs edənin ayaqları altına gül-çiçək atır, zövq alır, istirahət edir, dərdi-sərini unudur, həyat eşqiylə yaşayır, elə ki konsert qurtarır, səhnə boşalır, bayaqdan sənə əl çalan, vəcdə gələn heyranın büsbütün dəyişir. Ya səhnə, ya mən! – deyir. Bu paradoksal vəziyyəti necə başa düşmək olardı?

Həssas qəlbli Roza məhz buna görə fürsət tapıb ona könül açanlara «yox» deyirdi. Çünki səhnəsiz yaşayacağını, rəqsdən ayrıla biləcəyini heç cür təsəvvür eləyə bilmirdi. Amma onunla şərt kəsməyənlər, «ya mən, ya səhnə» deməyənlər də vardı. Berlində qastrolda olanda Sovet İttifaqı Qəhrəmanı Mişa Avdiyeqo ilə tanış olmuşdu.

Mişa Avdiyeqo bir qədər ordan-burdan danışıb:

– Roza xanım, – demişdi. – Bakıya gəlmək olar?!

Roza xanım Sovet İttifaqı Qəhrəmanının nə demək istədiyini çox gözəl anlasa da:

– Buyurub gələ bilərsiniz. Bakılılar qonaqpərvərdilər, – demişdi.

Mişa Avdiyeqo xeyli düşündükdən sonra:

– Roza xanım, məmnuniyyətlə sizinlə evlənərdim, – deyə ürəyini ona açmışdı.

Roza gülümsəmişdi, nə «hə» demişdi, nə də «yox». «Yox» deyib qəhrəmanı qırmaq istəməmişdi.

Roza xanım Bakıya qayıdandan bir ay sonra bir gün Kislovodskdan açıqca almışdı. Mişa Avdiyeqodan idi. Yazmışdı ki, Roza xanım, gələcək bizim üzümüzə gülür.

Mişa Avdiyeqo Kislovodskda gözləyirdi ki, Roza xanım ünvanını ona göndərəcək. Amma Roza xanım ona cavab yazmadı. Öz-özünə demişdi ki, baş tutan iş deyil, mən hara, rus hara?

İlahinin qismətindən qaçmaq olmaz deyiblər. Roza xanım da İlahinin qismətindən qaça bilmədi. Pərəstişkarlarından biri ona evlənmək təklif etdi. Çox düşünüb-daşındıqdan sonra Roza pərəstişkarına evlənməyə razılıq verdi. Çünki bu cavan oğlan hələ ki, ona «ya ailə, ya səhnə» demirdi.

1955-ci ildə evləndilər. Kübra xanım da qızının ailə qurmasından çox şad olmuşdu. «Qızım, quş quşdu, o da özünə yuva qurur, – demişdi, – ailə xoşbəxtliyin təməlidi. Arzum budur, yarıyanlardan olasan».

Hər biri öz peşəsi ilə məşğul idi. Hələ ki, adamı içindən yeyən, tükəndirən qısqanclıq qapılarını döyməmişdi.

1956-cı ildə oğul övladları dünyaya gəldi. Adını Zahid qoydular. Gənc ailənin fərəhli günləriydi.



*Roza xanım oğlu Zahidlə*

***

1957-ci il idi. Moskvada Ümumittifaq və VI Ümumdünya Tələbə və Gənclər festivalı keçirilirdi. Roza da bu müsabiqədə iştirak etmək istəyirdi, filarmoniyanın rəhbərliyi də bu fikirdəydi. İnanırdılar ki, Roza festivalda uğurlu rəqsləriylə respublikanın adını doğruldacaqdır. Baxmayaraq ki, əliuşaqlıydı, hər gün məşq edir, bəstəkar Səid Rüstəmovun «Bilmədim» rəqsinin əlvan çalarlarını mənimsəyib özününküləşdirirdi.

Roza yarıcanı körpəsinin yanında qala-qala hər gün yorulub-usanmadan məşq edirdi. Axı istedadla zəhmət əlli əlliyədir. Zəhmət çəkməsən, Allahın sənə bəxş etdiyi istedadı cilalamasan, heç nə əldə edə bilməzsən. Şeyx Nizami yaxşı deyib:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*

Roza bütün bunları dərk edirdi və daim öz üzərində çalışırdı. Və bu çalışmağın nəticəsi də çox uğurlu olurdu.

Roza Ümumittifaq və VI Ümumdünya Tələbə və Gənclər festivalında iştirak etmək üçün Moskvaya gedəndə altı aylıq uşağını da özü ilə aparmışdı. Əlbəttə, uşağı anasının yanında da qoya bilərdi, amma bilirdi ki, yarıcanı onun yanında qalacaq.

Bu müsabiqədə Roza ilə birgə Dövlət Mahnı və Rəqs Ansamblının ən istedadlı solistlərindən olan Ramiz Məmmədov, Böyükağa Məmmədov, Nadir Məmmədov, Əhmədağa Məmmədov, instrumental qrup və onun rəhbəri Rəşid Əfəndiyev, xor qrupu da iştirak edirdi. Roza bu festivalda həm tək, həm də Ramiz Məmmədovla birgə rəqs edirdi. Rəqs qrupunun rəhbəri Əminə Dilbazi də münsiflər heyətinin tərkibindəydi.

Bu Ümumittifaq və Ümumdünya Tələbə və Gənclər festivalının keçirilməsində məqsəd istedadlı gəncləri, daha yaxşı rəqqasə və rəqqasları seçib üzə çıxarmaq idi. Çünki qarşıda Şimal-Şərqi Afrika ölkələrinə dostluq səfəri gözlənilirdi.

Müsabiqədə iştirak edənlər Rozanın qucağında uşaq görəndə təəccüb eləmişdilər:

– Sən bu uşaqla müsabiqədə necə iştirak edəcəksən? – soruşmuşdular.

– Sizin köməyinizlə.

– Gözəl xanım, sizə necə kömək eləyə bilərik?



*«Gürcü rəqsi». Roza Cəlilova və Ramiz Məmmədov*

– Səhnəyə hamımız eyni vaxtda çıxmırıq ki... Sakit uşaqdı. Mənim növbəm çatanda saxlayarsınız, mən də çıxıb rəqsimi edib qayıdaram. Oldumu?

– Oldu.

– Çox sağ ol. Bax, indi məni çağırırlar, al bu uşağı saxla.

Roza beləcə, nigarançılıq içində çıxırdı səhnəyə. Ancaq elə ki günlərlə məşq etdiyi rəqs havası səslənirdi, unudurdu hər şeyi, əllər göyərçin qanadları kimi havada çırpınır, dəniztək qabarır, çəkilir, uzun hörükləri kürəyində qıvrılır, açılır, bəzən də ilan kimi zərif əndamına sarılırdı. Alqış qopurdu.

Səhnədə gözlənilməz anlar da olurdu. Ramizlə növbəti «Naz eləmə» rəqsini oynayanda yamanca qorxmuşdu. Səhnədə çökmüş halda rəqs edirdi. Bir an sonra ucaboylu, qartal baxışlı Ramiz Məmmədov ayaqları ucunda, qartal-



*Bənövşə rəqsi*

sayağı qollarını yana açmış halda onun qarşısına gələcək, o da zərif, incə ədalarla, nazlana-nazlana, işvə-qəmzə ilə tədricən çökdüyü yerdən qalxacaq və tərəf-müqabili Ramizlə üz-üzə, çiyin-çiyinə rəqsin ən coşqun, tamaşaçını cəlb edən, həyəcanlandıran anının son akkordlarını ifa edəcəklər. Birdən Roza səs eşitdi və bu səsin ardınca belini sıxan tumanın düyməsinin qırıldığını hiss etdi. Ramiz qollarını yana açaraq oynaya-oynaya ona doğru gəlməkdədir, Rozanın başına gələndən onun xəbəri yoxdu. Roza ayağa qalxmadan düşünür. İndi ayağa qalxsa, tuman sürüşüb düşəcək ayaqlarının üstünə, bu da tamaşaçıların gülüşünə səbəb olacaq... Və birdən Roza bir əli ilə tumanını tutaraq oynaya-oynaya səhnədən çıxır və Ramizə, musiqiçilərə işarə edir ki, davam etsinlər və tez növbə gözləyən rəqqasələrdən birinin baş sancağını alaraq özünü qaydaya salır, yenidən oynaya-oynaya Ramizin qarşısına yeriyir. Münsifdə əyləşənlər də elə zənn edirlər ki, rəqsin quruluşu belə verilib.

Budur, rəqsin şən melodiyaları altında min bir əda – qaş oynayır, gözlər süzülür, əllər havada qövsi-qüzeh yaradır. Şair elə bil bu anı vəsf edib:

*Dəfin, balabanın, zurnanın səsi,*
*Süzəndə qızların gözəl dəstəsi.*
*Çalıb-oxuyurlar min bir avazla,*
*Ayaqlar toxunur biri-birinə,*
*Atlas libasların ətəklərinə.*

*(V.Şuf Borey)*

... Rozanın əziyyəti əlində qalmadı, Səid Rüstəmovun «Bilmədim» rəqsini gözəl ifa edərək müsabiqənin laureatı

adına layiq görüldü. Rəşid Əfəndiyev, Böyükağa Məmmədov, Ramiz Məmmədov, Nadir Məmmədov və Əhmədağa Məmmədov isə qızıl medala layiq görülmüşdülər.

Mahnı və rəqs ansamblının uğurlu çıxışlarına mətbuat da biganə qalmamışdı. Bu münasibətlə «Pravda» qəzetinin 11 dekabr 1957-ci il tarixli 30-cu nömrəsində çap edilmiş məqalədə deyilirdi: «P.İ.Çaykovski adına konsert zalında Azərbaycan incəsənət ustaları çıxış etmişlər. Proqramda əsas yeri Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının çıxışları tutmuşdur. Ansamblın yüksək peşəkarlığı, ifaçıların məharəti, qaynar temperamenti və ən başlıcası öz incə melodiya və ritm məziyyətləri baxımından heyrətamiz olan mahnı və rəqsləri ən tələbkar tamaşaçını da məmnun etməyə bilməzdi. Bu ansamblın həm xor, həm də rəqs qrupları eyni dərəcədə güclü və məharətlidir».

Moskva qəzetlərinin birində rus dilində «Festivala gedirlər» sərlövhəli irihəcmli bir yazının yuxarı hissəsində festival laureatları Roza Cəlilovanın və Ramiz Məmmədovun rəqs zamanı çəkilmiş şəkilləri də dərc olunmuşdur. Bu anı öz fotoaparatları ilə V.Kalinin və S.Kuleşov əbədiləşdirmişlər.

Bu festivalda iştirak etmək, öz xalqının mahnı və rəqslərini ölkə miqyasında tanıtmaq yüzlərlə özfəaliyyət kollektivinin, onların aparıcı gənclərinin amalına çevrilmişdi. «Kim Moskvaya gedəcək?» Bu sual gənc istedadları qələbəyə səfərbər edirdi. Paytaxtda baş tutan bu festival isə, sözün əsl mənasında, sənət təntənəsi, incəsənət bayramı idi. Qardaş respublikalardan festivala qatılan gənc kollektivlər arasında azərbaycanlı gənclərin rəngarəng və coşqu dolu festival proqramı çoxlarının yaddaşında böyük iz buraxdı.

Festivaldakı uğurlarına görə Festival Komitəsi Roza Cəlilovaya yazılı təşəkkürünü bildirmiş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti isə «Moskva şəhərində gənclərin və tələbələrin Ümumittifaq və VI Ümumdünya festivallarında Azərbaycan SSR nümayəndələrinin müvəffəqiyyətli iştirakı ilə əlaqədar olaraq» 1957-ci il 17 oktyabr tarixli qərarı ilə istedadlı rəqqasəni Fəxri Fərmanla təltif etmişdir. Xatırladım ki, o zaman Azərbaycan SSR Ali Soveti İdarə Heyətinin sədri Xalq yazıçısı Mirzə İbrahimov idi.


АЗӘРБАЙЧАН ССР АЛИ СОВЕТИНИН РӘЯСӘТ ҺЕЙ'ӘТИ

РОЗА ИСМАЙЫЛ ГЫЗЫ
ЧӘЛИЛОВА *йолдаша*

Азәрбайчан Совет Сосялист Республикасы
Али Советинин Рәясәт Һей'әти

Москва шәһәриндә кәнчләрин вә тәләбәләрин Үмумиттифаг вә VI Үмумдүня фестивалларында Азәрбайчан ССР нүмайәндәләринин мүвәффәгиййәтли иштиракы илә әлагәдар олараг

1957 ил 17 октябр тарихли Фәрманы илә Сизи

**ФӘХРИ ФӘРМАНЛА**

тәлтиф эдир

Азәрбайчан ССР Али Совети Рәясәт Һей'әтинин Сәдри — М. ИБРАҺИМОВ

Азәрбайчан ССР Али Совети Рәясәт Һей'әтинин Катиби — З. ШҮКҮРОВА

№ 6268

25 октябр 1957 ил
БАКИ шәһәри



*Rəqqasə təkcə baxışları ilə də çox söz deyə bilər*

## ÜÇAYLIQ SƏFƏR

Rozanı qarşıda daha böyük uğurlar gözləyirdi. Yenə də gərgin məşqlər başlanmışdı. Əlibaba Abdullayev onun üçün «İlk bahar», «Zərif gülüşlüm», «Ərəb rəqsi», fars musiqisindən ibarət dörd hissəli rəqs quruluşları hazırlamışdı. Əlibaba Abdullayev verdiyi quruluşlara kənar müdaxiləni sevməzdi. Ancaq Roza Cəlilovaya güzəştə gedirdi. Çünki Roza oynadığı hər bir rəqsə yaradıcı yanaşırdı, verilən hər bir rəqs quruluşuna öz əlavələrini edir, münasibətini bildirirdi. Peşəkar və yaradıcı ifaçı olan kəs heç vaxt çərçivəyə sığışmaz, çünki o yaradandı, təxəyyülü, fantaziyası onu rahat buraxmır. Quruluşçu baletmeyster tərəfindən necə bir kompozisiya, səhnə yozumu verilirsə, verilsin o, öz mənini, öz ifadə elementlərini tapmayınca sakit ola bilməz. Axı o, bir ifaçı kimi səhnə arxasında qalmır, tamaşaçı önünə çıxır, tamaşaçı nəfəsini duyur, ona zillənmiş baxışları oxuyur... indi qalır onun zövqünü, ruhunu oxşamaq, tamaşaçısını daha duyar, daha həssas bir ovqata kökləmək. Bu da siz deyən qədər də asan iş deyildir. Rəqqasə xanəndə deyildir, o, muğam, mahnı oxumur, sözdən, məlahətli səsdən məhrumdur. Yalnız instrumental alətlərin müşayiətilə oynayır. Yeganə bədii silahı da budur: Oynamaq! Rəqs etmək! O, ancaq əlləri, ayaqları, sifət mimikaları, baxışları ilə söz deyib «oxuya» bilər.

1958-ci il idi. Moskvadan ona teleqram gəlmişdi. Həbəşistana – qastrol səfərinə göndərəcəkdilər. Bu səfər nə az, nə çox, düz üç ay çəkəcəkdi. O zaman Moskvanın

icazəsi olmadan heç kimsə Sovet İttifaqının sərhədlərindən kənara çıxa bilməzdi. Sənin özünü, əslini-nəslini gərək ələkdən keçirəydilər, tövsiyə edəydilər, təlimatlandıraydılar – nə olar, nə olmaz – yalnız bundan sonra xaricə gedə bilərdin.

Amma orada da gərək sənə deyilənləri unutmayaydın, özünü əsl «sovet adamı» kimi aparaydın.

Roza bu səfərə razılıq vermişdi, əri isə bu barədə eşitmək belə istəmirdi. Lakin bu vaxt qısqanclığa, darılmağa heç bir əsas olmasa da, əri artıq onu qısqanmağa başlamışdı:

– Əliuşaqlı qadınsan, nəyinə lazımdı səfər-filan? Dillənsənə...

Roza sülhə çəkirdi:

– Əzizim, mən də bu sənətin sahibiyəm də. Nə olar, məni başa düş. Rəqqasə ömrü səhnədə az olur. Bu sənəti atamın əziz xatirəsi üçün seçmişəm. Bir az yaşa dolandan sonra onsuz da biz səhnəni tərk etməyə məcburuq. Heç səhnədə yaşlı rəqqasə, rəqqas görmüsən? Axı mən toylarda, kiminsə evində yox, səhnədə, tamaşaçı qabağında oynayıram. Səhnədə oynayanda kiminləsə danışdığımı görmüsən?

– Yox.

– Heç bu ola da bilməz. Mən rəqsimlə sözsüz obraz yaradıram.

– Deyirsən indi oturub camaata sənət dərsi keçək?

– Yox, heç kəsə dərs keçməyək, bir-birimizə hörmət edək, inanaq! Hər şeyə açıq gözlə baxaq! Unutmayaq ki, yersiz qısqanclıq məhəbbətin qayçısıdı.

Əri xeyli əsəbi tonda:

– Belə başa düşürəm ki, sənin üçün sənət ailədən üstündü, – dedi.

Roza söhbətin gərginləşməsini istəməyib susmuşdu.

Artıq hər şey hazır idi. Moskvaya getməsi üçün təyyarəyə bileti belə alınmışdı. Əri isə: «Yox, qoymayacağam! Getməyəcəksən!» – deyib dururdu. Onun eyninə də deyildi ki, ömür-gün yoldaşının bu uğurlarına heç də hamı sevinmir, ona rəqib olanlar, «niyə mən yox, o?» – deyənlər, ayağının altını qazanlar var.

Söz yox, ərinin də öz arqumentləri, dəlil-sübutu vardı. Azərbaycanlılar üçün ailə-uşaq məsələsi çox həssas, incə məsələdir... Roza haqlı olduğunu düşünsə də, ərinə haqq qazandıranlar da tapılardı.

B.Q.Belinski ər-arvad arasındakı məhəbbətdən bəhs edərək yazırdı ki, «həqiqi bəşəri məhəbbət hissin şıltaqlığı və ya ürəyin nazı üzərində deyil, ancaq bir-birinin insanlıq ləyaqətinə hörmət üzərində qurula bilər. Qadın həyatın bütün mərhələlərində kişinin xilaskarıdır. Qadın yer üzündə qəşəngliyin, lətafətin nümayəndəsidir, məhəbbət və fədakarlığın kahinəsidir. O, həyatın fəlakətli və ağır dəqiqələrində kişinin təsəllivericisidir, onun sevinc və iftixarıdır». Təəssüf ki, biz kişilər çox vaxt qadın fədakarlığını, onun məhəbbət və sevgi mücəssəməsi olduğunu unuduruq. Bir hind məsəlində deyilir ki, qadın o qədər incə, o qədər zərif məxluqdur ki, onu, hətta gül yarpağı ilə də vurmaq olmaz.

Roza odla su arasında qaldığı bir vaxtda filarmoniyada konsert vardı. Bu konsertdə o da çıxış etməliydi. Konsertə ömür-gün yoldaşı da gəlmişdi. Gözləyirdi ki, Rozanın çıxışı qurtarsın, onu aparsın evə və Moskvaya buraxmasın.

Roza düzmü edirdi, səhvmi edirdi, o anda bunun fərqində deyildi, ancaq hökmən Moskvaya getmək istəyirdi. Buna görə çıxışını qurtaran kimi direktorun ka-

binetinə qaçdı. O zaman filarmoniyanın direktoru bəstəkar Soltan Hacıbəyov idi. Roza dahi Bülbülü direktorun yanında görəndə geri dönmək istədi. Soltan Hacıbəyov dərhal onu çağırdı:

– Roza, hara gedirsən, gəl içəri.

Roza içəri keçdi:

– Soltan müəllim…

Soltan müəllim onun gəlişinin əsl səbəbini bilmədiyi üçün birbaşa mətləbə keçdi:

– Sabah uçursan da. Yəqin, xəbərin var?

– Soltan müəllim… – sözünün arxasını gətirə bilmədi, ağladı. Direktor narahat oldu:

– Ay qız, danış görüm sənə nə olub, niyə ağlayırsan?

– Soltan müəllim, getmək istəyirəm, amma yoldaşım burdadır. Məni qoymayacaq gedəm.

Bayaqdan direktorla Rozanın dialoquna qulaq asan Bülbül «qoymayacaq!» sözlərini eşidəndə dözməyib soruşdu:

– Kim qoymayacaq, gülüm. Çağır onu gəlsin bura.

Yoldaşı içəri girəndə Bülbül üzünü ona tutub xəbər aldı:

– Cavan oğlan, bu qızı niyə qoymursan getsin qastrola?

Oğlan şəstlə cavab verdi:

– Professor, oğlumuz balacadı, ona kim baxacaq?!

– Uşaq bəhanədi, sən onu səhnəyə buraxmaq istəmirsən, elədimi?

– Bəli.

– Yaxşı, sən bu gözəl qızımızı harda görüb bəyənmisən?

– Səhnədə.

– Səhnədə! Hə, belə de, səhnədə… Bəs indi onu niyə qoymursan səhnəyə? Səhnədə görüb-sevmisən də onu. Rəqs eləyəndə əl çalmısan da ona. Sevmək, sevilmək azdı,

cavan oğlan, onu qorumaq da lazımdı. Bir xalq mahnısı var ey, orda deyilir ki:

*Qərənfil abi gərək,*
*Yar da yarın babı gərək.*
*Zərrəcə eşqi olanın*
*Dərya qədər tabi gərək.*

Soltan müəllim sakitcə oturub qulaq asırdı. Bülbül sözünü bitirəndən sonra Soltan müəllim sirayətedici tonda oğlana dedi:

– Oğlum, bu iş hökumətin tapşırığıdı. Biz qastrollara ən istedadlı sənətkarlarımızı seçib göndəririk. Neçə vaxtdı Roza bu səfərə hazırlaşır, ona mane olma. Get, inzibatçıya de, sənin üçün də bilet alsın. Sən də get Moskvaya, Rozanı Efiopiyaya yola sal.

Oğlan bu iki böyük şəxsiyyətin sözündən çıxa bilmədi, razılaşdı.

***

Efiopiya Federal Demokratik Respublikası Afrikada yerləşən, şimaldan və şimal-şərqdən Qırmızı dənizlə hüdudlanan bir ölkədir. Efiopiya Afrikanın ən qədim dövlətlərindən biri və XX əsrin əvvəllərinə kimi Liberiya ilə yanaşı, Afrikada iki müstəqil dövlətdən biri olmuşdur. Efiopiya Federal Demokratik Respublikasının paytaxtı Əddis-Əbəbə şəhəridir. Efiopiyada 82 dildə danışan müxtəlif xalqlar və tayfalar yaşayır. Rəsmi dil amhar dilidir. Qədim islam mənbələrində Efiopiya Həbəşistan, qərbdə isə Abissiniya kimi tanınmışdır.

Peyğəmbər (s.ə.s.) dövründə Həbəşistan (Efiopiya) məkkəlilər üçün tanış bir yer idi, çünki ərəblər ticarət məqsədilə tez-tez bu ölkəyə gedirdilər…

Efiopiyaya qastrola gedənlər SSRİ-nin müxtəlif respublikalarından seçilmişdilər. 11 nəfər idilər. Azərbaycan Respublikasını Roza Cəlilova və tarzən Məmmədağa Muradov təmsil edirdilər. Bu qastrol səfərində tacik sənətçiləri də iştirak edirdilər. Hər şey əvvəlcədən düşünülmüşdü. Rozanın rəqslərini Məmmədağa Muradovla birgə zərb alətlərində çalan (3 nağarada) Alo Aloyev, pianoda bəstəkar Rodina (məhz ona görə Roza Cəlilovanın repertuarındakı oyun havalarını nota salmışdılar) müşayiət edəcək idi.

Efiopiyanın paytaxtı Əddis-Əbəbədə verilən ilk konsertə imperator Hayle Selasiya da gəlmişdi. Konsert başa çatandan sonra imperator qastrol iştirakçıları ilə görüşdü və «İmperator» qızıl medalını Roza Cəlilovaya təqdim etdi. O zaman Roza Cəlilova Azərbaycandan Efiopiyaya gedən ilk sənətçiydi.

Efiopiya səfəri başa çatdıqdan sonra Liviyaya uçmuşdular. «Azərbaycan gəncləri» qəzetinin mart, 1958-ci il tarixli sayında «Sovet artistləri Liviyada» başlıqlı xəbər qastrolda iştirak edənlərin adlarını özündə hifz edibdir: «Livanda bir qrup sovet artistinin qastrolu qurtarmışdır. Liviyada olduqları müddətdə sovet incəsənət ustaları ölkənin böyük şəhərlərində – Tripoli və Benqazidə 18 konsert vermişlər.

Sovet artistlərinin konsertləri böyük müvəffəqiyyətlə keçmişdir. Tamaşaçılar xanəndə M.Ozolinin, Azərbaycan rəqqasəsi R.Cəlilovanın, bayançı A.Poletayevin, estrada artistlərinin Ümumittifaq müsabiqəsinin laureatları



*Efiopiyanın imperatoru Hayle Selasiya*

T.Ptitsınanın, L.Maslyukovun və başqalarının çıxışlarını xüsusilə yaxşı qarşılamışlar.

Sovet artistlərinin konsertlərində Liviyanın ictimai və dövlət xadimləri, mədəniyyət və incəsənət xadimləri, Liviya ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Sovet artistləri qastrol üçün Tunisə uçmuşlar».

Qəzet xəbərindən bilindiyi kimi, qastrol iştirakçıları Liviyadan sonra Tunisə gedərək orada konsertlər vermişdilər. Roza Cəlilova Tunisdə bir nəfər rus qızı ilə rastlaşmışdı. Gözəl hind rəqsi oynayırdı. Rozanın onun rəqsinə çox diqqətlə baxdığını görüb onunla tanış olmuşdu. Sən demə, bu rəqqas hind rəqslərini dərindən öyrənmək üçün Hindistana gedib, orada bu sahədə təhsil alıbmış. Faina adlı bu qız boş vaxtlarında Rozaya hind rəqsini öyrətdi. Ayrılarkən o öyrətdiyi rəqsin notunu, əynindəki paltarı, boynundakı silsiləni, topuğuna taxdığı xalxalı da Rozaya bağışladı.

Roza Bakıya qayıtdıqdan sonra rus rəqqasəsinin öyrətdiyi həmin «Benqal» rəqsini çox məharətlə oynadı və bu rəqsi ilə daha da məşhurlaşdı. Hətta göstərdiyi bu



*Hind rəqsi. Solist Roza Cəlilova*

məharətə görə mahnı və rəqs ansamblının rəhbərliyi onun üçün təzə hind paltarı tikdirdi.

Beləliklə, Roza Cəlilova az bir zamanda hind rəqsini iki quruluşda oynadı.

Bakıda Hindistan günləri keçirilərkən o zaman Mərkəzi Komitənin ideoloji katibi, teatr tənqidçisi Cəfər Cəfərovun təklifi ilə Roza hind rəqsini böyük ustalıqla oynamışdı.

Hind rəqsini ilk dəfə oynadığına görə Roza xanım bu gün də məmnunluq hissi keçirir: «Azərbaycan səhnəsinə hind rəqsini ilk dəfə mən gətirmişəm – deyir. – İndi hind rəqslərini oynayan rəqqasələr hind kasetlərinə baxıb hərəkətləri oradan götürürlər. Amma onlar rəqs hərəkətlərinin mənasını da anlamırlar, ağıllarına gələn hərəkəti edirlər. Elə hesab edirlər ki, hind rəqsi oynayırlar. Əslində, belə deyildir. Çünki onlar peşəkar deyillər».

Roza Cəlilovanın hind rəqsi o qədər cəzbedici, sirayətedici gücə malik idi ki, hətta Xalq rəssamı Böyükağa Mirzəzadəni də özünə cəlb eləmişdi. Süjetli tablo, mən-

zərə, portret, natürmort, teatr-dekorasiya və digər sahələrdə yaratdığı sənət nümunələri ilə ümumxalq sevgisini qazanmış Böyükağa Mirzəzadə (1921–2007) Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin inkişafında xidməti olan böyük şəxsiyyətlərin – Maestro Niyazinin, Səttar Bəhlulzadənin, Şəmsi Bədəlbəylinin, Lətif Kərimovun, Xəyyam Mirzəzadənin portretlərini işləmişdir. Rəssamın Roza Cəlilovaya həsr etdiyi «Rəqqasə» portretini də bu silsiləyə aid etmək olar. Təsadüfi deyildir ki, Xalq rəssamının bu «Rəqqasə» portreti onun müxtəlif vaxtlarda nümayiş etdirdiyi sərgilərini bəzəmişdir. Bu hal dövri mətbuatda da öz əksini tapmışdır. «Kommunist» qəzetinin 19 avqust 1981-ci il tarixli sayında belə bir xəbər dərc olunmuşdur: «Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətində respublikanın təsviri sənət ustalarının Hindistana həsr olunmuş əsərlərinin sərgisi açılmışdır. Həmin sərgidə Böyükağa Mirzəzadənin Roza Cəlilovaya həsr etdiyi «Rəqqasə» portreti də nümayiş etdirilmişdir».

Bu «Rəqqasə» portreti hazırda Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyində saxlanılır.

Roza Cəlilovanın sənəti, şəxsiyyəti təkcə Böyükağa Mirzəzadə kimi rəssamın deyil, rejissorların da diqqətini cəlb edirdi. Dəfələrlə onu bədii filmlərə çəkmək üçün sınaq çəkilişlərinə dəvət etmiş, lakin Roza Cəlilovanın müxtəlif ölkələrə qastrol səfərlərinə getməsi bu istəyin reallaşmasına mane olmuşdur.

Ancaq rejissor Rauf Kazmovskinin çəkdiyi bir televiziya filmində Mehri rolunda oynamışdır. Bu filmdə onun tərəf-müqabili Xalq artisti Həsənağa Turabov olmuşdur. Bu çəkilişdən üç gün sonra Roza xanım yenə qastrola getmişdir.



*Xalq rəssamı Böyükağa Mirzəzadənin Roza Cəlilovaya həsr etdiyi «Rəqqasə» portreti*



*Roza Cəlilova (Mehri rolunda) və Həsənağa Turabov televiziya filmində*

Bu gün ixtiyar yaşlı sənətkar filmə çəkilməməsindən çox təəssüf hissi ilə söhbət açaraq deyir:

– Sevdiyim rəqs sənəti həyatıma çox unudulmaz səhifələr yazdı. O illərə dönüb baxanda bircə ona təəssüflənirəm ki, kinoya çəkilmədim. Dəvətlər çox oldu. Moskvadan məni «Aleka» filmində qaraçı qızı Zemfira roluna çəkmək istədilər. Bakıya gəldilər. Məni Moskvaya apardılar. Sınaq çəkilişləri oldu. Bakıdan xəbər gəldi ki, xaricə üçaylıq səfərə getməlisən. Çəkilişləri atıb gəldim. Sonra Moskvada başqa filmə dəvət etdilər. Sınaq çəkilişləri olmadan, birbaşa rola təsdiq edirdilər məni. Getmədim. Bir gün rejissor Həsən Seyidbəyli mənə dedi ki, Roza, heç olmasa bir filmə çəkil. Çəkilmədim. Səfərlər, get-gəllər qoymadı. İndi çox heyifsilənirəm. Çünki kino tarixdi. Cavanlıq illərimdən mənə qalan şəkillər, bir də xatirələrdi.



*Roza Cəlilova «Koroğlu» bədii filminin sınaq çəkilişində.*
*Koroğlu – Əfrasiyab Məmmədov*

Bəli, fürsət uçan quş kimidi, vaxtında tutub saxlamasan, uçub gedəcək. Roza xanımın ömrünün müxtəlif anlarını əks etdirən şəkillər arasında bir şəkil də var: «Koroğlu» bədii filminə sınaq çəkilişindən əbədiləşmiş bir an...

Roza Cəlilovanın səhnə taleyinə nəzər salan teatrşünas Cabir Səfərov* rəqqasənin 60 illik yubileyi münasibətilə qələmə aldığı «Rəqs ustası» məqaləsində onun uğurlarını yad edərək yazır: «Roza xanımın həyatında unudulmaz bir hadisə də 1957-ci ildə Bakıda Azərbaycan gənclərinin ikinci respublika festivalında olmuşdur. Bu festivalda, demək olar ki, ən yüksək zirvəni Roza Cəlilova fəth etmişdi. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən yekun konsertində Roza Cəlilovaya festivalın laureatı diplomunun verilməsi sənətsevərlərin böyük sevincinə səbəb olmuşdu. Bu hadisədən ruhlanan gənc rəqqasə musiqi folklorundan daha cəsarətlə istifadə edərək səhnəmizə yeni rəqs nümunələri gətirdi və onun bu axtarışları da layiqincə qiymətləndirildi» *(«Ədəbiyyat və incəsənət» qəzeti, 9 iyun 1989-cu il, № 23(2366)).*

---

* Teatrşünas, tənqidçi Cabir Mahmud oğlu Səfərov 1924-cü il mayın 1-də Bakı şəhərində anadan olmuşdur. O, «Ədəbiyyat və incəsənət» qəzeti redaksiyasında kollegiya üzvü, Azərbaycan Dövlət Teatr İnstitutunda mədəni-maarif kafedrasının müdiri, Azərbaycan Teatr Cəmiyyətinin Rəyasət Heyəti sədrinin birinci müavini, Dostluq Teatrının direktoru vəzifələrində çalışıb. İncəsənət İnstitutunda baş müəllim işləyib. II Dünya müharibəsinin iştirakçısı olmuşdur.

«Azərbaycan Dram Teatrı» (A.Babayevlə birlikdə), «Hacağa Abbasov», «Ağdam Xalq Teatrı», «Azərbaycan Xalq Çalğı Alətləri», «Şərəfli yol» (A.Babayevlə birlikdə), «Teatr və dramaturgiya», «İbrahim İsfəhanlı» kitablarının müəllifidir.

Cabir Səfərov 1990-cı ildə Bakıda vəfat etmişdir.



*Dönüb geriyə baxanda...*

## MAHNI VƏ RƏQS ANSAMBLI ÇİN XALQ RESPUBLİKASINDA

50–60-cı illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı filarmoniyanın ən aparıcı kollektivlərindən biri olmuşdur. Bu ansambl respublikamızda, onun hüdudlarından çox-çox uzaqlarda belə ən peşəkar kollektiv kimi tanınır və sevilirdi. Ansambl donanma heyətində, orduda, hərbi dəniz flotunda hamilik konsertləri verirdi. Mahnı və Rəqs Ansamblının kollektivi dəfələrlə fəxri fərmanlarla təltif edilmiş və 1957-ci ildə Respublika festivalının laureatı olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan mahnı və rəqs sənətinin inkişafındakı böyük nailiyyətləri və uğurlu konsert fəaliyyətlərinə görə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 13 iyun 1958-ci il Fərmanı ilə Əməkdar kollektiv adı verilmişdir. Bu kollektiv nəinki Azərbaycanın şəhər və rayon mərkəzlərində, o zaman SSRİ-nin bütün respublikalarında qastrol səfərlərində olmuşdu.

Hər konsertin, hər qastrol səfərinin təəssüratları vardır. Bir dəfə isə İrəvanda qastrolda olanda gözlənilməz hadisə baş vermişdi. Əlibaba Abdullayevlə Roza Cəlilova səhnədə rəqs edirdilər. Zurnanın, tarın, balabanın, qarmonun səsi bir-birinə qovuşaraq «Tərəkəmə» çalırdı. Əlibaba ilə Roza səhnənin əsl sahibi kimi musiqinin sədaları altında peşəkarlıq nümayiş etdirirdilər. Bu gözəl balet ustalarının elastik hərəkətləri tamaşaçıları coşdururdu. Birdən güllə səsi eşidildi. Roza bu qəfil atəş səsindən diksindi. Əsə-əsə

oynayırdı. Səhnədə çox hadisələrin şahidi olmuş Əlibaba oynaya-oynaya yavaşca Rozaya pıçıldadı: «Özünə gəl, fikir vermə». Ancaq Roza fikir verməyə bilmirdi. «Bunlar necə millətdi, salonda oturub havaya güllə atır». Əlibaba elə bil Rozanın ürəyindən keçənləri gözlərindən oxudu, onun qarşısında oynaya-oynaya dedi: «Qorxma, onlar bizə yox, musiqimizə güllə atırlar, Roza».

Təəssüf doğuran cəhət o idi ki, həmin güllə atanı heç cəzalandırmadılar da.

Çin səfərinə qədər Roza Efiopiyada, Liviyada, Tunisdə, Eriteriyada... səfərdə olmuşdu, sənət uğurları qazanmışdı. Əvvəldə dediyimiz kimi, bu səfərlərin, hətta bəzisinə tək getmişdi. Bu səfərlərdə qazandığı uğurlardan biri də o idi ki, əcnəbi ölkələrin notlu orkestrlərinin müşayiəti ilə də oynamağı mənimsəmişdi. Milli rəqs ustası üçün bu, böyük uğur idi.

***

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı 80 nəfərlik heyəti ilə Çin Xalq Respublikasına getmişdi. Bu səfərdə filarmoniyanın direktoru Soltan Hacıbəyov, bədii rəhbəri bəstəkar Tofiq Quliyev, mahnı və rəqs ansamblının bədii rəhbəri Qılman Salahov, dirijoru Rəşid Əfəndiyev, xormeysteri Hacıbaba Əliyev də iştirak edirdi.

Mahnı və rəqs ansamblı ilk dəfə idi ki, bütün heyəti ilə xarici ölkəyə qastrola getmişdi. Kollektiv və onun rəhbərliyi iki ay davam edəcək bu səfərə çox yaxşı hazırlaşmışdı, zəngin repertuarı var idi. Həm xalq rəqsləri, həm də bəstəkar musiqiləri əsasında yeni rəqslər hazırlanmışdı. Repertuara «Yallı», «Tərəkəmə», «Nazlana-nazlana», «Tirmə şal» kimi xalq rəqsləri ilə yanaşı, Cahangir Cahangirovun «Ölkəm», Soltan Hacıbəyovun «Azad Azərbaycanın mahnı



*Soldan: Rəşid Əfəndiyev, Qılman Salahov, Soltan Hacıbəyov və Hacıbala Əliyev. Çin Xalq Respublikasında. 1959*

və rəqsləri» süitaları əsasında hazırlanmış rəqslər də daxil edilmişdi. Ansambl Çin xalq rəqslərini də unutmamış, «Almuxan» Çin mahnısı əsasında rəqs hazırlamışdı.

Mən bu yerdə sözü uzun illər Roza xanımla birgə çalışmış, onun konsert çıxışlarının şahidi olmuş **Respublikanın Əməkdar artisti Aliyə Ramazanovaya** verirəm:

«Mən 1958-ci ildə orta məktəbi bitirən kimi Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına qəbul edildim. Hələ məktəbdə oxuyarkən Ehtiyat əmək qüvvəsi mədəniyyət evinə rəqs dərnəyinə gedirdim. Fitri istedadıma görə məni mahnı və rəqs ansamblına götürdülər. Nə gizlədim, mən belə bir ansambla işə götürüldüyüm üçün özümü xoşbəxt hiss edirdim. Elə ansambla gəldiyim ilk gündən gördüklərim məni valeh etdi. Mən ilk iş günümdə gözəl bir otağa daxil oldum. Otağın bir divarı güzgülərlə

doluydu, bir tərəfdə piano qoyulmuşdu. Musiqi alətlərinin öz yeri vardı. Rəqs qrupu üçün divarboyu dörd tərəfdən ağac dayaqlar bərkidilmişdi. Burada rəqqas və rəqqasələr gözəl məşq paltarında cərgə ilə bir-birinin ardınca düzülmüşdülər və məşqə hazır vəziyyətdə dayanmışdılar. Mən onlara heyranlıqla tamaşa edirdim. Fikirləşirdim ki, tezliklə mən də bu gözəl rəqqasələrin cərgəsində dayanacağam. Mən diqqətlə məşq edən rəqqasə qızlara baxırdım. Onların arasında daha çox diqqətimi cəlb edən isə gözəl bir xanım idi. Bu xanımın 25–26 yaşı olardı. O, çox gözəl və səliqə ilə geyinmişdi. Aradan uzun illər keçməsinə baxmayaraq, bu xanımın görünüşü indi də yadımdadır. Onun əynində qara yaxalıqlı zərli köynək, atlaz qara şalvar vardı. Şalvarın bel və ayaq hissələri qızılı zər naxışlarla bəzədilmişdi. Şalvarın üstündən nazik qara şifon parçadan yubka geyinmişdi. Yubkanın kənarları nazik qızılı naxışlarla işlənmişdi. Bu gözəl məşq paltarı ona çox yaraşırdı.

Məşq vaxtı cərgədə birinci dayanması onu deyirdi ki, ansamblın baş solisti Roza Cəlilovadır! Onun parlaq qara gözləri, zil qara saçları, gülər üzü dərhal diqqəti cəlb edirdi! Elə ilk baxışdaca öz gücünə güvənən gözəl bir xanım təsiri bağışlayırdı. Onun həm milli, həm də divara bərkidilmiş ağac dayaqdan tutub göstərdiyi klassik hərəkətlər çox gözəl və incə idi. Bu xanım elə gözəl rəqs hərəkətləri edirdi ki, gözümü ondan çəkə bilmirdim. Doğrusu, ona yaxınlaşıb tanış olmağa bir qədər çəkinirdim. Ona görə də səbirlə dayanıb onun məşqinə tamaşa edirdim. Bu gözəl xanım ona diqqət kəsildiyimi hiss eləmişdi. Məşq bitdikdən sonra o, özü mənə yaxınlaşdı, tanış olduq. O, mənə ürək-dirək verdi, işimdə uğur dilədi. Mən ilk dəfə onda Roza Cəlilovanın necə sadə, səmimi bir insan

olduğunu gördüm. Roza xanım elə ilk vaxtlardan mənə qayğı ilə yanaşdı, rəqslərimin təkmilləşməsinə kömək etdi. Beləcə biz yaxın rəfiqə olmuşduq, qastrollarda çox zaman bir otaqda qalardıq.

Mənim ilk dəfə qastrola getməyim də Dövlət Mahnı və Rəqs Ansamblına işə girdiyim ilə təsadüf etmişdi.

1958-ci ildə Çin Xalq Respublikasında qastrolda olanda mən orada bir daha Roza Cəlilovanın necə mahir bir rəqqasə olduğunun şahidi oldum. Roza xanımın Çində aparıcı solist kimi konsert çıxışları, məharətlə oynadığı «Azərbaycan süitası» (S.Rüstəmovundur), «Vətən süitası» (C.Cahangirovundur), «Tirmə şal» rəqsləri indi də gözlərim önündədir.

Ansamblın rəhbərliyi tərcüməçi vasitəsilə çinlilərə çatdırmışdı ki, kollektivimiz «Çin rəqsi» oynamaq istəyir. Çinlilər dərhal bu təklifə müsbət cavab vermişdilər. Xora çin dilində mahnı təqdim etmişdilər. Bizim xor qrupumuz çox keçmədən mahnını Çin dilində hazırlamışdı. Çinli baletmeyster isə bizə Çin rəqsini öyrətdi. Çin dərziləri qısa müddətdə bizim üçün milli paltarlar tikmişdilər. «Çin rəqsi»ndə həm qızlar, həm oğlanlar qrupu, həm də xor iştirak edirdi. Təbii ki, Roza Cəlilova bu rəqs quruluşunun mərkəzindəydi. Bizim «Çin rəqsi»miz çox gözəl alınmışdı. Çinlilər tərəfindən alqışlarla qarşılanırdı. Biz Azərbaycana qayıdandan sonra ansamblın baş baletmeysteri Əlibaba Abdullayev Roza Cəlilovanın solistliyi ilə yeni «Çin rəqsi» hazırladı. Beləcə ansamblın repertuarı daha da zənginləşdi.

Onu da deyim ki, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının gözəl milli rəqslərinin əksəriyyəti əvvəlcə Roza xanımın üzərində qurulurdu. Ondan sonra onun rəqslərinə dublyajlar hazırlanardı. O, bir qadın kimi yumşaq,



*Çin rəqsi*

çevik rəqsləri ilə öz oynunu elə bəzəyirdi ki, sanki rəqsin dilini bilirdi. Mən onun oynadığı bütün rəqsləri sevirdim. Çalışırdım ki, özümü ona bənzədim. O özü də bunu hiss edirdi.

Roza Cəlilovanın ifa etdiyi «Azərbaycan süitası», «Tirmə şal», «Tərəkəmə», «Lalələr», «İnnabı», «Hind rəqsi», «Özbək rəqsi», «Tacik rəqsi», «Qırğız rəqsi» hər kəs tərəfindən sevilirdi. Dünya xalqlarının rəqslərini elə bir məharətlə oynayırdı ki, tamaşaçılar onu dönə-dönə səhnəyə qayıtmağa vadar edirdilər. Alqışlar kəsilmək bilmirdi. O, yeganə rəqqasə idi ki, onun oynunda lirika ilə texnika bir-birini tamamlayırdı. Səhnədə elə bil qanad açıb uçurdu. Roza Cəlilova kefsiz, qanıqara vaxtlarında belə səhnəyə çıxanda hər şeyi unudurdu.

Onun üstün cəhətlərindən biri də o idi ki, həm səhnədə, həm də həyatda öz milliliyini qoruyub saxlayırdı. Bütün davranışında, üz cizgilərində əsl azərbaycanlı qızlarına məxsus ifadələr vardı. Elə bil Azərbaycan xalq rəqsləri üçün yaranmışdı. Qaş-göz işarəsi, xırda sındırmaları, çiyin-

lərinin zərif hərəkətləri, doğrudan, bir aləm idi. Oynadığı rəqsə elə əlavələr eləyirdi ki, baxdıqca baxmaq istəyirdin. Bəstəkarların proqrama daxil edilən yeni musiqilərini dərhal qavrayırdı. Sanki bunları çoxdan eşitmişdi. Xalq artisti Əlibaba Abdullayev yeni-yeni rəqslər qururdu, bilirdi ki, Roza Cəlilova etimadı layiqincə doğruldacaqdır.

Roza xanım çox fədakar sənətçi idi. Bizim çox ağır qastrol səfərlərimiz olub. Roza xanım bir dəfə də olsun qastroldan imtina eləmirdi. Qış fəslində keçmiş SSRİ-nin sərt soyuq yerlərinə – Rusiyaya, Ukraynaya, Belorusiyaya, Arxangelskə, Murmanskiyə, Tomskiyə, Pribaltika respublikalarına, yayda isti ölkələrə – Tacikistana, Türkmənistana, Qırğızıstana, Qazaxıstana və b. respublikalara qastrola gedərdik. Xarici ölkələrə də həmçinin. Bəzən yol-rizdə bizə soyuq olurdu, xəstələnirdik. Roza xanım xəstələnəndə ona yardım edirdim. Bir-iki gün istirahət elə deyirdim. Lakin səhəri gün yenə də konsert barədə düşünər və öz çıxışlarını davam etdirərdi.

O, rəqs ansamblına rəhbərlik etdiyi illərdə həm ölkədə, həm də xaricdə səfərlərimiz çox uğurlu keçdi.

Roza xanımın özündən, sənətindən günlərlə danışmaq olar. O, milli mədəniyyətimizə xidmət edən, onu ürəkdən sevən sənətçidir. Allah qorusun!»

Mən bu kitabın üzərində işləyərkən Roza xanımın həmişə haqqında ürəkdolusu danışdığı, bir rəqqas kimi sənətini yüksək qiymətləndirdiyi, Ümumittifaq və VI Ümumdünya Tələbə və Gənclərin festivalları laureatı Ramiz Məmmədovun da ürək sözlərini qələmə almağı vacib sandım. Bir axşam ona zəng edib özümü təqdim etdim və Roza xanım haqqında fikrini soruşdum. **Ramiz Məmmədov** dedi:

«Mənə görə Azərbaycan xalq rəqsinin babası Əlibaba Abdullayev, nənəsi Əminə Dilbazi, atası Böyükağa Məmmədov, anası isə Roza Cəlilovadır. Mən uzun illər Roza Cəlilovayla mahnı və rəqs ansamblında bir yerdə çalışmışam. Mən onunla bir çox rəqslərdə tərəf-müqabili olmuşam. «Naz eləmə»də, «Bulaq başında»da, «Azərbaycan toyu»nda... Çoxdur, yadımda qalanları deyirəm. Bir rəqqasə kimi Roza xanımda böyük ürək vardı. Məktəb görmüşdü, professional rəqqasə idi. Ondan qabaq Şəfiqə Əmirova, Sona Dadaşova, Fizzə Hənəfiyeva kimi gözəl rəqqasələr fəaliyyət göstərirdi. Roza Cəlilova mahnı və rəqs ansamblına təzə ruh, rəqslərimizə yeni ovqat gətirdi. Mən onunla Ümumittifaq və VI Ümumdünya Tələbə və Gənclər festivalında da iştirak etmişəm. Biz laureat adını qazanmışıq. Buna görə Ali Sovetin fəxri fərmanı ilə təltif də olunmuşduq.

Mən Roza xanımla dünyanın çox yerində – ərəb ölkələrində, Çin Xalq Respublikasında, keçmiş SSRİ-nin bütün respublikalarında qastrol səfərlərində olmuşam. Roza xanımın rəqsləri hər yerdə alqışlarla qarşılanıb. O, çox istedadlı bir rəqqasə idi. Buna görə də onu bəzən ansambldan ayıraraq başqa görkəmli sənətkarlar qrupunun tərkibində də xarici ölkələrə qastrola göndərirdilər. Çünki o, başqa xalqların rəqslərini də gözəl oynayırdı. Repertuarında «Hind rəqsi», «Benqal rəqsi», «İran rəqsi» kimi rəqslər vardı.

Bizim mahnı və rəqs ansamblımızın və şəxsən bizim çox sevilən, şöhrətli vaxtlarımız olub. Şəkillərimiz həkk olunmuş podnoslar (ifa zamanı çəkilən) ev-ev gəzərdi.



*Roza xanımın sənətinə vurğunluq sonralar da davam etmişdir. Çox illər sonra cənublu soydaşımız iki qavalın içərisinə Roza xanımın rəqslərindən anlar həkk edərək ona hədiyyə etmişdir*

Roza Cəlilova haqqında çox danışmaq olar. O, sözün həqiqi mənasında, rəqs sənətinin rəssamıydı. İfa etdiyi rəqslərlə sanki cürbəcür şəkillər çəkirdi.

O, rəqsin fədaisi idi. Milliliyini həmişə qoruyub saxlayırdı. Uzun hörüklər, rəqsə görə geyindiyi əlvan paltarlar ona çox yaraşırdı. Çünki əksər vaxtlarda paltarını öz zövqünə görə tikdirirdi. Öz dövründə ikinci bir Roza yoxdu.

Roza xanım həm də şəxsiyyət idi. Paxıllığı da yoxdu. Amma onun paxıllığını çəkənlər, ona rəqib olacaq birisini yetişdirmək istəyənlər vardı. Ancaq heç nə əldə edə bilmədilər. Çünki  Roza Cəlilova fitrətən rəqqasə idi!»

***

Mahnı və rəqs ansamblının kollektivi iki ay Çində qalaraq 42 konsert vermişdi. Ansambl təkcə mədəniyyət saraylarında, ayrı-ayrı konsert zallarında deyil, parklarda, hərbi hissələrdə belə konsertlər verirdi. Yekun konserti

ölkənin paytaxtı Pekində olmuşdu və yüksək dəyərləndirilmişdi.

Mahnı və rəqs ansamblının konsertləri Çin xalqının musiqi ictimaiyyətinin də diqqətini cəlb etmişdi. Ölkənin «Jenminjibao», «Neymınqu jibao» kimi qəzetləri ansamblın hər çıxışını öz səhifələrində geniş işıqlandırırdı. Mətbuat Çin tamaşaçılarının Azərbaycan xalq musiqisini, mahnı və rəqslərini məhəbbətlə qarşıladıqlarını yazırdı.

Mahnı və rəqs ansamblı Çin Xalq Respublikasından böyük uğurlar əldə edərək qayıtmışdı. Buna görə də ansamblın bəzi solistləri, o cümlədən Roza Cəlilova fəxri adla təltif olunmuşdu.


АЗӘРБАЈЧАН ССР
ӘМӘКДАР АРТИСТКАСЫНЫН
ФӘХРИ ФӘРМАНЫ
ПОЧЕТНАЯ ГРАМОТА
ЗАСЛУЖЕННОЙ АРТИСТКИ
АЗЕРБАЙДЖАНСКОЙ ССР


АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ

Азәрбајҹан ССР
әмәкдар артисткасы

Театр инҹәсәнәти саһәсиндә көркәмли
фәалијјәтинизә көрә

Азәрбајҹан ССР Али Советинин Рәјасәт Һеј'әти
19 59 ил 21 феврал тарихли Фәрманы илә сизә

АЗӘРБАЈЧАН ССР ӘМӘКДАР АРТИСТКАСЫ
ады верилмишдир

№ 65

*Roza Cəlilova səmərəli yaradıcılıq işinə və Çin Xalq Respublikasında uğurlu çıxışına görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 22 fevral 1959-cu il fərmanına əsasən Azərbaycanın Əməkdar artisti fəxri adına layiq görülmüşdür*



*Səhnədə canlandırılan hər bir rəqs nömrəsi yaradıcılıq nümunəsidir...*

## MOSKVADA KEÇİRİLƏN İNCƏSƏNƏT VƏ ƏDƏBİYYAT ONGÜNLÜYÜNDƏ

Roza Cəlilovanın Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində saxlanan şəxsi fondundakı 25 dekabr 1958-ci il tarixli konsert proqramından aydın olur ki, partiyanın XXI qurultayı ilə əlaqədar olaraq Azərbaycanın bir qrup incəsənət xadimi Moskvada konsert vermişdir. İki hissədən ibarət olan bu konsertdə skripkaçı Azad Əliyev, Opera və Balet Teatrının solistləri – Firəngiz Əhmədova, Ağababa Bünyadzadə, Hüseyn Əliyev, SSRİ Xalq artisti Rəşid Behbudov, mahnı və rəqs ansamblının solistləri – Roza Cəlilova, Nailə Mahmudova, Şərqiyə İsgəndərova, Xoşbəxt Məmmədova, Ramiz Məmmədov, Böyükağa Məmmədov, Əhmədağa Məmmədov, müğənni Şövkət Ələkbərova və Rəhilə Həsənova da iştirak etmişdir. İfaçılarımızı M.Muradov (tar), T.Bakıxanov (kamança), Ə.Nəcəfov (dəf), M.Atayev (balaban) müşayiət etmişdir. Konserti Moskva filarmoniyasının aktrisası Q.Şerbakova idarə etmişdir.

Bu konsertdə Roza Cəlilova hər iki şöbədə çıxış etmişdir. O, birinci şöbədə «Tərəkəmə», ikinci şöbədə isə Böyükağa Məmmədovla «Naz eləmə» rəqs-duet oynamışdır.

Çin səfəri çox uğurla keçmişdi. Bunu nəzərə alan Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti filarmoniyanın bədii rəhbəri Tofiq Quliyevə, ansamblın dirijoru Rəşid Əfəndiyevə respublikanın Əməkdar incəsənət xadimi, ansamblın solistləri Tutu Həmid qızı Həmidovaya, Roza



*«Naz eləmə» rəqsi. İfa edirlər: Roza Cəlilova*
*və Qorxmaz Qurbanov*

İsmayıl qızı Cəlilovaya və konsertmeyster Məmmədağa Muradova respublikanın Əməkdar artisti fəxri adlarını vermişdir. Bu münasibətlə «Ədəbiyyat və incəsənət» qəzetində «Görkəmli incəsənət ustaları» adlı sərlövhə altında fəxri adlar alan sənətkarlar haqqında qısa yazılar dərc edilmişdi. Həmin təbrik səhifəsində Roza Cəlilovanın xidmətləri belə səciyyələndirilmişdir: «Roza Cəlilovanın adı təkcə respublikamızda deyil, onun sərhədləri xaricində də məşhurdur. Bakı Xoreoqrafiya məktəbinin yetişdirmələrindən olan bu gənc rəqqasə bizim milli rəqs sənətinə bir çox xarici ölkələrdə böyük şöhrət qazandırmışdır.

Xalq rəqslərimizin milli xüsusiyyətlərini bütün incəliklərinə qədər tamaşaçıya çatdırmaq gənc rəqqasənin yaradıcılığında üstünlük təşkil edən qiymətli cəhətdir. Çin Xalq Respublikasının, Misirin, Almaniya Demokratik Respublikasının, Bolqarıstanın, Rumıniyanın, Albaniyanın, Tu-

nisin, Həbəşistanın və başqa ölkələrin konsert salonlarında Roza Cəlilova milli rəqs sənətimizin ən gözəl nümunələrini müvəffəqiyyətlə nümayiş etdirmişdi.

İndi istedadlı rəqqasə Moskvada keçiriləcək ongünlük konsertlərinə hazırlaşır. Ongünlük konsertlərində moskvalılar gənc rəqqasənin ifasında Azərbaycan rəqslərinə, eyni zamanda yeni hazırladığı «Ərəb rəqsinə» tamaşa edəcəklər».

1959-cu ildə Moskvada keçiriləcək Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü ərəfəsində ayrı-ayrı sənətkarlar haqqında mətbuatda yazılar dərc olunmuşdur. Onlardan biri də Roza Cəlilova idi. «Roza yeni səfərə hazırlaşır» başlıqlı məqalənin müəllifi Ələsgər Qurbanov istedadlı rəqqasənin həyat yoluna nəzər salaraq yazırdı: «Ərəb ölkələrinə səfərdən qayıdan gənc rəqqasə keçən il Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı ilə birlikdə Çin Xalq Respublikasına qastrol səfərində də iştirak etdi. Bu, ona daha böyük müvəffəqiyyət qazandırdı. Bu günlərdə respublikamızın bir qrup incəsənət işçisi ilə birlikdə şərəfli ada – Azərbaycan Respublikasının Əməkdar artisti adına layiq görülən gənc rəqqasə Roza Cəlilovanın qarşısında indi daha böyük və ciddi imtahan durur. O, bu ilin may ayında Moskvada keçiriləcək Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyünə ciddi hazırlaşır. İstedadlı rəqqasə ongünlükdə paytaxt tamaşaçıları qarşısında bir sıra Azərbaycan xalq rəqsləri və yeni hazırladığı «Ərəb rəqsi» ilə çıxış edəcəkdir» *(«Azərbaycan gəncləri» qəzeti, 1959).*

Roza Cəlilova özü də mətbuatda yaradıcılıq səfərindən, Moskvada keçiriləcək ongünlükdən söz açaraq yazırdı:

«Çin, Həbəşistan (Efiopiya – *M.Ç.*), Eriteriya, Misir, Liviya, Tunis... Bu yerlər mənim 1958-ci ildə qastrolda olduğum

ölkələrdir. Adlarını çəkdiyim bu ölkələrin bir çox şəhərlərində keçən il Moskvanın, Leninqradın (indiki Sankt-Peterburq – *M.Ç.*), Bakı və Riqanın solistləri ilə birlikdə qastrol konsertlərində çıxış etmişəm.

Xarici ölkələrdə hər dəfə yeni tamaşaçı kütləsi ilə üz-üzə gəldikdə nə qədər sevinmişəm. Bu sevinc hissi həmişə sadəcə olaraq, yeni bir şəhərlə tanış olmaqdan deyil, öz doğma xalqımın zəngin rəqs sənətini böyük bir qürurla xarici ölkə zəhmətkeşləri qarşısında nümayiş etdirməkdən irəli gəlmişdir. Uzaq ellərdə bizim əsrarəngiz bir qüvvə ilə insanı valeh edən xalq rəqslərinin tamaşaçılar tərəfindən nə qədər dərin maraq və həyəcanla qarşılandığını sözlə söyləmək mənim üçün çox çətindir.

Şeir və musiqi kimi rəqsin də öz «dili» və ahəngi var. Bunu mən öz milli rəqslərimizi xarici ölkələrin konsert salonlarında ifa edərkən daha gözəl hiss edib duydum.

Yeni ildə mənim əsas yaradıcılıq işim ansamblımızın heyətilə birlikdə may ayında Moskvada keçiriləcək ongünlüyə hazırlaşmaqdan ibarətdir.

Keçən ilin, demək olar ki, yarıdan çoxunu xarici ölkələrdə keçirdim. Təzə ildə hansı ölkə və yaxud harada çıxış edəcəyim barədə indidən bir söz deyə bilmərəm. Hər halda yeni ildə də qastrolda olacağıma şübhəm yoxdur. Çünki hər təzə il bizə yeni müvəffəqiyyətlər və yaradıcılıq səfərləri gətirir» *(Roza Cəlilova. Yaradıcılıq səfəri. «Ədəbiyyat və incəsənət» qəzeti, yanvar, 1959)*.

Gətirdiyimiz bu kiçik faktlar sənətkar həyatının yaşanmış, artıq tarixləşmiş günlərinin əks-sədası kimi maraqlıdır. Sovet dövründə Azərbaycan Respublikası Moskvada iki dəfə möhtəşəm incəsənət və ədəbiyyat ongünlüyü



*Oturanlar: Rəhilə Həsənova, Mədinə Gülgün, Rübabə Muradova; arxada soldan: Elza İbrahimova, 3-cü Roza Cəlilova, Cabir Səfərov, Məhluqə Sadıqova və b.*

keçirib. Birinci ongünlük 1938-ci ilin aprelində, ikinci ongünlük isə 1959-cu ilin may ayında baş tutub.

Ongünlük ərəfəsində Soltan Hacıbəyov və Tofiq Quliyevin tərtibçiliyi ilə 2000 nüsxə tirajla çap olunmuş «Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı» kitabçasında ansamblın keçdiyi yola nəzər salınmış, kollektivin bir çox aparıcı simaları ilə yanaşı, Roza Cəlilova haqqında da dəyərli fikirlər söylənmişdir. Kitab müəllifləri olan görkəmli sənətkarların istedadlı rəqqasə haqqında gəldikləri ümumi qənaət belədir: «Son vaxtlar öz yaradıcı uğurları ilə Azərbaycan xalq rəqsinin istedadlı ifaçılarından biri olan Roza Cəlilova bizi sevindirir. Özünün yüksək sənətkarlığı və cəlbediciliyi ilə o, ölkəmizdə və xaricdə də geniş tamaşaçı kütləsinin sevgisini qazanmışdır» *(göstərilən kitab, səh. 39).*

Teatrşünas, tənqidçi Cabir Səfərovun «Moskva əziz qonaqları gözləyir» sərlövhəli məqaləsində o günün mənzərəsi, orada çıxış edəcək kollektivlərin proqram çıxışları çox aydın görünür. Cabir Səfərov yazır:

«Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü ərəfəsində paytaxtımızın küçələri bayramsayağı bəzədilmişdir. Küçələrdə, yaşıl ağaclarla əhatə olunmuş parklarda, geniş meydançalarda, mağazaların vitrinlərində ongünlüyə gedən teatr, konsert təşkilatlarının afişaları və səhnə ustalarımızın böyük məharətlə yaratdıqları rolların fotoşəkillərindən ibarət 120-yə qədər sərgi vardır. SSRİ Böyük Teatrının qarşısında Sverdlov meydanındakı bağda düzəldilmiş dörd fotosərgidə M.F.Axundov adına Azərbaycan Dövlət Lenin ordenli Opera və Balet Teatrının, Azərbaycan Dram Teatrı, M.Maqomayev adına Dövlət Filarmoniyası, habelə ongünlüyün iştirakçıları olan istedadlı özfəaliyyət kollektivlərinin şəkilləri vurulmuşdur.

Əlbəttə, Moskva tamaşaçılarını aktyor və solistlərimizin təkcə şəkilləri deyil, zəngin yaradıcılıq yolu və sənətkarlıq məharəti daha çox maraqlandırır. Buna görə də onlar Azərbaycan artistlərinin ongünlük tamaşa göstərəcəkləri günü səbirsizliklə gözləyirlər. Teatrlarımızın göstərəcəkləri tamaşaların adları paytaxt zəhmətkeşlərinə çoxdan məlumdur. Paytaxtda nümayiş etdiriləcək «Koroğlu», «Yeddi gözəl», «Qız qalası», «Sevil», «Otello», «Kreml saatı», «Fərhad və Şirin», «Almaz», «Maskarad» və başqa tamaşalara baxmağı arzu edənlərin sayı-hesabı yoxdur.

Ongünlükdə simfonik musiqidən ibarət konsertlər, simli kvartet, habelə istedadlı ifaçıları ilə ölkəmizin hüdudları xaricində də şöhrət qazanmış Azərbaycan Dövlət Əməkdar Mahnı və Rəqs Ansamblının çıxışları paytaxt tamaşaçılarının diqqət mərkəzində duracaqdır. Yeri gəlmişkən, demək lazımdır ki, moskvalılar bizim ansamblı çox gözəl tanıyır və sevirlər. Milli rəqslərimizin gözəl ifaçıları Roza Cəlilova, Əminə Dilbazi, Tutu Həmidova, Böyükağa



*Kosmonavt German Titov rəqs ansamblının kollektivi ilə*

Məmmədov kimi görkəmli ustalarımızın adı paytaxt tamaşaçılarına çoxdan tanışdır. Odur ki, moskvalılar bizim Əməkdar ansamblın yeni ongünlük proqramı ilə çox maraqlanırlar. Ansamblın iştirakçıları daha çox tamaşaçıya xidmət göstərmək üçün may ayının 25-də M.Qorki adına 12 mindən çox adam tutan Yaşıl Teatrda geniş konsert proqramı ilə çıxış edəcəkdir» *(«Ədəbiyyat və incəsənət» qəzeti, 15 may 1959-cu il. № 20 (2015)).*

22 may 1959-cu ildə Moskvada ədəbiyyat və incəsənət günlərinin başlanması münasibəti ilə Azərbaycan KP MK-nin Təbliğat-təşviqat şöbəsinin müdiri, unudulmaz Şıxəli Qurbanov «Mədəniyyətimizin baharı» adlı məqaləsində bu ongünlüyün əhəmiyyətindən söz açaraq yazır ki,



*«Nazlana-nazlana» rəqsi. Solist Roza Cəlilova*

səhnə ustalarımızın yüksək məharətini nümayiş etdirmək üçün ongünlük geniş imkan verəcəkdir. «Məlum olduğu üzrə keçən ongünlükdə bir neçə opera əsəri nümayiş etdirildiyi halda, indi əlavə 3 balet əsəri də göstəriləcək. M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı, S.Vurğun adına Rus Dram Teatrı, Azərbaycan Sirkinin və incəsənətin başqa sahələrinin kollektivi birinci dəfə Moskva ongünlüyündə çıxış edəcəkdir. Bu ongünlüyün əzəmət və vüsətini göstərmək üçün bircə faktı qeyd etmək lazım gəlir ki, birinci ongünlükdə iştirakçıların sayı 638 nəfər idisə, indi bu rəqəm iki dəfə artmışdır. Belə böyük kollektiv – əlvan bahar çiçəklərindən düzəlmiş nəhəng bir buket kimi Azərbaycanın müasir və zəngin mədəniyyətini təmsil edir. Burada Moskva ictimaiyyətinin yaxşı tanıdığı və dünyanın bir çox ölkələrində məşhur olan,

gözəl bəhrələri ilə hər il bizi sevindirən şaxlı-budaqlı ağaclar da, hələ öz ətrini və rəngini tamamilə üzə çıxara bilməmiş qönçələr də vardır» *(«Ədəbiyyat və incəsənət» qəzeti, 22 may 1959-cu il, № 21 (1016)).* (Yeri gəlmişkən, qəzetin elə həmin nömrəsində benqal xalq rəqsini ifa edən Roza Cəlilovanın şəkli dərc edilmişdir.)

Mən bu məqamda ongünlükdə iştirak edən çox sənətkarların adını çəkib yad edə bilərəm, ancaq oxucunun diqqətini bu yazının əsas qəhrəmanı olan Roza Cəlilovaya yönəltmək istəyirəm.

Birinci ongünlük dövründə xoreoqrafiya məktəbinin birinci sinfinə gedən Roza Cəlilova 1959-cu ildə keçirilən ongünlükdə mahnı və rəqs ansamblının istedadlı solisti kimi iştirak edirdi. O dövrdə ölkənin paytaxtında keçirilən ongünlüyün önəmli cəhəti ondaydı ki, respublikanın incəsənəti, ədəbiyyatı təbliğ olunur, sənətçilərimiz daha geniş arenada tanınırdılar. Bu ongünlüklər həm də bədii kollektivlərdə canlanmaya, öz repertuarları üzərində daha fəal çalışmağa təkan verirdi.

Roza Cəlilovanın şəxsi arxivində Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının 22 may 1959-cu ildə P.İ.Çaykovski zalında verəcəyi konsert proqramı var. Bu proqramdakı konsert nömrələri bizi 22 may gecəsinə, şənbə axşamına aparır. O gecədə rəqs edən, oxuyan sənətkarlar, rəqs və mahnı müəlliflərinin əksəriyyəti Tanrının dərgahına qovuşublar. O gecənin iştirakçısı və canlı şahidi Roza xanım isə öz ömrünün davamını yaşayır. Roza xanım o konsert gecəsinin həm birinci, həm də ikinci şöbələrində çıxış etmişdi. Birinci şöbədə «Tirmə şal» (musiqi tərtibatı Hacı Xanməmmədovundur) rəqsini xorun solisti Pənah Nəcəfovla, ikinci hissədə isə «Çadra rəqsi»ni (musiqisi



*«Tirmə şal» rəqsi. Roza Cəlilova və saz ifaçısı Pənah Nəcəfov. 1959*

Soltan Hacıbəyovundur) müğənni Səyyarə Hüseynovanın mahnı müşayiəti ilə oynamışdı.

«Tirmə şal» rəqsindən söz düşəndə Roza xanım Xalq artisti Əlibaba Abdullayevi minnətdarlıq hissi ilə yad etdi:

– O vaxtlar Əlibaba Abdullayev rayonlara gedirdi. Orada ən yaşlı qadınlardan, kişilərdən soruşurdu ki, qədimlərdə hansı rəqslər olub. Bir dəfə heç yadımdan çıxmaz, Əlibaba müəllim dedi ki, bu səfərlərin birində bir qoca arvad sandığından gəlinlik paltarını, tirmə şalını çıxardı, başına da bir su bardağı qoydu və başladı oynayıb-oxumağa:

*Dağlara şeh düşəndə,*
*Titrə, bənövşə, titrə.*

Biz bu mahnının əsasında qurduq «Tirmə şal»ı...

Hər bir rəqs quruluşunun özü bir tarixdi. Əlibaba Abdullayev «Tirmə şal»ı məhz Roza Cəlilova üçün qurmuşdu. Şalın eskizini isə məşhur cərrah Mustafa Topçuba-

şovun xanımı, Əməkdar incəsənət xadimi, rəssam Reyhan İbrahim qızı Topçubaşova* vermişdi. Roza xanım «Tirmə şal» rəqsində Azərbaycan qız-gəlininə xas bütün incəlikləri öz oyunu ilə nümayiş etdirmişdi. Əslində, «Tirmə şal» aşıq mahnısıdı, burda xorun, instrumental ifaçıların iştirakı ilə yanaşı, saza da yer verilmişdi. Xorun solisti Pənah Nəcəfov saz çalır, Roza Cəlilova oynayırdı. Bu quruluşda millilikla yanaşı, teatrallıq da vardı. Roza Cəlilova tirmə şalı birdən-birə başından çiyninə sürüşdürmürdü. Şalı tədricən, naz-qəmzə edə-edə üzündən götürürdü. Rəqqasə gözəl camalını tamaşaçılara dərhal göstərmirdi, onu intizarda saxlayaraq, ehtizaza gətirərək, tələsmədən, əvvəl qaşlarını, sonra gözlərini və nəhayətdə bütün sifətini açıb göstərirdi... və alqış qopurdu.

İndi budur, Roza Cəlilova aradan 56 il keçəndən sonra yenidən o gecəyə qayıdıb. Elə danışır ki, elə bil hər şey dünən baş verib:

– Doğrusu, alqışlara məndə qəribə reaksiya vardı. Oynayıb qurtaran kimi səhnədən sürətlə çıxırdım. İstəmirdim dayanım və mənim üçün əl çalsınlar. Təkrar qayıtmağa da ürək eləmirdim. Fikirləşirdim, birdən mən səhnəyə çıxanda alqışlar kəsilər. Bir dəfə Moskvada Azərbaycan günləri keçirilirdi. P.İ.Çaykovski adına konsert zalında çıxış edirdik. Əlibaba Ab-

---

* Əməkdar incəsənət xadimi (1943) Reyhan İbrahim qızı Topçubaşova 15 dekabr 1905-ci ildə Qubada anadan olmuşdur. Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir. Portret, məişət və natürmort janrlarında, eləcə də süjetli kompozisiyalar çəkmişdir. Reyhan xanım mahnı və rəqs ansamblı üçün geyim eskizləri də hazırlamışdır.

Məşhur cərrah Mustafa bəy Topçubaşovun həyat yoldaşı, cərrah, bəstəkar İbrahim Topçubaşovun anasıdır.

Reyhan Topçubaşova 5 mart 1970-ci ildə Bakıda vəfat etmişdir.

dullayevin quruluşunda Üzeyir Hacıbəylinin «Qaragöz» rəqsini oynadım. Rəqs qurtaran kimi salonda alqış qopdu. Özümü tez səhnə arxasına saldım. Bir də gördüm mərhum direktorumuz Soltan Hacıbəyov hövlnak içəri girdi: «Kimin uğurudur bu?» – deyə tələsik soruşdu. Dedilər: «Rozanın». «Ay qız, tez elə – dedi, – səhnəyə çıx!» O vaxt görkəmli musiqiçi, simfonik orkestrin dirijoru Veronika Dudarova Moskva qəzetlərinin birində belə yazmışdı: «O, eynən Şərq freskası (divarda sulu boya ilə nəm suvağa çəkilmiş rəsm əsəri, portret – *M.Ç.*) idi. Cana gəlib mirvari qollarını açaraq bizi əfsunladı, sonra isə yenidən yerinə qayıdıb şəklə döndü!»

Bir dəfə də Dzerjinski adına klubda hökumət konsertində çıxış edirdim. Rəhmətlik Şövkət xanım Ələkbərova da orada idi. Oynayıb qurtarandan sonra mənə yaxınlaşdı: «Roza, – dedi, – kişi olsaydım, qaçırardım səni».

Mərhum teatrşünas Cabir Səfərov Roza xanımın 60 illik yubileyi münasibətilə yazdığı «Rəqs ustası» adlı məqaləsində P.İ.Çaykovski salonunda keçən o konsert gecəsinin şahidi kimi söz açır: «Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənətinin ikinci ongünlüyündə P.İ.Çaykovski adına konsert salonunda Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının çıxışları yaxşı yadımdadır. Konsertlərin birində Roza Cəlilovanın dahi bəstəkarımız Üzeyir Hacıbəyovun «Qaragöz» mahnısının melodiyasını və «Tərəkəmə» xalq rəqsini ifa etməsi incəsənət ustalarımızın yaxın dostu, SSRİ Xalq artisti N.Oxlopkova xüsusilə xoş təsir bağışlamışdı. Söhbət əsnasında o, mənə dedi ki, Roza Cəlilova özünün incə və hərarətli oyunu ilə tamaşa salonunda necə də məharətlə bədii həyəcan oyadır. Mənim fikrimcə, bədii qiraət ustası şeir, müğənni isə mahnı oxuyanda ifa etdiyi bədii parçanı yaddaqalan təsirli bir səhnə obrazına çevirməyi bacarma-

lıdır. Roza Cəlilovanın da ifa etdiyi rəqslərin cəzbedici və füsunkarlığı rəqqasənin oynadığı hər hansı bir milli rəqsi xatirədə yaşadan bir səhnə obrazına çevirməyi bacarmaq məharətidir. Bu gözəl və istedadlı rəqqasənin yaratdığı iki rəqs oyunu mənə iki canlı səhnə obrazı təsiri bağışladı...» *(«Ədəbiyyat və incəsənət» qəzeti, 9 iyul 1980, № 23(2366).*

Aradan uzun illər keçməsinə baxmayaraq, P.İ.Çaykovski zalında verilən konsertin tamaşaçıları belə həmən gecənin təəssüratları ilə yaşayırdılar. Bir neçə il bundan qabaq Xalq artisti, tarzən Zamiq Əliyevin aparıcılığı ilə «Lider» televiziyasında «İncilər» verilişi nümayiş etdirilirdi. Verilişin növbəti qonağı Roza Cəlilova idi. Xeyli söhbətdən sonra canlı nümayiş etdirilən «İncilər» verilişinə zəng gəldi. Zərif səsli bir xanım idi zəng edən. Aparıcı:

Xahiş edirik özünüzü təqdim edin. Xanım:

– Mən opera müğənnisi Əli Zülalovun qızı Solmaz Zülalovayam*. Veriliş iştirakçıları bu zəngdən məmnun olduqlarını bildirdikdən sonra Solmaz xanım dedi:

«Zamiq müəllim, çox şadam ki, bu gün «İncilər» verilişinə gözəl rəqqasəmiz  Roza xanımı dəvət etmisiniz. Mənim 1959-cu il Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti günlərinin biri  ilə bağlı kiçik bir təəssüratım var, onu sizinlə bölüşmək istəyirəm... Mən həmin vaxt bir neçə azərbaycanlı ilə bir yerdə Moskvada aspiranturada oxuyurdum. O zaman bəstəkar Müslüm Maqomayevin oğlu Cəmaləddin Maqomayev bizi Azərbaycan nümayən-

---

* Solmaz Zülalova Moskvada görkəmli hüquqşünas-alim Boris Afanasyeviç Qaykinin rəhbərliyi ilə dissertasiya müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsini almışdı. O, bir müddət Ədliyyə Nazirliyinin Hüquq Kadrlarını Təkmilləşdirmə İnstitutunun rektoru, Azərbaycan Hüquqşünaslar İttifaqının sədri vəzifələrində çalışmışdır.

dəliyinə çağırıb dəvətnamə verdi ki, incəsənət ustalarımızın konsertinə gedək. Biz bu dəvətdən çox məmnun olmuşduq. Yaxşı yadımdadı, P.İ.Çaykovski zalındakı konsertdə Roza xanım oynayandan sonra məşhur balet ustası Maya Plisetskaya ayağa qalxıb dedi ki, bu gözəl qız Şərqin ulduzudur. Biz minnətdar olmalıyıq ki, Azərbaycanda Roza Cəlilova kimi təkrarsız adamlar var».

Nə yaxşı ki Roza xanım o zaman bu verilişin lent yazısını əldə edibdir. Yoxsa bu gün bu sətirləri artıq Allahın dərgahına qovuşmuş Solmaz xanımın dilindən eşitməzdik.

Göründüyü kimi, heç nə unudulmur, heç nə yaddan çıxmır. Zaman keçir, başa vurulmuş, yaşanmış illər bir kitab səhifəsi kimi vərəqlənir.

Diqqətəlayiq haldır ki, ongünlük dövründə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Cəfər Cəfərovun redaktorluğu ilə Roza Cəlilovanın səhnə fəaliyyətini əks etdirən buklet çap etdirmişdir. 15 may 1959-cu il tarixində Moskvada rus dilində 3000 tirajla çap edilən bu bukletdə rəqqasənin oynadığı «Bilmədim», «Tirmə şal», «Qaragöz», «Hind rəqsi» və «Tacik rəqsi»ndən müxtəlif fraqmentlər (16 şəkil) öz əksini tapmışdır. Həmçinin bukletdə Roza Cəlilovanın həyat və səhnə fəaliyyətindən, beynəlxalq festivallardakı uğurlu çıxışlarından bəhs edən kiçikhəcmli məqalə də dərc edilmişdir.

Orada deyilir: «Bu illər ərzində o xeyli inkişaf etmiş və respublikamızın istedadlı rəqqasələrindən birinə çevrilmişdir.

Bir rəqqasə kimi Roza Cəlilova nəinki respublikamızda, həmçinin onun hüdudlarından kənarda da məşhurdur. Onun sənəti ifasındakı plastikliyi və çevikliyi ilə fərqlənir.

Roza Cəlilovanın Vətənimizin və xarici ölkələrin konsert zallarındakı çıxışları daim böyük rəğbətlə qarşılanır» *(«Ap-*

*тист Театров Азербайджана», redaktor C.Cəfərov. 1959).*



*Hind rəqsi*

Azərbaycanın 1959-cu ildə keçirilən ikinci İncəsənət və Ədəbiyyat ongünlüyü də çox yaddaqalan və möhtəşəm keçmişdi. Ongünlükdə opera və balet, dram teatrlarının, filarmoniyanın böyük bir yaradıcı kollektivi, ədəbiyyatımızın təmsilçiləri iştirak edirdilər. Bu ongünlük Azərbaycan xalqının incəsənətinin, mədəniyyətinin, ədəbiyyatının geniş nümayişinin təntənəsiydi. Azərbaycan sənətçilərinin Moskvanın Böyük Teatr və P.İ.Çaykovski adına konsert salonlarındakı, ayrı-ayrı mədəniyyət ocaqlarındakı çıxışlarından çox unudulmaz görüntülər yadigar qalıb. Nə yaxşı ki əbədiləşmiş bu anlar yad edilərək hərdən mavi ekranlarda göstərilir və biz öz yaşanmış keçmişimizlə, dünyasını dəyişmiş ünlü sənətkarlarımızla bir daha canlı təmasda ola bilirik.

Bu ongünlükdən dərhal sonra incəsənət və ədəbiyyat sahəsində çalışan bir çox sənətkarlarımız fəxri adlara layiq görülmüş, orden və medallarla təltif olunmuşdular. İstedadlı rəqqasə Roza Cəlilova da bu təltif olunanların sırasındaydı. O, «Şöhrət» ordeni ilə təltif olunmuşdu.

Bir sənətkar kimi Rozanın xoşbəxtliyi onda idi ki, uğurlarından heç vaxt çaşmırdı. Onda özündən razılıq hissi, demək olar ki, yoxdu. Həmişə çalışırdı ki, sənətin incəliyinə varsın tamaşaçısına xoş ovqat bəxş etsin. «Roza Cəlilovanın rəqqasə kimi ən üstün cəhəti professional rəqslə folkloru məharətlə birləşdirməsindəydi. Lirikası, süjeti, bədən plastikası və kəpənək uçuşunu xatırladan zərif əl hərəkətləriylə rəqqasə hər bir rəqsində («Ağ çiçək», «Lalə», «Bənövşə», «Qəşəngi» və s.) mükəmməl, bitkin bir sənət əsəri yaradırdı *(B.Əlibəyli. «Sönməyən ulduzlar», B:, «XXI» YNE, 2009).* Bəzən səhnəyə çıxmaq ərəfəsində rəqqasənin rəfiqələri ona olan hislərini gizlətmirdilər.

– Roza, çox gözəl görünürsən, – deyirdilər.

Rozanın isə belə təriflərdən başı gicəllənməzdi:

– Qızlar, – deyirdi, – sizin gözləriniz məndə yox, tamaşaçılarda olsun. Görün, mən səhnəyə çıxanda necə baxırlar, üzlərində təbəssüm varmı? Rəqsimdən narazı qalmayıblar ki...

O, öz sənətinə həmişə məsuliyyətlə, tamaşaçılarına isə hörmət-ehtiramla yanaşırdı.

Əlbəttə, bu gün tarixə dönmüş o günlər ongünlük iştirakçılarının hər birinin taleyində heç də izsiz ötüşməmişdir. O günlər heç də təkcə ongünlük iştirakçılarının xatirələrində, yaddaşlarında yaşamayıb, həm də o dövrün qəzet-jurnal səhifələrində əbədiləşibdir.



*Lirik rəqs*

## RƏQSLƏRƏ QOVUŞMUŞ TALE

Şöhrətli bir rəqqasənin həyatından bəhs edən bu kitabı yazdıqca qulağıma zaman-zaman xalqımızın yaratdığı bir-birindən zərif, bir-birindən incə «Yallı», «Vağzalı-mirzəyi», «Qaytağı», «Tərəkəmə», «Uzundərə», «İnnabı», «Heyvagülü», «Qazağı», «Yüzbir», «Qıd-qıdı», «Turacı», «Naz eləmə», «Ənzəli», «Xalabacı» havalarının ritmləri gəldi. Bu oyun havalarında insan ovqatının min bir halını, lirik-psixoloji, igidlik-qəhrəmanlıq kimi rəngarəng çalarlarını gördüm. Rəqs havalarında xalqımızın psixologiyası, dünyagörüşü, dünyaduyumu, adət-ənənəsi özünü çox qabarıq göstərir. Bu sözsüz oyun havalarının hər birinin öz xarakteri var. Hər bir oyun havasında gözlə görünməyən «qəhrəmanı» görüb sözsüz «obrazını» yaratmaq rəqqasənin, rəqqasın fitri istedadından, fəhmindən, qabiliyyətindən asılıdır.

Dünyada elə bir xalq yoxdur ki, onun milli rəqsi olmasın. Bu rəqslər xalqın, millətin mənəvi-əxlaqi dünyasının güzgüsüdür. Elə bir insan yoxdur ki, toyda-bayramda qol götürüb oynamasın.

Hər kəs, necə deyərlər, sümüyünə düşən havaya oynayır. Ulularımız oyun havalarını psixoloq incəliyi ilə yaradıb: ağa-bəy havası da, sadə insanların zövqünü, ruhunu oxşayan havalar da. Əlbəttə, hamı eyni bir havaya oynaya bilməz. Rəqslərdə doğmalıq, mərhəmlik, həmrəylik cazibəsi vardır. Ona görə ki, heç bir toyu, el şənliyini, bayramları rəqssiz təsəvvür etmək mümkün deyildir.

Çünki rəqs havalarında səfərbəredici ruh hakimdir. Qədim musiqi alətlərində, xüsusən qarazurnada çalınan hər hansı bir oyun havası milli ruhun daşıyıcısı olan hər kəsi yerindən tərpədə bilər. Coşqunluq, fərəh hissi insan qəlbinə sirayət edər. Ona görə ki, rəqs havaları şadlığın, sevincin çarpan nəbzidir.

Professional rəqs ustalarımız isə öz misilsiz rəqsləri ilə bizə oyun havalarındakı əhvali-ruhiyyənin mənzərəsini daha qabarıq canlandırmaq qabiliyyətinə malikdirlər. Onlar hər kəsin zövqünü oxşayan gözəl, estetik cəhətdən məzmunlu, görümlü obrazlar yaradırlar. Bu rəqs obrazlarını yüksək peşəkarlıqla yaradanlardan, öz misilsiz ifaçılığı ilə xalqımızın yaddaşına həkk olunanların biri də Roza Cəlilovadır. Görkəmli rəqqasənin gəldiyi qənaətə görə, gözəl rəqs etmək üçün böyük ürəyin, musiqi duyumun, eşitmə qabiliyyətin olmalıdır. Rəqs sənətində bir neçə sənətin vəhdəti var. Sən gərək çalınan havanın ahəngini öz hərəkətlərinlə nümayiş etdirəsən, baxışların, əllərin «danışsın», xorun oxuduğu sözlərin mahiyyətinə varasan, onda sənin səhnədəki rəqsin rəssamın yaratdığı bir tabloya çevrilə bilər.

Doğrudan da, belədir. Roza Cəlilovanın ifa etdiyi rəqslərin hər biri öz dövrünün tamaşaçılarının yaddaşına həkk olunmuş, bir-birindən əlvan tablolardır. Bu rəqs tablolarının hər birinin öz adı var: «Bənövşə», «Qaragöz», «Tirmə şal», «İlk bahar», «Zərif gülüşlüm», «Ərəb rəqsi», «Çadra rəqsi», «Bala ceyran», «Hind rəqsi» və s.

Bəstəkar Fəridə Quliyeva Roza xanıma həsr etdiyi «Azərbaycanın gənc rəqqasəsi xaricdə» adlı məqaləsində onun sənətini yüksək qiymətləndirərək yazırdı: «Roza Cəlilova rəqsləri dərin daxili hiss və incəliklə ifa edir. Gənc

rəqqasənin daha obrazlı və daha təsirli ifa etdiyi hind rəqslərini xüsusilə qeyd etmək lazımdır. Bu rəqslərdə o, hind xalqlarına məxsus milli xüsusiyyətləri tamaşaçılara bacarıqla çatdıra bilir».

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı yaranmağıyla peşəkar rəqs ustalarımızın yaradıcılığına yeni çalarlar gətirmişdi. Belə ki, rəqqas və rəqqasələrimiz təkcə instrumental alətlərin deyil, həm də xorun müşayiəti ilə rəqs etməyə başladılar. Məhz bu ansambl yarandıqdan sonra mahnı ilə oyun havaları arasında üzvi bir vəhdət yaranmışdı. Bu işin də ilk təşəbbüsçüsü və yaradıcısı ölməz Üzeyir bəy Hacıbəyli olmuşdur. Onun Azərbaycan Dövlət Xoru üçün işlədiyi «Aman nənə», «Ay lolo», «Ləli», «Tello», «Ay bəri bax», «Qarabağ şikəstəsi», «Gedək gəzək bağçada» kimi xalq mahnılarının yeni bədii tərtibatı bəstəkarlarımız üçün bir örnək olmuşdur. Təsadüfi deyildir ki, bu ansamblın şöhrətlənməsində böyük əməyi olan Qılman Salahov məhz mahnı və rəqs ansamblı üçün «Ay gözəl», «Əlində sazın qurbanı», «Gəlmə» xalq mahnılarını, «Qəşəngi», «Turacı», «Lalə», «Qazağı» rəqs havalarını yenidən işləmiş, ansambl üçün «Nəlbəki», «Sevgilim», «Qaval» rəqslərini, «Könül verdim», «Bir dənəsən», «Dilbər» və s. rəqs-duetlərini bəstələmişdir.

Ansamblın çalğı alətləri üzrə bədii rəhbəri, dirijor Rəşid Əfəndiyev bu ansambl üçün «Küsmərəm səndən», «Təzə gəlin», «Sən deyən olsun» kimi mahnılar, «Bənövşə», «Gənclik», «Üç dost», «Sevinc», «Qaytağı», «Çobanlar» və s. rəqs havaları bəstələmişdir.

Mahnı və rəqs ansamblının repertuarında gökəmli bəstəkarlardan Soltan Hacıbəyovun, Tofiq Quliyevin, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Süleyman Ələsgə-



*Lalə rəqsi*

rovun, Hacı Xanməmmədovun, Ramiz Mirişlinin və başqa sənətkarların mahnıları da mühüm yer tuturdu. Bu bəstəkarların mahnıları mahnı və rəqs ansamblının spesifik xüsusiyyətinə uyğunlaşdırılırdı və bu mahnıların

səslənməsində həm xor, həm solo ifa, həm də rəqs qrupu harmonik şəkildə iştirak edirdi və bu gün də etməkdədir.

Həqiqətən, mahnı və rəqs ansamblı özünəməxsus bir kollektivdi. Təsadüfi deyildir ki, bu ansambl «Dədə Qorqud», «Azərbaycan toyu», «Bir bağçanın çiçəkləri» kimi möhtəşəm xoreoqrafik konsert-tamaşalarla çıxış etmişdir. «Azərbaycan toyu» xoreoqrafik konsert-tamaşada gəlini ilk dəfə Xalq artisti Leyla Bədirbəyli, sonra Ema Seyfi, daha sonra isə Roza Cəlilova oynamışdır. Bu xoreoqrafik tamaşada ansamblın bütün üzvləri iştirak edirdi. Roza Cəlilova sonralar verdiyi müsahibələrin birində «Azərbaycan toyu»ndan həm fəxarətlə, həm də milli rəqslərimizə biganəlikdən yana-yana söz açaraq deyir: «Azərbaycan toyu»nda gəlin rolunda məndən əvvəl Leyla Cavanşirova (məşhur aktrisa Leyla Bədirbəyli – *M.Ç.*), sonra Ema Seyfi oynadı. Vallah, iynə atsaydın, yerə düşməzdi. Xalq necə sevir bizim adətlərimizi. İşıqlar sönürdü, güllə atılırdı, pərdə, gərdəklər düzülürdü, zurnanın səsi ucalırdı... Zurna bizim şeypurumuz, zurna bizim xalqın səsidir. «Heyvagülü» tütəklə, «İnnabı» balabanla gedir. Hər rəqsin özünün musiqi aləti var idi. Mən indi balabanın səsini eşitmirəm. Bunlar mənə təsir edir. Anam rəhmətlik deyərdi, ay bala, bunların dərdi sənə qalıb? Deyərdim, ana, mən deməyim, sən demə... Qoy biz sağkən deyək, bəlkə, bir ağıllısı götürdü, o da məndən sonra dedi. Rəqs barədə təbliğat çox azdır. Bizim musiqi alətlərimiz çalınmalıdır. Haçana kimi ionika çalınacaq? Bizdə bir nəfər Əmirova Şəfiqə var idi, onun oynamağı gözümün qabağındadır. O xəstələndi, qulaqları kar oldu, amma alətin hərəkətlərinə baxmaqla necə oynayırdı?! Görün, necə rəqqasələrimiz var idi. Birinci rəqsim «Bənövşə» olub, bunu mənə Şəfiqə öyrətdi. Sonra çıxdı Tutu Həmi-

dova. Onun da rəqsləri onunla getdi *(«İmpuls» qəzeti, 11 aprel 2003).*



*Şəfiqə Əmirova*

«Azərbaycan toyu» Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ən uğurlu xoreoqrafik tamaşalarından biri idi. Bu xoreoqrafik tamaşaya olan tamaşaçı marağı dövri mətbuatda da öz əksini tapmışdır. T.Şahverdiyev soyadlı jurnalist «Bakı» axşam qəzetinin 12 dekabr 1959-cu il tarixli şənbə nömrəsində «Azərbaycan toyu» adlı məqaləsində tamaşanın gedişatını təsvir edərək yazır: «Dünən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Dövlət Mahnı və Rəqs Ansamblı «Azərbaycan toyu»nu yeni quruluşda göstərmişdir.

Filarmoniyaya gələnlər konsert salonunun milli şəkildə bəzənməsinə, xalçalar asılmasına, gur işıq yandırılmasına görə özlərini sanki toyda hiss edirdilər.

Budur, bir dəstə oğlan və qız yüyürərək səhnəyə çıxır. Onlar toyun başlanmasını xəbər verirlər. Sazandalar, bəylə gəlinin yaxın adamları tamaşa salonundan keçərək səhnəyə qalxırlar. Xalqımızın toy ənənəsinə xas olan əsl şənlik başlanır. Adamda elə təsəvvür yaranır ki, tamaşaçıların özləri də toy məclisində iştirak edirlər.

Səhnənin qabağında gəlin (respublikanın Əməkdar artisti Roza Cəlilova) dayanmışdır. Rəfiqələri onu dövrəyə

almışdır. Milli adətə görə yengə (Əməkdar artist Məryəm Babayeva) gəlini tərifləyir. Sonra bir dəstə gənc rəqs edir. Onların arasında özünün şənliyi və məzəliliyi ilə seçilən xəlifə rolunda Tələt Ağalarov bacarıqla çıxış edir.

Qonaqlar getdikcə çoxalır. Toya gələnlərə şirniyyat verilir. Respublikanın Xalq artisti Əminə Dilbazi səhnəyə çıxır. Onun yüksək məharətlə ifa etdiyi lirik rəqs tamaşaçıların alqışına səbəb olur. Bu rəqsin melodiyası getdikcə güclənir. Respublikanın Əməkdar artisti Böyükağa Məmmədov, Yuri Davıdov və başqaları sürətlə oynamağa başlayırlar.

Toya gələn qonaqlar mahnıya qulaq asmaq istəyirlər. Onların xahişi ilə Məmməd Salmanov mahnı oxuyur. Bizə elə gəlir ki, Məmməd Salmanovun ifa etdiyi mahnıdan sonra gənclərin dövrə vurub meyxana demələri lap yerinə düşür.

Nəhayət, gəlin rəqsə dəvət olunur. Bu zaman xanəndə bəyi, gəlini və onların qohumlarını tərif edir. Bəylə gəlin oynayırlar.

«Azərbaycan toyu» tamaşasının ssenarisi və quruluşu respublikanın Xalq artisti Soltan Dadaşovundur. Quruluşçu toyun Azərbaycan adət-ənənələri üzrə göstərilməsi, eyni zamanda tamaşanın daha maraqlı olmasında bütün kollektivin yaxından iştirak etməsi üçün çox çalışmış və öz məqsədinə nail olmuşdur.

Tamaşaçı filarmoniyadan çıxanda özünü əsl toydan çıxmış bir adam kimi hiss edir. «Hayıf ki, qurtardı gözəl toy» demək istəyir.

Ansamblın baş baletmeysteri Əlibaba Abdullayev, musiqi tərtibatçısı Rəşid Əfəndiyev və xormeysteri Hacıbaba Əliyev də tamaşanın uğurlu çıxması üçün böyük əmək sərf etmişlər.

Roza Cəlilova, Ramiz Məmmədov, Məryəm Babayeva, Tələt Ağalarov, Əminə Dilbazi, Tutu Həmidova və Böyükağa Məmmədov həmişə olduğu kimi, bu tamaşada da özlərinin məharəti ilə tamaşaçıları valeh edirlər.

Mahnı və rəqs ansamblının repertuarına möhkəm daxil olacaq «Azərbaycan toyu»nun bu cür uğur qazanmasında respublikanın Əməkdar incəsənət xadimi Qılman Salahovun əməyi xüsusilə qeyd edilməlidir».

Artıq mədəniyyət tariximizin qaynağına çevrilmiş bu məqalədə Gəlin – Roza Cəlilovanın və onun rəfiqələrinin, Qonaq – Əminə Dilbazinin, Xanəndə – Məmməd Salmanovun şəkilləri də verilmişdir.

***

O zaman rəqs gənc Roza Cəlilovanın sadəcə olaraq peşəsi, «çörək ağacı» deyildi. Rəqs onun həyatı, taleyi idi. Tanrının ona tale payı idi. Taledən isə qaçmaq olmazdı, doğrusu, heç qaçmaq fikri də yox idi. O, ona verilmiş bu taleyi sonacan yaşamaq fikrindəydi. Rəqsin ona gətirdiyi uğuru, şöhrəti məmnunluq hissi ilə qəbul etdiyi kimi, acılara, məhrumiyyətlərə də dözmək amacındaydı. Səbəbi də çox sadəydi, iç dünyasını rəqsdə tapırdı. Özünü, oynadığı rəqslərlə daha dəqiq, daha gözəl ifadə edə bilirdi, Vətənə, millətə, təbiətə, doğmalarına, hər kəsə, hər kəsə... sevgisini, məhəbbətini səhnədə oynadığı cürbəcür rəqsləriylə çatdırırdı. Rəqslərində gah su üstündə üzən yaşılbaş olurdu, gah göylə uçan durnaya, gah da qəflətən səhnədə peyda olmuş məlaikəyə çevrilirdi.

Bir də sənətkar o zaman böyük olur, xalq tərəfindən sevilir, ona ehtiram göstərilir ki, sənəti ilə şəxsiyyəti bir-birini tamamlasın. Roza Cəlilova bu baxımdan xoşbəxt



*Qurban Pirimov və Roza Cəlilova*

sənətkardı. Sənəti gözəl, özü gözəl, xasiyyəti mərdanə, sadə, səmimi, təvazökar, eyni zamanda qürurlu və kübar…

O, konsertdən sonra pərəstişkarlarından qaçan, tamaşalardan sonra mədəniyyət ocağını tərk edən gözütox, şöhrətdən uzaq bir rəqqasəydi. Sənət yoldaşları şəkil çəkdirəndə belə Roza xanım ortada mövqe tutmağa can atmazdı.

Roza Cəlilova səhnəyə yaraşan idi. Əsl Şərq gözəli, ucaboylu, yaraşıqlı, gözəl əndamlı mahir rəqqasə kimi tamaşaçıları ovsunlayırdı. Adı çəkiləndə alqış qopardı. Musiqinin sədaları altında səhnəyə çıxan kimi mənzərə dəyişirdi. Onun rəqsləri çəkilməmiş, amma yaddaşlara həkk olunmuş tabloya çevrilirdi. O gecənin tamaşaçısı Roza Cəlilovanın rəqsini, sirayətedici görkəmini, sifətindəki işıq dolu məsumluğunu unuda bilmirdi. Əlbəttə, fiziki gözəllik o zaman dəyərli olur ki, onun məzmunu olsun. Sənətkarın zahiri gözəlliyi o zaman tam və bütöv olur ki, sənəti də gözəl olsun. Bu baxımdan Roza Cəlilovanın həm özü, həm də sənəti gözəl idi. Və təsadüfi deyildir ki, Roza Cəlilova

deyərkən gözlərimiz önündə RƏQQAS obrazı canlanır. Qara Qarayev, Maestro Niyazi, Fikrət Əmirov, Şıxəli Qurbanov, Şəmsi Bədəlbəyli, Səid Rüstəmov, Azərbaycan KP MK-nin ideologiya üzrə katibi, teatrşünas Cəfər Cəfərov, keçmiş SSRİ rəhbəri N.S.Xruşşov və digər görkəmli insanlar böyük fəxrlə onun sənətini və gözəlliyini qiymətləndirirdilər.

**Kiçik bir xatirə.** Mən istəyirəm bu xatirəni Roza xanımın öz dilindən eşidəsiniz.

«1954-cü ildə Moskvada tarixi bir günü qeyd edirdilər. Konsertdən sonra Maestro Niyazi, Rəşid Behbudov, Fikrət Əmirov, Qəmər Almaszadə və bir sıra ünlü ziyalılarımız toplaşmışdıq. Kiçik bir məclis idi. N.S.Xruşşov da bu məclisdəydi. Bu məclis onun göstərişi ilə təşkil olunmuşdu. Əvvəl Rəşid Behbudov oxudu. Sonra mən oynadım. Rəhmətlik Qəmər Almaszadə də qalxıb mənə qoşuldu. Bizim rəqsimiz ölkə başçısı N.S.Xruşşovu ayağa qaldırdı. Bu bizim musiqimizin, sənətimizin qüdrətiydi. Siz deyin, belə anları unutmaq olarmı?»

Əlbəttə, unutmaq olmaz, Roza xanım! Bu, sizin yaşanmış həyatınızdı! Unudulmayacaq xatirədi. Nə yaxşı ki sizin həyatınız belə anlarla süslənib, danışmağa sözünüz, unudulmaz xatirələriniz var.

Xanəndələr, müğənnilər oxuduqları muğama, mahnıya yeni nəfəs, xırdalıqlar, melizmlər gətirdikləri kimi, rəqs ustalarımız da zaman-zaman el-obadan, folklorumuzdan zərrə-zərrə rəqs elementləri toplayıb, cilalayıb bir gül buketi kimi xalqa qaytarıblar. Roza Cəlilovanın xalq rəqsinə gətirdiyi lirik süjetlər, zərifdən zərif əl hərəkətləri, bədən plastikası xalq ruhuna, əxlaqına yabançı deyildi, əksinə, çox doğmaydı. O, hansı xalqın sənətkarı olduğunu heç

zaman unutmurdu. Roza xanım öz rəqsləri ilə səhnəmizin Ağ çiçəyi, Bənövşəsi, Laləsi, Qəşəngisi, Qaragözü, Tirmə şalı, Tərəkəməsi, Bala Ceyranı… olmağı bacarmışdı. Əks təqdirdə xalqımızın yaddaşında, rəqs ifaçılığı tarixində fəxri yer tuta bilməzdi. O, bütün varlığı ilə ifa etdiyi rəqslərdə xalq ruhunun daşıyıcısı idi.

Roza xanım bu gün bəzi rəqqasələrin bayağı, xalq adət-ənənəsinə yabançı rəqslərini görəndə dilxor olur, nostalji hislərlə yaşayır: «Pul qazanmaq xatirinə rəqslə məşğul olsan, bu sənət inkişaf edə bilməz – deyir. – Rəqs sənəti elədir ki, ona sevgi, qayğı ilə yanaşsan, pul özü gələcək. Bütün rəqslərimiz ölçülü-biçilidi. Rəqs sənəti ilə məşğul olanlar incəsənətin çox sahəsinə bələd olmalıdırlar. Çünki rəqqasə, rəqqas səhnədə hərəkətləri ilə sanki şəkil çəkir. Hər bir xalqın rəqsi həm də onun əxlaqını, estetik dünyasını əks etdirir. Azərbaycan rəqslərində caiz deyil ki, rəqqasə gözləri ilə tamaşaçıya baxsın, adətən, o, baxışlarını aşağı dikib rəqs etməlidir, fırlananda ayaqları belə görünməməlidir. Rəqslərimizdə klassik geyimlər də bir-birini tamamlamalıdır. Döşqabağı, bilərziklər, silsilə, bel-bağı, məxməri başmaqlar. Heyif ki, indi bunları görmürəm. Biz özümüzü tamaşaçıya yaxından göstərməzdik ki, konsert zamanı təqdim etdiyimiz kompozisiya ona yuxu kimi gəlsin».

Beləcə söz-söhbəti ancaq rəqsdəndi Roza xanımın. O, bu dünyaya Azərbaycan rəqsinin «gözü» ilə baxır. Çünki bu rəqs onu şöhrətləndirib, tarixə qovuşdurub. Bu illər ərzində səhnədə oynayan çox olub, amma hər oynayan Roza Cəlilova olmayıb!

Roza Cəlilova öz rəqsləri ilə tamaşaçılarını, pərəstişkarlarını heyrətləndirə bilirdi. Əlibaba Abdullayev məhz

onun üçün «Tirmə şal» rəqsini qurmuşdu. Bu rəqsin çətinliyi onda idi ki, saz havasıydı və sazın müşayiəti ilə oynanmalıydı. Sazla oynamaq və uğur qazanmaq elə də asan deyildi, amma Roza Cəlilova bunu bacarmışdı.

Onun sənətini dəyərləndirən, qayğı göstərən Soltan Hacıbəyov, Tofiq Quliyev, Maestro Niyazi, Şıxəli Qurbanov, Cəfər Cəfərov kimi şəxsiyyətlər vardı. Tacikistan Respublikasına qastrola getmək ərəfəsində Tacikistanın Xalq artisti Balamadzadə tacik rəqsi qurmuşdu və solo hissəsini də Roza xanıma tapşırmışdı. Onun bu solo ifaçılığını görüb fərəhlənən Maestro Niyazi fəxarət hissilə demişdi: «Roza – boq!»

Bir gün isə Tofiq Quliyev ona yaxınlaşıb:

– Roza, sənin ünvanına orden-medaldan artıq tərif deyiblər, – deyir.

Roza xanım da məmnunluqla gülümsəyib:

– Tofiq müəllim, kimdi məni tərifləyən?

– Tənqidçi, MK-nin katibi Cəfər Cəfərov. Cəfər müəllim dedi ki, on nəfər belə qızla Azərbaycan rəqsini dünyaya çıxartmaq olar.

Roza xanım dərhal cavab vermişdi:

– Mən tək deyiləm, bizim səhnəmizdə Əminə Dilbazi, Tutu Həmidova, Şəfiqə Əmirova, Nailə Mahmudova, Şərqiyə İsgəndərova, Xoşbəxt Məmmədova kimi rəqqasələr var.

Bax beləcə həmişə sənət dostlarına qayğı ilə yanaşar, onların haqqının tapdanmasına, unudulmasına yol verməzdi.

***

Uzun müddət bir kollektivdə işləyəndə o kollektivin hər bir üzvü sənin üçün əziz olur. Bu böyük ailənin – kollektivin



*Cahangir Cahangirov. «İlk bahar» rəqsindən*

içində hər cür hadisə baş verir. Narazılıq eləyən, razı qalan, işə girən, işdən gedən, inciyib-küsən, barışan, bağışlayan... Bütün bunlarsız həyat yoxdur. 80 nəfər insanın çalışdığı

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı spesifik xarakteri olan bir kollektiv idi.

1960-cı ilin əvvəllərində ansamblın bədii rəhbəri Qılman Salahov xəstəliyi ucbatından kollektivdən ayrıldı. Qılman Salahov düz iyirmi il mahnı və rəqs ansamblına rəhbərlik eləmişdi. Bu kollektivin uğurlarında onun danılmaz xidmətləri vardı. O, bu ansamblın spesifik xüsusiyyətlərini beş barmağı kimi bilən bir sənətkardı. Qılman Salahov kollektivin hər bir üzvünə sayğı ilə, məhəbbət və hörmətlə yanaşmağı bacaran, öz istedadı, təşkilatçılığı, mədəniyyəti və kübar davranışı ilə hər kəsin hörmətini qazanmış şəxsiyyət idi. Roza Cəlilovanın təbirincə desək, Qılman Salahov bu illər ərzində özünü kişi kimi aparmışdı.

Qılman Salahovdan sonra mahnı və rəqs ansamblına Xalq artisti, bəstəkar Cahangir Cahangirov bədii rəhbər seçildi. Bu ansambl Cahangir Cahangirov üçün də çox doğma idi. O, ilk dəfə filarmoniyada Üzeyir Hacıbəylinin yaratdığı Dövlət Xorunda xorun solisti kimi fəaliyyətə başlamışdı və sonralar özünün yazdığı kimi «ikinci tenorlar qrupunda oxumağa başlamışdı». 1943-cü ildə mahnı və rəqs ansamblının səhnələşdirdiyi «Dədə Qorqud»un ssenarisinə musiqini də məhz Cahangir Cahangirov yazmışdı. Təsadüfi deyildi ki, 1940-cı ildə Dövlət Mahnı və Rəqs Ansamblı yarananda Üzeyir bəyin təşəbbüsü ilə Cahangir Cahangirov xormeyster vəzifəsinə təyin olunmuşdu. Demək istəyirəm ki, mahnı və rəqs ansamblı mərhum bəstəkarımız üçün doğma kollektiv idi.

Ciddi məşqlər gedirdi. Keçmiş SSRİ məkanında mahnı və rəqs ansamblının qastrolda olmadığı respublika yoxdu. Doğma Respublikamıza gəldikdə isə, bu peşəkar kollek-

tivin və o cümlədən Roza Cəlilovanın çıxış etmədiyi şəhər və qəsəbə qalmamışdı.

Rozanın həyatında, yaradıcılığında hər şey qaydasında idi. Yeni quruluşlarda rəqs hazırlayır, ölkə daxilində və xarici ölkələrdə qastrol səfərlərində olurdu. Həyat yoldaşı da işdən icazə almaqla, bəzən də hər hansı bir bəhanə ilə çox vaxt onunla gedirdi. Ona həyan olurdu, onu qoruyurdu. Bir sözlə, az qala ölkə daxilində hər vaxt Roza xanımın yanındaydı. Təkcə xarici səfərlərə gedəndə xanımıyla gedə bilmirdi. Çünki Sovet hökumətinin vaxtında sərhədlər vətəndaşların üzünə bağlıydı.

1960-cı ildə mahnı və rəqs ansamblının bir qrup solisti Tunisə qastrol səfərinə getmişdi. Bu səfərə xor qrupu getməmişdi. Rəqs qrupundan isə on nəfər rəqqasə və mahir rəqqas Böyükağa Məmmədov, tarzən Həbib Bayramov, opera müğənnisi Firəngiz Əhmədova, filarmoniyanın



*Soldan: R.Cəlilova (2-ci), S.Qədimova, Ş.Ələkbərova, (?), Ə.Dilbazi, N.Mahmudova, A.Ramazanova və b.*

solistləri Şövkət Ələkbərova, Sara Qədimova və b. getmişdi. Təbii ki, bu səfərdə Roza xanım da iştirak edirdi.

Tunisdə verdikləri konsertlərin təsiri bu gün də onu tərk etməyib. Fərəh hissilə:

«Sara Qədimova, Şövkət Ələkbərova da bizimləydi, – deyir. – Sara xanım «Qatar» oxudu. Tunislilər 50 nəfərlik orkestr ilə səhnədə oturmuşdular. Hamısı Sara xanımın «Qatar»ına valeh olmuşdu. Sonra Şövkət xanım «Segah» oxudu. O qədər ürəkdən oxuyurdu ki, qabaqda oturan baş tarçalan ağlayırdı. Nəhayət, elan olundu ki, nənəsi azərbaycanlı olan, özü Bolqarıstanda yaşayan bir müğənni oxuyacaq. Çox gözəl yerişlə səhnəyə gələn bu qız çox kifir idi, amma elə oxudu ki, gözümüzdə huri-mələk oldu. Bax, bu, sənətin gözəlliyidi. Sənət böyük olanda bütün qüsurları yuyub aparır».

Bu uğurlu qastrol səfərindən sonra Roza xanımın günü filarmoniyada məşqlərdə, qonşu respublikalarda qastrollarda keçmişdi. Onun üçün fərəhli günlər idi. Müharibənin vurduğu yaralar sağalmış, bacı və qardaşları böyümüşdülər. Bacısı Azadə xanım indiki Bakı Dövlət Universitetinin tarix, qardaşı Saleh jurnalistika fakültəsini bitirmişdi, kiçik qardaşı Ramiz isə hüquq fakültəsinin tələbəsiydi. Anası Kübra xanım balalarına baxıb öz fərəhli günlərini yaşayırdı.

1963-cü il idi. İkinci dəfə ana olacaqdı. Həyat yoldaşı ilə bir-birinə isinişmişdilər. Roza xanım bir ər kimi həmişə ona hörmət bəsləyirdi. Həm ailəsini, həm də sənətini qoruyub saxlamaq istəyirdi. Ömür-gün yoldaşı da ailə başçısı kimi həmişə Rozanın qayğısına qalırdı. İsti avqust ayı idi. Hamı sərinləmək üçün özünə bir kölgə, daldalanacaq axtarırdı. Hərdən xəzri əsib istidən tıncıxmış insanların sinirlərini oxşayırdı. Avqustun 20-si idi. Roza



*Aslan Aslanov xanımı Azadə və*
*Roza Cəlilovanın oğlu Zahid ilə*

xanımın heç vaxt unutmayacağı 20 avqust günü! Heç bir xəstəliyi olmayan əri durduğu yerdəcə keçinmişdi. Xəbəri eşidəndə qəlbindən fəryad qopmuşdu. Çox böyük faciəydi və həmin gün qorxudan, həyəcandan qızı dünyaya gəlmişdi. Ərinə dünyaya gələn qızını görmək qismət olmamışdı. Roza xanım qızının adını Yeganə qoymuşdu. Səhnəmizin ağ çiçəyinin taleyi də belə gətirmişdi.

Sonralar avqust ayı onun yaddaşında əzizlərini, çox sevdiyi insanları əbədi itirdiyi GÜN kimi qalmışdı. Bu hal təsadüfmü, qanunauyğunluqmu idi, bilmirdi. Fikirləşirdi ki, bəlkə, bu da İlahinin onun taleyinə yazdığı bir rəmzdir. Bacısı Azadə (Lenay) xanım da avqustun 7-də anadan olmuşdu, 30-unda 50 yaşında dünyasını dəyişmişdi. Gözəllər gözəliydi Azadə xanım. Onun həyat yoldaşı şair, fəlsəfə elmləri doktoru, professor Aslan Aslanov Azadə



*Roza xanım qızı Yeganə ilə*

xanımdan cəmi dörd yaş böyük idi. Onların arasında həqiqi sevgi, böyük bir məhəbbət vardı. Hələ evlənməmişdən qabaq Azadə xanımın səhhəti korlanmışdı. Buna baxmayaraq, Aslan müəllim onunla evlənmişdi. Bu izdivac onun tərəfindən sevgiyə, məhəbbətə, əhdə vəfalılığın, kişi sözünün canlı, əbədiyaşar təcəssümüydü. Bilə-bilə ki, zaman-zaman sevdiyi bu qıza görə xəstəxanalar küncündə qalacaq, öz sevgisindən imtina etməmişdi, əksinə, nağıllarımızdakı əsl aşiqlər kimi fədakarlıq göstərmişdi. Aslan Aslanovun və Azadə xanımın məhəbbəti, bir-birinə sədaqəti hər kəsə örnək olası bir dəyərdir. Aslan Aslanov məhəbbətdə, sədaqətdə olduğu kimi, həyatda, cəmiyyətdə, elmdə, poeziyada da özünü təsdiq etmiş bir şəxsiyyət idi. O, «Səni düşünürəm», «Qızlar və bənövşə» kimi şeirlər və «Nəğməli günlərim», «İncəsənət və tərbiyə» kitablarının

müəllifi idi. Aslan Aslanov həm də Bayrondan, Aristoteldən, D.Didrodan, A.T.Tvardovskidən ana dilimizə tərcümələr etmişdi. Onu da xatırladaq ki, M.Ş.Vazehin «Nəğmələr»ini də almancadan dilimizə Aslan Aslanov çevirmişdi.

Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan EA-nın həqiqi üzvü, M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977), Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, Fəlsəfə və Hüquq İnstitutunun direktoru (1988–1995) Aslan Aslanov dəfələrlə beynəlxalq elmi konqreslərdə məruzələrlə çıxış etmişdi.

Aslan Aslanov həm də həssas qəlbli şair idi. Vaxtilə alim dostları ilə qədim Gəncəyə gedən Aslan Aslanov düzənlikdə göz işlədikcə uzanan laləlik görür. Maşını saxlatdırıb dostları ilə gözoxşayan laləliyi seyr edir və elə oradaca məşhur «Lalələr» şeirini yazır:

*Yazın əvvəlində, Gəncə çölündə,*
*Çıxıblar yenə də düzə lalələr,*
*Yağışdan islanmış yarpaqlarını*
*Səriblər çəmənə, düzə lalələr.*

Şeir mətbuatda dərc olunduqdan sonra unudulmaz bəstəkar Telman Hacıyev bu şeirə gözəl bir mahnı bəstələmişdi. Dahi müğənni Rəşid Behbudovun çox nikbin, şən ovqatda ifa etdiyi bu mahnı dillər əzbəri olmuşdu.

Yeri gəlmişkən, deyək ki, bu mahnını Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı da öz repertuarına salmışdı. «Lalələr» mahnı-rəqsinin ilk solo ifaçısı da Roza Cəlilova olmuşdu. O, 1967-ci ildə Türkiyədə qastrolda olanda da «Lalələr»i oynamışdı, mahnını Xalq artisti Gülağa Məmmədov ifa etmişdi. Bu mahnı-rəqsin ifası türklərə o

qədər xoş gəlmişdi ki, ifaçıları kəsilmək bilməyən alqışlarla üç dəfə səhnəyə qaytarmışdılar.

Roza xanımın şəxsiyyətinə həmişə ehtiram göstərdiyi Aslan Məmməd oğlu Aslanov 1 yanvar 1926-cı ildə Ağstafa şəhərində anadan olmuş, 1995-ci il avqust ayının 23-də dünyasını dəyişmişdi. Və beləcə avqust ayı Roza xanımın yaddaşında itki ayı kimi qalmışdı.

Roza xanım Aslan Aslanovu bir insan, bir qohum kimi heç vaxt unutmayıb, hər söhbətdə onu ehtiramla yad edir. Onun böyük alim, insan olmağından danışmaqdan yorulmur. Hətta qız nəvələrinə bacısının və Aslan müəllimin adlarını – Lenay və Aslanə qoymuşdur. Oğul nəvələrinə isə Aslan və Lalə («Lalələr» mahnısına görə) adlarını vermişdir.

***

Ərinin qəfil ölümü Roza xanımı bərk sarsıtmışdı. Qara geyinib yas saxlayırdı. Ona elə gəlirdi ki, bir də səhnəyə çıxa bilməyəcək, rəqs üçün qolları bir daha qalxmayacaq. Yeganə təsəllisi hələ dünyadan xəbərsiz beşikdə uyuyan balaca Yeganə idi. Ona layla çala-çala düşünürdü ki, bəs işləməsə, balasını nə ilə saxlayıb böyüdəcək?! Qəlbinə kədər çökmüşdü. Bəzən fikirləşirdi ki, bəlkə, rəqs sənətini özünə peşə seçməkdə düz eləməyib? Bəlkə, rəqqasə olmasaydı, əri belə qəflətən, durduğu yerdə ölməzdi? Düşünməkdən ürəyi sıxılırdı. Anası Kübra xanım ona təsəlli verirdi, sevinclə kədərin əkiz «qardaş» olduğunu söyləyirdi, onu yenidən həyata qayıtmağa səsləyirdi.

Otuz dörd yaşında, bir üzü qız, bir üzü gəlin ər itirmək, dul qalmaq elə də asan deyildi. Özün də olasan səhnə adamı, tanınan. Axı şöhrətin artdıqca böhtan atanların,

vedrə danqıldadanların da sayı artır. Əlac özündə güc tapıb şərin, qeybətin, «zurna» çalanların, vedrə danqıldadanların üstündən adlayıb keçmək idi. Keçməsən, keçə bilməsən, varlığını çeynəyə-çeynəyə səni özlərinə tay edəcəklər.

Beləcə gecə-gündüz ürəyi ilə danışırdı. Əlbəttə, onu yasdan çıxarmağa, yenidən səhnəyə qayıtmağa çağıran insanlar, sənət dostları, mahnı və rəqs ansamblının kollektivi vardı. O, tək deyildi, onu başa düşənlər, onunla həmrəy olanlar çoxdu.

Günlər, aylar gəlib keçdikcə Roza xanım belə qənaətə gəldi ki, tutalım, qara geyinib ömrü boyu əli qoynunda evin bir küncündə oturdu, dünyadan köçən istəkliləri diriləcəkmi? Bir də ki, rəqqasələr əgər səhnəyə ancaq dərdlərini dağıtmaqdan ötrü çıxsalar, dünyanı göz yaşı sel kimi tutar... Hərənin bir dərdi var. Beləcə, uzun fasilədən sonra televiziyada konsert proqramı ilə çıxış elədi, lakin qara paltarda... «Zərif gülüşlüm»ü oynamışdı. Səhnəmizin ağ çiçəyi mavi ekranda qara zanbağa bənzəyirdi. Əlbəttə, mavi ekran qarşısında oturan tamaşaçıların heç də hamısı Roza xanımın nə üçün qara paltarda rəqs etdiyini bilmirdi, lakin onun faciəsindən xəbərdar olanlar «Zərif gülüşlüm» rəqsinə göz yaşları içində baxmışdılar.

Doğrusu, dövri mətbuatı vərəqləyərkən adam 60–70-ci illərdə mahnı və rəqs ansamblının fəaliyyətinin genişliyindən həm heyrətlənir, həm də belə bir kollektivin olmasından qürur duyur. Dövri mətbuatda dərc olunan yazılardan da göründüyü kimi, mütəmadi respublikanın rayon və şəhərlərində, keçmiş SSRİ respublikalarında, xarici ölkələrə qastrollarda olan mahnı və rəqs ansamblı daim repertuarını zənginləşdirmək qayğısına qalmışdır. Ansamblın bədii

rəhbəri Cahangir Cahangirov «Bakı» axşam qəzetinin 23 oktyabr 1962-ci il tarixli nömrəsində «Bahar gəlir» sərlövhəli yazısında ansamblın yeni bir proqram üzərində işləyib başa çatdırmasından danışır:

«Novella formasında olan bu proqramın birinci hissəsi «Bahar gəlir» adlanır. Onun ssenarisi respublikanın Xalq artisti, rejissor Soltan Dadaşovun, rəqslərin quruluşu isə İlya Azbatovundur. Biz səhnə vasitələrindən geniş istifadə etməyə çalışmışıq. Bütün mahnı və rəqslərin melodiyaları təzədir. «Bahar gəlir» novellasının yaradıcıları böyük əmək sərf etmişlər. Mahnıların mətnini Zeynal Cabbarzadə, aparıcının sözlərini isə Tələt Əyyubov yazmışdır. Gənc rəssam Q.Elçinin verdiyi tərtibat və geyim eskizləri müvəffəqiyyətlidir. Konsertin birinci şöbəsi 50 dəqiqə çəkir. Proqramda maraqlı rəqslər vardır. Onları Əminə Dilbazi, Roza Cəlilova, Böyükağa Məmmədov, Nailə Mahmudova, Şərqiyə İsgəndərova, Ramiz Məmmədov və başqaları ifa edirlər.

Konsertin ikinci şöbəsinə Üzeyir Hacıbəyovun «Koroğlu» operasından igidlərin rəqsi, Hacı Xanməmmədovun «Kolxoz şənliyi» süitası, Xarəzm və osetin rəqsləri, habelə Səid Rüstəmovun, Tofiq Quliyevin, Şəfiqə Axundovanın yeni mahnıları daxil edilmişdir. Yeni proqramla biz SSRİ-nin bir sıra şəhərlərinə qastrola gedəcək, habelə Kreml teatrında çıxış edəcəyik».

Həmişə olduğu kimi, məqaləyə əyanilik gətirmək məqsədilə qəzetdə başqa rəqqasələrlə yanaşı, Roza Cəlilovanın da şəkli dərc olunmuşdur.

Xatırladaq ki, ansamblın Qazaxıstan, Tacikistan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və başqa respublikalara qastrollarında, ongünlüklərdə elə bir yerli qəzet



*Özbəkistanda Azərbaycan günləri.*
*Sağdan 2-ci şair İslam Səfərli, Roza Cəlilova, Elmira Rəhimova və b.*

yoxdur ki, orada Roza Cəlilovanın adı çəkilməsin, şəkli dərc olunmasın. Roza Cəlilovanın bir rəqqasə kimi şəkilləri Moskvada çıxan «Sovetskaya jenşina», Misirin «Əl-Əxbar» kimi jurnallarının üz qabığında dərc edilmişdir. Çünki hansı ölkədə olursa olsun, Roza Cəlilovanın rəqsləri bəyənilir və sevilirdi. Jurnalistləri, tamaşaçıları təkcə bu rəqqasənin səhnə gözəlliyi yox, həm də onun rəqslərinin estetik gözəlliyi cəlb edirdi.

Sovet İttifaqının digər respublikaları da Azərbaycana qastrola, yaxud ədəbiyyat və incəsənət günləri keçirməyə gələrdilər. Onların konsert gecələrində Roza xanım da iştirak edərdi. Bu da səbəbsiz deyildi, Roza Cəlilovanın repertuarında bir çox xalqların rəqsləri mühüm yer tuturdu. Məsələn, 25 oktyabr 1965-ci ildə Azərbaycan Dram Teatrında Tacikistan Respublikasının ədəbiyyat və incəsənət ongünlüyünün yekun konsertində Roza Cəlilova tacik musiqiçilərinin müşayiəti ilə «Tacik rəqsi»ni oynamışdır. Onun o gecədəki rəqsi fotoqrafın da gözündən yayınmamışdır *( bax: «Bakı» qəzeti, 26 oktyabr 1965-ci il).*

Bu cür faktların sayını kifayət qədər artıra bilərik. Bunun üçün rəqqasənin şəxsi arxivinə nəzər salmaq, orada saxlanan çoxlu sayda kəsilmiş qəzet parçalarına baxmaq kifayətdir. Bu qəzet parçaları təkcə ana dilimizdə deyil, rus, çin, qazax, ərəb, özbək, qırğız, türkmən, alman, alban dillərini də əhatə edir.

Budur, «Kommunist» qəzetinin 31 mart 1963-cü il nömrəsində SİTA-nın müxbiri N.Jeleznovun «Günəşli incəsənətin səlahiyyətli nümayəndələri» sərlövhəli məqaləsi dərc olunmuşdur. Yenə də Roza Cəlilovanın rəqs anındakı fotoşəkli məqaləni bəzəyir. Məqalədə oxuyuruq: «...Müğənnilərdən Elmira Rəhimovanın və Firəngiz Əh-



*Azərbaycan rəqs sənətinə böyük sayqı.*
*Kubanın Baş naziri Fidel Kastronun imzası*

mədovanın, rəqqaslardan Roza Cəlilovanın və Yuri Koplovun… çıxışları alqışlarla qarşılandı».

Maraqlananlar *«Veçernaya Moskva» (29 mart 1963),* «Bakinskiy raboçiy» *(16 oktyabr 1965),* «Kazaxstanskaya pravda» *(9 dekabr 1966)* və s. qəzet materiallarına baxa bilərlər.

Yeri gəlmişkən, bir fakta da toxunmaq istəyirəm. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində Roza Cəlilovanın şəxsi fondu ilə tanış olarkən, «Baku» və «Bakı» qəzetlərində dərc edilmiş «Fidel Kastro salam göndərir» sərlövhəli kiçik bir yazıya rast gəldim. Yazı ilə yanaşı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupunun şəkli üzərində Fidel Kastronun avtoqrafı vardı. Redaksiyanın hazırladığı bu kiçik yazını tarixi bir anın əks-sədası kimi burada olduğu kimi oxuculara təqdim edirəm: «Redaksiyamıza Moskvadan bir bağlama gəlmişdir. Bağla-

mada Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupunun şəkli və onun üzərində Fidel Kastronun avtoqrafı vardır. Bu avtoqrafın tarixçəsi çox sadədir. Bir neçə gün bundan əvvəl «Bakı» və «Baku» axşam qəzetlərinin müxbiri Moskvada olmuş və paytaxtın operetta teatrında Azərbaycan bəstəkarı Rauf Hacıyevin «Mənim məhəbbətim Kuba» tamaşasına baxmışdır. Həmin günlərdə Kuba xalqının qəhrəman oğlu Fidel Kastro SSRİ-də qonaq idi. Əlbəttə, teatrın kollektivi, birinci növbədə isə əsərin müəllifi Rauf Hacıyev kubalı qonağın həmin əsərə baxmasını çox arzulayırdılar.

SSRİ Xarici İşlər Nazirliyində bu barədə belə demişdilər:

– Fidel Kastro, yəqin ki, ilk tamaşada olacaqdır. Lakin nümayəndə heyətinin Sovet İttifaqının başqa şəhərlərinə getməsi buna mane ola bilər.

Sonradan məlum oldu ki, kubalı qonaq Kalinin və Kiyev şəhərlərinin zəhmətkeşlərinə qonaq getmişdir.

Müxbirimiz isə Moskvadan gələrkən Xarici İşlər Nazirliyinə getmiş və Bakı mənzərələrinin, habelə mahnı və rəqs ansamblının çıxışının bir neçə rəngli fotoşəklini Fidel Kastroya verməyi xahiş etmişdir.

...Budur, redaksiyamıza bağlama göndərilmişdir. Fotoşəkillər Fidel Kastroya təqdim edilmişdir. Kubanın Baş naziri həmin şəkillərin birinin üstündə avtoqraf qoymuş və bizə göndərmişdir.

Bu xatirə fotoşəkil Fidelin bizim günəşli respublikamıza göndərdiyi dostluq salamı kimi qiymətlidir» *(«Bakı» qəz. 01 fevral 1964).*



*«Bilmədim» rəqsi*

## MİSİRDƏ

Nə yaxşı ki mahnı və rəqs ansamblının bədii rəhbəri Xalq artisti Cahangir Cahangirov 1965-ci ilin aprel ayında Misirdə baş tutan bu qastrol barədə «Bakı» qəzetində «Azərbaycan musiqisi Nil sahillərində» sərlövhəli əhatəli bir məqalə yazıb çap etdirmişdir.

Əlli il bundan qabaq yazılmış bu məqalə bu gün bizim üçün çox əhəmiyyətlidir. Çünki bu məqalə xaricdə Azərbaycan mədəniyyətini, incəsənətini böyük uğurla nümayiş etdirən bir qastrol səfərinin qısa tarixçəsidir. Məhz buna görə də bu məqaləni qısa ixtisarla bu kitabda dərc etməyi lazım bildik. Çünki burada həm də rəqs və mahnı ansamblının fəaliyyətindən bəhs olunur:

«Qahirə şəhərinin təyyarə meydanında bizi sovet səfirliyinin nümayəndələri, BƏR-in musiqi ictimaiyyəti, mətbuat, radio və televiziyanın əməkdaşları çiçək dəstələri ilə qarşıladılar. Ansambl İbrahim Paşa küçəsindəki opera teatrında çıxış edəcəkdi. Bu teatr vaxtilə Süveyş kanalının açılışı münasibəti ilə istifadəyə verilmişdi.

Aprelin 4-də Qahirədə «Azərbaycan musiqisi gecələri» keçirilirdi. Həmin gün opera teatrına daha çox adam gəlmişdi. Konsert Qahirə Opera Teatrı simfonik orkestrinin çıxışı ilə başlandı. Orkestr SSRİ Xalq artisti Fikrət Əmirov və Azərbaycan SSR Əməkdar incəsənət xadimi Elmira Nəzirovanın ərəb mövzusu əsasında yazdıqları «Fortepiano ilə orkestr üçün konsert»i ifa etdi. Əsərin solo hissəsini bizdən əvvəl Qahirədə qastrol səfərinə gəlmiş

həmyerlimiz Elmira Nəzirova çalırdı. Fasilədən sonra qahirəlilər mahnı və rəqs ustalarının ifaçılıq qabiliyyəti ilə ilk dəfə tanış oldular. «Azərbaycan musiqisi gecələri» iki gün davam etdi.

Aprelin 6-dan etibarən biz opera teatrının səhnəsində konsertlər verməyə başladıq. Salon hər gün tamaşaçılarla dolu olurdu. Dinləyicilər Azərbaycanın mahnı və rəqslərini hərarətlə qarşılayır, ona böyük maraq göstərirdilər. Onlar «Bakı–Qahirə», «Buhenvald harayı» mahnılarını, «Füzuli» kantatasının ikinci hissəsini ərəb dilində dinləyirdilər. «Buhenvald harayı»nın solo hissəsini Ramiz Bağırov oxuyurdu. Mahnının hər kupleti qurtardıqdan sonra salondan alqış sədaları qopurdu. Böyük bəstəkar Üzeyir Hacıbəyovun «Koroğlu» operasından Çənlibel xoru, Fikrət Əmirovun «Gözəlim sənsən», «Reyhan» mahnıları, Səid Rüstəmovun «Azərbaycan süitası», Tofiq Quliyevin «Sən mənim, mən sənin» mahnısı, Hacı Xanməmmədovun «Neftçilər süitası» ərəblərin xoşuna gəlirdi. Azərbaycan SSR Xalq artisti Şövkət Ələkbərovanın, respublikanın Əməkdar artisti Məmməd Salmanovun və xanəndə Zeynəb Xanlarovanın çıxışları qızğın alqışlanırdı. Bu alqış ərəblərin Azərbaycan musiqisinə olan böyük məhəbbətinin ifadəsi idi.

Roza Cəlilovanın ifasında «Lirik rəqs», Nailə Mahmudova və Qorxmaz Qurbanovun birlikdə oynadığı «Naz eləmə» rəqs-dueti, Zemfira Camalovanın ifasında «Tərəkəmə» rəqsi dəfələrlə tamaşaçıların təkidi ilə təkrar olunurdu. Kamal Dadaşov, Əlikram Aslanov, Şərqiyə İsgəndərova, Tofiq İbrahimov və Afaq Tağızadə kimi rəqsçilər yüksək sənətkarlıq nümayiş etdirirdilər. Dinləyicilər fasilələrdə səhnə arxasına gəlir, ansamblın üzvləri ilə söhbət edir,



*Səid Rüstəmov. «Azərbaycan süitası»*



*Hacı Xanməmmədov. «Neftçilər süitası»*




*Onun rəqsləri jurnalların üz qabığını bəzəyərdi...*
*Cahangir Cahangirov. «İran rəqsi» süitası*

Azərbaycanın mahnı və rəqs ifaçılarının sənətkarlığından razı qaldıqlarını dönə-dönə bildirirdilər. Biz mətbuat, radio və televiziyanın əməkdaşlarının, habelə fotomüxbirlərin

əlindən, necə deyərlər, göz aça bilmirdik. «Əl-Əxbar», «Əl-Əhram» və başqa yerli qəzetlər bizimlə edilmiş söhbətləri və konsertdən aldıqları təəssüratları, müğənni və rəqsçilərimizin ifaçılıq sənətkarlığı haqqında maraqlı yazılarla bərabər, onların şəkillərini öz səhifələrində dərc edir, Azərbaycan mahnı və rəqs ustalarından çox şey öyrənmək lazım gəldiyini göstərirdilər.

Qahirədə 13 konsertimiz oldu. Sonuncu gün BƏR-in Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətində Qahirənin musiqi ictimaiyyəti ilə kollektivimizin görüşü keçirildi. Görüş gecəsini tanınmış bəstəkar Əziz Əlşoan açdı. O, Azərbaycanın musiqi mədəniyyəti, ansamblımızın üzvləri barədə ətraflı danışdı. Azərbaycanın bəstəkarlarının yaradıcılığı haqqında öz müsbət fikrini söylədi. Cavab nitqi ilə mən çıxış etdim, qonaqpərvərlik üçün onlara təşəkkürümü bildirdim.

Qəhrəman Port-Səid şəhərinə səfərimiz maraqlı keçdi. Biz oraya öz təşəbbüsümüzlə getdik. Gəlişimiz şəhərdə yeni tikilib istifadəyə verilən mədəniyyət sarayının açılışı ilə bir vaxta düşdü. Rəsmi hissədən sonra maraqlı proqramla Port-Səid zəhmətkeşləri qarşısında çıxış etdik. Konsertdən sonra şəhər valisi bizim şərəfimizə ziyafət verdi. Ziyafət zamanı vali Azərbaycan elçilərinə qəhrəman şəhərin qızıl medalını və bayrağının kiçik nüsxəsini təqdim etdi.

Bir neçə gündən sonra ansamblımız İsgəndəriyyə şəhərinə yola düşdü. Orada da həmyerlilərimizi hərarətlə qarşıladılar. İsgəndəriyyə şəhərində səkkiz konsert verdik» *(C.Cahangirov. «Azərbaycan musiqisi Nil sahillərində», «Bakı» qəzeti, 14 may 1965).*

***

Misirə qastrol səfərində mahnı və rəqs ansamblının bütün kollektivi iştirak edirdi. SSRİ-nin Misirdəki səfiri kollektivlə görüşüb belə bir təklif irəli sürmüşdü ki, yekun konsertdə qızlardan biri ərəb rəqsi oynasın. Buna görə də ansambldan doqquz rəqqasə ərəb rəqsini öyrənmək üçün seçilmişdi. Bu doqquz rəqqasədən biri də Roza Cəlilova idi. Hər gün müəyyən bir vaxtda qızlar Qahirədə yerli orkestr ilə məşq edirdilər. Ərəb adətincə rəqs etdiyin musiqini kəsmək olmaz, gərək musiqi bitənə qədər oynayasan. Samirə adlı məşhur rəqs quruluşçusu uzun müddət onlarla məşq etmişdi. Yekun konsertdə qızlardan səkkizi səhnəyə çıxmağa cəsarət etmədi. Roza Cəlilova yekun konsertində tamaşaçıların qarşısına ərəb rəqsi ilə çıxmışdı. Onun rəqsini yerli orkestr və bir nəfər ərəb müğənnisi müşayiət edirdi. Rəqsin quruluşu belə verilmişdi ki, əvvəl



*Misir Respublikasının paytaxtı Qahirə şəhərində*

səhnəyə qızlar, sonra isə o çıxacaqdı. Qəflətən vəziyyət dəyişmişdi, qızlar səhnəyə çıxmağa, sadəcə, cəsarət etməmişdilər. Səhnədə dayanmadan yarım saat oynamaq elə də asan deyildi. Musiqi çalındı və Roza Cəlilova dərhal səhnəyə atıldı. O həm özünün, həm də səkkiz qızın əvəzinə oynamalıydı. Ərəblər musiqiyə qarşı çox tələbkar idilər. Roza Cəlilova oynaya-oynaya həm də nigarançılıq içindəydi. Ərəblər onun rəqsini necə qarşılayacaqlar? İlə bərabər yarım saat keçdi, rəqs bitdi, Roza Cəlilova gurultulu alqışlar altında səhnəni tərk etdi. Səhnə arxasında onu doğma kollektivi gözləyirdi. Hər kəs onun bu uğurundan sevinir, qürur duyurdu. Axı Roza Cəlilova burada Azərbaycan xalqını, onun milli rəqsini təmsil edirdi.

Roza xanımın rəqsi ərəblərin çox xoşuna gəlmişdi. Hətta altı ay Misirdə qalarsa, ərəb rəqslərini ona öyrədə biləcəklərini söyləmişdilər. Lakin bu təklifə nə Roza Cəlilova, nə də ansamblın bədii rəhbəri Cahangir Cahangirov razılıq vermişdi. Roza Cəlilova harda olursa-olsun, Vətəni üçün, övladları üçün darıxırdı.



*«Yaylıq» rəqsi*

## RƏQSƏ ÜRƏK QOYMAQ  LAZIMDIR

Başlığa çıxartdığım bu fikir Roza xanıma məxsusdu. Verdiyi müsahibələrdə sevdiyi peşəsindən həmişə qürurla danışıb: «Rəqs mənim həyatımdı. Həyatımın ən cazibədar, gözəl anlarının 55 ilini bu sənətə qurban vermişəmsə, deməli, o mənim canımdı, bütün varlığımdı. Mənə tamaşaçı məhəbbəti, şan-şöhrət, ən başlıcası isə mənəvi zənginlik bəxş edən sənətimə minnətdaram» *(«Rəqs sənətinin vurğunu», «İki sahil» qəzeti, 15 aprel 2004-cü il).*

Doğrudan da, o oynadığı rəqslərə ürəyini verib, sadəcə, oynamaq xatirinə oynamayıb. Səhnəyə hərarət, məlahət, estetik gözəllik gətirib və bütün rəqslərində Şərq qadını, azərbaycanlı olduğunu bir an belə olsun unutmayıb. Keçmişinə, milli adət-ənənəyə arxa çevirməyib, müasirliyi, dəbi ifa etdiyi rəqsin estetik gözəlliyində, məzmun və kompozisiya bitkinliyinin tamlığında görüb, həmişə də bu cəhətə sadiq qalıb. Bu görkəmli rəqs ustasının bacarıq və imkanlarını görən bəstəkarlarımız məhz onun üçün mahnı-rəqslər bəstələyib.

Bəstəkar Cahangir Cahangirov mahnı və rəqs ansamblının bədii rəhbəri olarkən «Azərbaycan süitası», «İran rəqsi» süitası, «Zərif gülüşlüm» və «İlk bahar» mahnılarının əsasında rəqs quruluşu verilmişdi və ilk ifaçısı da Roza Cəlilova olmuşdu. Bu yerdə xəyalınıza qanad verin və dinləyin. Budur, xorun solisti Salman Məmmədov mahnının solo hissəsini oxuyub:

*Söylə, ey sevgilim,*
*Sən tək yar hanı?*
*Zülfündən tel düzüb*
*Çaldım kamanı.*

*Xor:*
*Ülkər baxışına,*
*Xoş yerişinə,*
*Zərif gülüşünə*
*Verrəm dünyanı.*

Siz bu sözlərin, bu musiqinin sədaları altında zərif-zərif süzən, öz rəqsi ilə «ülkər baxışlı» bir gözəlin obrazını yaradan Roza Cəlilovanı xəyalınızda canlandırıb, onun tamaşaçısına çevrilə bilirsinizmi? Görürsünüzmü onun



*Cahangir Cahangirov. «Zərif gülüşlüm».*
*Rəqqasə Roza Cəlilova çəkiliş zamanı*

rəqsi səslə, sözlə, musiqiylə necə vəhdətdədi, necə həmahəngdir!

Bütün bunlar Roza xanımın səhnədə yaratdığı rəqs tablolarıdır. Bu, havada çırpınan əllərin, zərifdən zərif bədənin, dümdüz ayaqların, gözəl çöhrədəki danışan ifadələrin, mənalı baxışların kətan üzərində yox, səhnədə, tamaşaçılar qarşısında yaratdığı tablolardır. Budur, işıqları sönmüş salon, xorun səsi, Roza Cəlilovanın «İlk bahar» rəqsi illərin arxasından səhər-səhər günəş üfüqdə görünən sayaq mənim yaddaşımın dolaylarından çıxaraq gözlərim önündə dayanır. «İlk bahar» sədaları altında Şərq gözəli Roza Cəlilova oynayır:

*İlk bahar gəldi, gəldi,*
*Durnalar gəldi, gəldi.*
*Təkcə sən gəlib çıxmadın,*
*Harda qalmısan?*



*«Yaylıq» rəqsi*

***

Roza Cəlilova 1965-ci ildə Misirdən qayıtdıqdan sonra mahnı və rəqs ansamblının rəqs qrupuna rəhbər təyin edildi. Bu təyinatla onun həm bir rəqqasə, həm də təşkilatçı kimi yaradıcılıq imkanları daha da genişlənmişdi. Misir Ərəb Respublikasından sonra mahnı və rəqs ansamblı Kanadada (1967), Türkiyədə (1967), Çexoslovakiyada (1973) keçirilən Azərbaycan mədəniyyəti günlərində milli musiqimizi ləyaqətlə, yüksək peşəkarlıqla nümayiş etdirmişdi. Bu səfərlərdə Roza xanım ansamblda yalnız rəqs qrupunun rəhbəri olmaqla işini bitmiş hesab etmirdi, həm də bir rəqqasə kimi öz ifaçılıq məharətini nümayiş etdirirdi.

Roza xanım rəqs qrupuna başçılıq edəndən sonra özü də rəqs quruluşu verməyə təşəbbüs göstərdi. Bir dəfə fi-



*Səid Rüstəmov. «Azərbaycan süitası». May, 1965-ci il*

larmoniyada Xalq artisti Şövkət Ələkbərovanın orkestrlə «Ağ çiçək» mahnısını məşq etdiyini gördü. Orkestri istedadlı musiqiçi, bəstəkar, aranjemançı, dirijor Rafiq Babayev (1936–1994) idarə edirdi. Sözləri Nəbi Xəzrinin, musiqisi Emin Sabitoğlunun olan mahnının melodiyası Roza xanımın ruhunu oxşamışdı. Qərara gəlmişdi ki, «Ağ çiçək» mahnısı əsasında rəqs qursun. Bu mahnıda həm rəqs, həm də xor üçün, xorun solisti üçün «meydan» vardı.

Roza Cəlilova çox keçmədi «Ağ çiçək» əsasında rəqs qurdu. Bu quruluşda üç rəqqasə iştirak edirdi: Roza Cəlilova, Nailə Mahmudova və Afaq Məlikova. Bu rəqsdə sözün, musiqinin və rəqsin harmoniyasında tamaşaçının gözləri qarşısında böyük bir mənzərə açılırdı.

*Səhər çağı… Göy meşədən*
*Dərdik səni, ağ çiçək!*
*Bəyaz-bəyaz varaqlara*
*Sərdik səni, ağ çiçək.*

***Nəqərat:***
*Birdən-birə ağ əllərdə*
*Təzələşdin, ağ çiçək!*
*Ağ əllərdə elə bil ki,*
*Ağ atəşdin, ağ çiçək!*
*Çiçək, çiçək, ağ çiçəyim,*
*Ömrümə bəzək, ağ çiçəyim!*

***

…Xəyalən ağ donda «Ağ çiçək» rəqsinə oynayan gözəlləri seyr etdikdən sonra belə qənaətə gəldim ki, bu yerdə önəmli bir məsələyə də toxunam.

Ataların gözəl bir məsəli var, deyir, «Gözəllik ondur, doqquzu dondu». Heç kəs gözəlliyə biganə deyil. Əgər beləsi varsa, zövqsüz, mənəvi dünyası kasad olan birisidi. Səhnə isə həm də gözəllik deməkdir. Necə deyərlər, tamaşaçı səni əvvəlcə geyiminə, davranışına görə qəbul edib, sonra səni ifaçılıq məharətinə görə yola salır. Alqışın çoxluğu, istiliyi isə sənin bir ifaçı kimi qələbəndi.

Hər bir yeni rəqs quruluşu özünə xas da geyim tələb edir. Təbii ki, bu paltarların tikilməsini mahnı və rəqs ansamblının rəhbərliyi həyata keçirirdi. Lakin Roza Cəlilova heç vaxt bununla kifayətlənməzdi. Çox zaman maaşını təzə-təzə səhnə paltarları tikdirməyə sərf edərdi. Xarici ölkələrdə qastrollarda olanda «rolları» üçün müxtəlif rəngdə, çeşiddə parçalar seçib alardı. Kanadada olanda onun diqqətini qızıl sapla işlənmiş bir cüt çarıq cəlb etmişdi. O, dərhal bu bahalı çarığı almışdı. Çünki oynadığı rəqslərdən birində ayaq hərəkətləri kifayət qədər çoxdu. İstəyirdi ki, Kanadadan aldığı bu çarıq oynayarkən tamaşaçının gözlərini oxşasın, ona estetik zövq bəxş etsin. O, bir rəqqasə kimi bütün bu incəliklərə xüsusi diqqət yetirirdi.

***

Sənətkar o zaman sevilir və hamı tərəfindən qeyd-şərtsiz qəbul olunur ki, sənətində kamil olduğu kimi, həm də bütöv şəxsiyyət olsun. Mərd, təvazökar.

Roza Cəlilova səhnədə olduğu müddətdə heç zaman özünü irəli verməzdi. Əlbəttə, xalqın gözü tərəzidir. Kənardan baxanlar, illərlə səni müşahidə edənlər bir gün səni görür və qiymətləndirir.

Roza xanım sənət taleyindən heç vaxt narazı olmamışdı. Çağırıb deyirdilər ki, Roza xanım, filan yerə gedəcəksən, istərsənmi?

– Sağ olun, gedərəm.

– Roza xanım, sənə mükafat var.

– Təşəkkür edirəm.

– Moskvadan sənə mükafat gəlib.

– Çox sağ olsunlar.

Onun səhnə həyatı bax belə hörmət-izzətlə keçmişdi.

Amma Roza xanım həm də yeri gələndə sözünü deyən, fikrini bildirən sənətkardı. Haqqı nahaqa verməzdi. Dar günün dostuydu. Bəzən sənət yoldaşlarına qarşı edilən haqsızlığa dözməz, Mərkəzi Komitəyə belə gedib yoldaşlarının müdafiəsinə qalxardı.

İdeoloji katib:

– Roza xanım, sənin müdafiə etdiyin adamlara ehtiyacın var? – deyə soruşardı.

– Xeyr, yoxdur.

– Bəs nə üçün müdafiə edirsən?

– Gəncliyimdə əlimdən tutublar, yol göstəriblər. İndi onların pisikdirilməsinə dözə bilmirəm. Axı onlar sənətkardılar, ömürləri boyu xalqa xidmət ediblər...

Katibin üz-gözü nurlanırdı:

– Sağ ol, qızım. Başqa bir qulluğun?

Beləcə mərd bir insan kimi tanıyırdılar Roza xanımı. Onun mərdliyi təkcə birgə çalışdığı adamlara qarşı olmamışdı. Mərd gərək hər yerdə, hər bir şəraitdə mərd olsun.

**HAŞİYƏ:** Roza xanım növbəti qastroldan qayıdanda gecə yarıydı. Beşmərtəbəli binanın dördüncü mərtəbəsinə qalxanda qonşu mənzillərdə sükut hakim idi. Şəhər yuxuya dalmışdı. Roza xanım çantasından açarı çıxarıb qapısını açmaq istəyəndə qapının açıq olduğunu gördü və çox



*Roza xanımın qardaşı Saleh*
*xanımı Sima və oğlu İsmayılla*

təəccübləndi. İçəri girib dəhlizin işığını yandıranda qardaşı Salehlə rastlaşdı. Təəccübünü gizlədə bilmədi:

– Saleh, sən burada neyləyirsən? – soruşdu.

Saleh qapını oğruların açdığını, bəzi şeylər götürdüklərini söylədi. Məlum oldu ki, qonşular duyuq düşərək hay-küy salmış, oğrular aradan çıxsa da, özləri ilə Roza

xanımın çox sevdiyi çarıqlarını, qızıl suyuna çəkilmiş qaşıq dəstini, brilyant qaşlı saatını aparıblar. Milis hadisə yerinə gəlib baxış keçirib, qonşuları çağıraraq hadisənin motivini təsvir edən akt tərtib edib. Bu akta qol çəkənlərdən biri də Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadov, digəri isə Roza xanımgillə üzbəüz qonşu olan Xalq rəssamı Əzim Əzimzadənin arvadı Səriyyə xanım olub. Əzim Əzimzadənin yaşadığı mənzil muzeyə çevriləndən sonra onun ailəsinə burada mənzil vermişdilər. Sən demə, Səriyyə xanım təsadüfən xaricdə qastrolda olan Roza Cəlilovanın qapısının azacıq açıq olduğunu görür, içəri girib rəqqasəni məzəmmət eləmək istəyirmiş ki, gəldiyini niyə ona bildirməyib. O, içəri girmək istəyəndə beşinci mərtəbədə dayanmış tanımadığı bir kişi: – Bacı, ora girmə, qayıt evinə, – deyib. Səriyyə xanım evinə qayıdıb və telefonla qonşuları işdən xəbərdar edib. Hay-küy düşüb.

Oğrular Roza xanımın səhnə paltarlarını yığdıqları bağlamanı dəhlizdə qoyub qaçırlar. İki il axtarışda olan bu oğrular bu hadisədən bir gün sonra tutularaq həbs edilirlər. Bir müddət sonra oğruların məhkəməsi olur, lakin Roza xanım bu məhkəməyə gəlmir. Üçüncü dəfə ona göndəriş göndərilir ki, hökmən məhkəməyə gəlib şahidlik etsin.

Məhkəməyə gələn Roza xanım dəmir barmaqlıqlar arxasında oturmuş oğrulardan birinin çox arıq, çəlimsiz, on yeddi yaşında bir oğlan olduğunu görür və bundan sarsılır. Məhkəmənin sədri üzünü Roza xanıma tutub soruşur.

– Niyə məhkəməyə gəlmirsiniz?

Roza xanım:

– Yaxşı ki, gəldim. Mən şahidlik etmək istəmirəm. Hər şeyi bu on yeddi yaşlı gəncə bağışlayıram.

Məhkəmədə Roza xanımın tutduğu mövqeyə görə etiraz edənlər olsa da, o, fikrindən dönmür. Bu məhbusların dördü azərbaycanlı, biri isə rus idi. Roza xanımın yadında onların üçünün – Atobbanın, Oqtayın, bir də Menşikovun adları qalıb.

Roza xanımı «qorotdelə» çağırırlar ki, ona məxsus olan əşyalarını götürsün. Oqtay Roza xanımın gümüş qaşıqlarını evində qaldığı qadına bağışlayıbmış. Qaşıqlarını tanısa da, qadın inad edir ki, qaşıqlar onundur. Roza xanım bütün bunlara göz yumur:

– Sizdən heç nə istəmirəm, təkcə çarıqlarımı özümə qaytarın, – deyir.

– Çarığı neynirsən?

– Geyinib səhnədə rəqs edirəm. Kanadadan gətirmişəm. Yadigardı.

Beləcə qızıl sapla bəzədilmiş çarığı Roza xanıma qaytarırlar. Məhbuslara iş kəsilir.

Aradan xeyli müddət keçəndən sonra oğrulardan biri – bir gözdən mayıf olan Oqtaydan Roza xanıma peşmançılıq məktubu gəlir. O, Roza xanımdan onu bağışlamasını xahiş edir. Roza xanım evini yaran Oqtaya məktub yazmasa da, 21 noyabr 1972-ci ildə Arxangelskdən ona göndərilmiş etiraf dolu məktubu bu günə qədər saxlayıbdır. İbrətamiz bir hadisə olduğu üçün həmin məktubu kiçik ixtisarla burada dərc edirik:

*«Salam, hörmətli Roza, icazə verin, öncə sizə sağlamlıq və uzun ömür arzulayım. İkincisi, yazdığım məktubun yaratdığı narahatlığa görə sizdən üzr istəyirəm. Onsuz da öz varlığımla sizə böyük üzüntülər yaşatmışam. Həyatınıza*

*xəbərdarlıq etmədən və icazə almadan daxil olmuşam. Mən təsəvvür etməzdim ki, siz bu qədər sadə və gözəl insansınız... Və boynuma alıram ki, mən sizin evinizi təsadüfi qarət etməmişəm. Məni sizin evə yönəldən olub. Və yalnız məhkəmədən sonra anladım ki, məni bu işə təhrik edən insanın məqsədi sizdən qisas almaq olub. Yəqin ki, sizin uğurlarınızı gözü götürməyib. Çünki siz ondan da gözəlsiniz və yəqin ki, daha çox sevilirsiniz. Çünki o, sizə hədsiz nifrət bəsləyir və bu nifrət sizi tanımadığım halda məni də bu işə sürüklədi. Çünki hadisəni törətdiyim anda məqsədim yalnız qənimət əldə etmək deyil, həm də cəza vermək idi. Bu məktubda hər şeyi olduğu kimi yazıram və düşünürəm ki, siz açıqürəkliliyimdən mənə qarşı silah kimi istifadə etməyəcəksiniz. Sizə yazmağa məni nə vadar etdi? Cavab verirəm: sizdən heç nə istəmirəm. Sadəcə, yazmaq istədim. Son vaxtlar sizin haqqınızda çox düşünürəm. Bir jurnal səhifəsindən əldə etdiyim şəklinizi göz bəbəyi kimi qoruyub saxlamışam. Şəklinizə baxır və düşünürəm: gör nə qədər insana sevinc və səadət bəxş edirsiniz. Öz sənətiniz, gözəlliyiniz və əsrarəngizliyinizlə. Məgər mən insan deyiləm? Mən gözəllik və incəsənət nə olduğunu anlamıram? Qarşımdakı bu qüsursuz gözəlliyə biganəyəm? Yox! Yox! Və yenə də Yox! Bəs onda sizi incitməyə məni nə vadar edib? Pis alışqanlıq? Yox! Ehtiyac? O da yox. Bunu başa düşmək üçün, əziz Roza, siz mənim keçmişimə səyahət etməlisiniz.*

*Mən oğru doğulmamışam. İlk oğurluğumu 17 yaşımda etmişəm. Orta məktəbi əla qiymətlərlə bitirmişdim. Uğurla*




*«Sovetskaya jenşina» jurnalı. 1971, №7*

*imtahan verib ali məktəbə qəbul oldum. Tələbələr arasında hər zaman əldə etdiyim uğurlarla sevilirdim. Onlar məndən qorxurdular. Hansılardan ki, indi mən qorxuram. O zaman düşünmürdüm ki, mənim uğurum müvəqqətidir.*

*Mən oğurluqla təhsili çox ustalıqla bir arada tuta bilirdim. Könül bağlamış olduğum iş məni get-gedə bataqlığa doğru çəkirdi. Mən endikcə enir, üzü rəzalətə doğru gedirdim. Və günlərin bir günü mən ələ keçdim. Mənə oxunulan ilk hökm cəmi-cümlətanı «15 il» oldu, sonra yenə, yenə və yenə… 6 dəfə azadlıqdan məhrum edildim və üst-üstə 50 il iş aldım. 50 ilin hardasa 20 ilini məhbəsdə keçirdim. Mənim isə cəmi 35 yaşım var.*

*Anam yaşayır… Atam isə mənim sonuncu məhkəməmdən sonra həyatdan köçdü. Bacım və qardaşım ailəlidirlər. Mən onlara məktub yazmağı lazım bilmirəm. Özüm isə ailə qurmamışam. Buna, sadəcə, vaxtım olmayıb. Sevmişəm? Bəli! Lap çoxdan. Sevgimin qarşılığını da almışdım. Amma indi o qız başqasının həyat yoldaşıdır və mən onu günahlandırmıram. Onunla 18 ildən sonra qarşılaşdım. Mənə yazığı gəldi. Amma mən bu mərhəməti qəbul edə bilməzdim. Həyatımda başqa qadınlar da olub. Özü də bir yox, bir neçə. Azadlıqda olduğum zaman kəsiyində mən məhəbbət satın almaqla məşğul olmuşam. Bəli, Roza, təəccüblənmə. Bəli, mən bu məhəbbəti küçə qadınlarından deyil, ləyaqəti ilə seçilənlərdən satın almışam… Eləsinə də rast gəlməmişəm ki, əlçatmaz olsun.*

*Amma indi… Roza, mənim sevimli, əziz zərərçəkmişim! Mən səni ABŞ prezidentinin kreslosu qədər əlçatmaz hesab edirəm. Düşünürəm ki, sənin hörmətini qazanmaq üçün yalnız Allah olmaq lazımdır.*

*Niyə vaxtını alıb, başını ağrıdıram? Səndən nə istəyirəm? Əvvəlcə evini qarət edib, sonra rəğbətmi qazanmaq?*

*Mən çoxdan sənə xəyalımda yalvarıram. Sənə – biliklə, öz istedadı ilə dünya şöhrəti qazanmış sadə Azərbaycan qadınına. Kaş mənə səninlə şəxsən görüşmək səadəti nəsib olaydı. Sənin gözəl və xeyirxah çöhrənə baxmaq səadəti. Və sənin tərəfindən oğru kimi deyil, ləyaqətli insan kimi qarşılanmaq sevinci.*

*Əziz Roza! Mən özüm-özümə dəhşətli cəza vermiş biriyəm. Aylardır sənə məktub yazmağı düşünən biri... Nəhayət, qərar verdim, cazibə qüvvəsi mənim bütün qorxularıma qalib gəldi. Yalvarıram sənə, Roza, mənə məktub yaz. Nə istəyirsən yaz, istəyirsən söy, təhqir elə. Mənə kömək et! Həyatda yerimi tapmağa kömək et! Yorulmuşam. Yaşadığım həyat deyil, cəhənnəmdir. Tədricən və əzablı məhvə aparan yol. Heç vaxt heç kimlə məktublaşmamışam. Qadınlarla əlalxüsus. Mənə dost və bacı ol. Bil və inan, oğru da əsl insan ola bilər. Mənə mənəvi təsəlli lazımdır. Səninlə yazışma bunun öhdəsindən gələr. Əgər insan çətindədirsə, düşünürəm ona əl uzatmağa dəyər. İnsanı doğru yola qaytarmaq və xilas etmək xeyirxahlıqdır.*

*Roza, əzizim, məni bağışlaya bilərsənmi? Bütün günahlarıma rəğmən. Ömrümün sonunadək sənə minnətdar olaram. Bəlkə də, bunu etmək səninçün çətin deyil. Əvəzində isə mənə bir dünya bağışlamış olarsan. Yeni, arzuolunan və xoşbəxt dünya.*

*Cavab gözləyirəm. Nə vaxtsa hakimin hökmünü gözlədiyim kimi. Əfv fərmanını gözlədiyim qəlb çırpıntılarıyla.*

**Sənə dərin hörmətlə Oqtay»**



Oqtay Roza xanımdan bir də onu xahiş etmişdi ki, onun məktubunu heç kəsə oxumağa verməsin. Bu məktub Roza xanıma nə qədər təsir etsə də, Oqtaya cavab məktubu yazmamışdı. Ona görə yox ki, onun evini qarət etmişdi, xeyr, sadəcə o zaman ehtiyat etmişdi. Çox qəribədir ki, Roza xanım bu gün, yaşının bu çağında Oqtaya məktub yazmadığının, ona köməklik göstərməməsinin peşmançılığını çəkir.

***

Roza Cəlilova 1965-ci ildən 1974-cü ilə kimi mahnı və rəqs ansamblının rəqs qrupuna rəhbərlik edib. Roza

Cəlilova səhnəyə professional hazırlığı ilə qədəm qoyan ilk rəqqasələrdən idi. Roza Cəlilovanın belə bir vəzifəni icra etməsinə tam haqqı vardı. Ona bu haqqı fitri istedadıyla yanaşı, xoreoqrafiya məktəbindən əxz etdiyi professional hazırlıq da verirdi. Roza xanım rəqs qrupunun rəhbəri işlədiyi on ilə yaxın müddətdə çox iş görüb.

Rəqs sənətinin çox amansız qanunu var: 20 il səhnədə ola bilərsən. Roza xanım isə qırx yaşına kimi, düz 25 il öz gözəl, bənzərsiz rəqslərini oynamışdı. Sonuncu hökumət konsertində «İran rəqsi»ni ifa etmişdi. Buna baxmayaraq, doğma kollektivdən ayrılmamışdı, rəqs qrupunun rəhbəri kimi fəaliyyətə başlamışdı. Bu dövrdə mahnı və rəqs ansamblı Kanadada, Türkiyədə, Çexoslovakiyada və başqa ölkələrdə qastrolda olmuşdu.

Mahnı və rəqs ansamblı sevilən bir kollektiv idi. O zamana kimi Cənubi Qafqaz respublikalarından heç bir bədii kollektivə rəsmi Əməkdar kollektiv adı verilməmişdi. Ancaq mahnı və rəqs ansamblı bu ada layiq görülmüşdü. Ansamblın tərkibində çox istedadlı rəqqaslar, rəqqasələr, musiqi ifaçıları, xor qrupu vardı. Bir çox görkəmli sənətkarlar – Şövkət Ələkbərova, Rübabə Muradova, Gülağa Məmmədov ilk qədəmlərini bu ansamblda atmış, burdan pərvazlanmışdılar. Bu ansambla Qılman Salahov, Səid Rüstəmov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Vasif Adıgözəlov kimi adlı-sanlı peşəkar insanlar rəhbərlik etmişdilər.

Roza Cəlilova 1974-cü ildə çox sevdiyi, ömrünün ən gözəl illərini bağışladığı mahnı və rəqs ansamblından ayrılası oldu.

***

1983-cü ildən Moskvadan Roza xanıma xəbər gəldi ki, İraqa getməlisən. Roza xanım bu təklifə etiraz etmədi. Ondan qabaq İraqa xoreoqrafiya məktəbində dərs demək üçün Qəmər Almaszadə getmişdi.

Roza xanım deyilən vaxtda İraqın paytaxtına getdi və orada yaşayıb işləməyə başladı. Ancaq o, burada bir ildən az qaldı. Çünki vəziyyət çox pis idi. İranla müharibə gedirdi. Tez-tez güllə səsləri eşidilirdi, sığınacağa enməyə məcbur olurdular. Bu vəziyyətdə uzun müddət yaşayıb işləmək olmazdı. Buna görə də bir gecə Roza xanımgili vətənə yola saldılar.

Bağdaddan qayıtdıqdan sonra Maestro Niyazi mahnı və rəqs ansamblında ona kömək etməsini xahiş edir. Roza xanım onun sözünü yerə salmır. Çox qısa bir vaxtda «Hind» və «Muleyli» rəqslərinə quruluş verir. Bu quruluşlarda xora az yer verilmişdi. Niyazi on altı saz düzəltdirmişdi. «Muleyli» rəqsində 16 qızın rəqsi nəzərdə tutulmuşdu. Ancaq Fransaya qastrola gedəndə Roza xanım vəziyyəti nəzərə alıb onların sayını on üçə endirmişdi. Niyazi bu işə çox ciddi yanaşırdı. Göstəriş vermişdi ki, yeni quruluşlara uyğun paltar tikdirilsin. Sumağı rəngdə paltarlar tikilmişdi. Niyazi istəyirdi ki, «Muleyli»ni orkestrləşdirsin. Niyazi Roza xanıma deyirdi ki, ansambla rəhbər sən olacaqsan... Təəssüf ki, bu söhbətdən üç gün sonra Maestro Niyazi dünyasını dəyişmişdi *(20 avqust 1912–2 avqust 1984).*



*«Şeir və musiqi kimi rəqsin də öz «dili» və ahəngi var. Bunu mən öz milli rəqslərimizi xarici ölkələrin konsert salonlarında ifa edərkən daha gözəl hiss edib duydum».*



## ELMİ-METODİK MƏRKƏZDƏ

Roza Cəlilova iyirmi beş il çalışdığı mahnı və rəqs ansamblından ayrılsa da, rəqsdən, rəqs dünyasından heç vaxt ayrılmadı. Yaşanmış günlərinin, demək olar ki, hamısı rəqslə, səhnəylə, qastrol səfərləriylə bağlı idi.

Roza xanım ansambldan çıxdıqdan sonra onu Mədəniyyət Nazirliyinin elmi-metodik mərkəzinə metodist vəzifəsinə götürdülər. O zaman metodik mərkəzin rəhbəri Teymur Süleymanov idi. Bir gün Teymur Süleymanov Roza xanıma təklif etdi ki, Azərbaycanın rayonlarına baş çəkək. O çağlarda rayonlarda müxtəlif tədbirlər, məhsul bayramları keçirilirdi. Roza xanımgilin ilk səfəri Salyana oldu. Gördü ki, rayonlarda özfəaliyyət dərnəklərinə biganəlik var. Əlbəttə, o, belə acınacaqlı vəziyyətlə 1973-cü ildən tanış idi. Və o zaman rayonların birində olanda bəlli olmuşdu ki, dərnəyin adı var, üzvləri isə yoxdur. İndi Salyanda da vəziyyət beləydi. Lakin Roza xanım ruhdan düşmədi, rayon rəhbərliyininköməkliyi ilə rəqsə maraq göstərən fəal qızları rəqsə cəlb edə bildi. Qızların hamısını bir yerə toplayandan sonra onlara dedi:

– Qızlar, hökm deyil ki, siz rəqqasə olasınız. Amma istərdim ki, siz gözəl rəqs etməyi bacarasınız. Onsuz da toyda, şənlikdə rəqs edirsiniz. Amma baxır necə oynayırsınız. Mən istəyirəm ki, rəqsinizdə nəciblik, incəlik olsun.

Əlbəttə, professional rəqqasənin özfəaliyyətlə işləməsi çox çətin idi. Hövsələsini basaraq gərək ilk öncə rəqsin əlifbasını onlara öyrədəydi.

Əslində, rəqs hər bir insanın ömrü boyu yol yoldaşıdır. Axı bilirik-bilmirik, bacarırıq-bacarmırıq toyda-şənlikdə bir-birimizi rəqsə dəvət edirik. Roza xanım da istəyirdi ki, azərbaycanlı qızlar-oğlanlar gözəl rəqs etməyi bacarsınlar. Axı rəqs həm də gözəlliyin, igidliyin, cəsurluğun rəmzidir. Çoxsaylı rəqs havalarımızda daim dəyişən, haldan-hala düşən ovqatımızın min bir qatı var. Roza xanım o dövrdə yorulub-usanmadan Azərbaycanın rayonlarını gəzib dolaşırdı. O, bir-birinin ardınca Masallıda, Lənkəranda, Şamaxıda, Cəbrayılda... rəqs dərnəkləri yaratmışdı. Roza xanım bu rəqs dərnəklərini, ansamblları yaratmaqla işini heç də bitmiş hesab etmirdi. Onların konsertlərini təşkil edib, bacarıqlarını nümayiş etdirirdi, həvəsləndirirdi.

Roza Cəlilovanın yaratdığı rəqs ansambllarından «Halay»ın, «Yallı»nın və «Gülüstan»ın şöhrəti respublikamızın sərhədini belə aşmışdı. Onun rayonlarımızda göstərdiyi bu cəfakeşliyi qədirbilən insanlar heç vaxt unutmurdular. 4 iyul 1999-cu ildə Masallı Rayon İcra Hakimiyyətinin başçısı T.Yəhyayevin 70 illik yubileyi münasibəti ilə Roza Cəlilovaya ünvanladığı məktub həm də rəqqasənin rayonlarda gördüyü səmərəli işləri işıqlandırmaq baxımından maraq doğurur. Başçı yazır:

*«Azərbaycan Respublikasının Əməkdar artisti*
*Roza xanım Cəlilovaya*

*Hörmətli Roza xanım!*

*Sizi – Böyük sənətkarı, incəsənətimizin parlaq ulduzunu, xalqımızın sevimli qızını, səmimi, mehriban insanı ad gününüz və əmək fəaliyyətinizin 50 illiyi münasibəti ilə səmimi-qəlbdən təbrik edirik. Siz mədəniyyət tariximizdə özünəməxsus yer tutan incəsənət fədaisisiniz.*

*Fərəhlənirik ki, bu gün də əla formadasınız. Yüksək professionallıqla istedadınızı, bacarığınızı, enerjinizi gənclərə verir, parlaq işıq kimi ətrafa saçılırsınız. İndi dünyanın hər yerindən şagirdlərinizin sorağı gəlir. Sizinlə ünsiyyətdə olmaq bizim üçün həmişə xoşdur. Qayğıkeş, vətənpərvər, Prezidentimiz Heydər Əliyevi ürəkdən istəyən insan kimi Sizi bağrıma basıram. Sizinlə əməkdaşlıq etməyə həmişə şadıq. Sizin köməyinizlə Masallıda da rəqsə maraq artır, çoxlu gənclərimiz bu qədim sənətə meyil göstərirlər. Əminik ki, Sizinlə xoş ünsiyyət və əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.*

*Mədəniyyətimizin inkişafında çoxillik əməyinizə görə Sizə Masallı «Qələbə» fondunun mükafatı olaraq «Masallı» xalçasını hədiyyə edirik. Masallılıların bu hədiyyəsini qəbul etməyinizi rica edir, Sizə möhkəm cansağlığı, könül xoşluğu, rəqs sənətinin inkişafında yeni uğurlar arzulayırıq. Sizi Masallıda gözləyirik.*

*Sənətinizin böyük pərəstişkarı olan masallılılar adından səmimi hörmətlə*

**T.Yəhyayev»**

Roza Cəlilova həyatı boyunca bu cür təbrik məktubları, açıqcalar çox almışdır. Bütün bunların hamısı onun öz zəhmətinin bəhrəsiydi. Onun arxivində çoxlu sayda fəxri fərmanlar, yazılı təşəkkürlər var. Onu vaxtilə hamilik etdiyi hərbi hissənin komandirləri də fəxri fərmanlarla mükafatlandırmışdır. Daşkənddən ikiqat dünya festivalının və beynəlxalq müsabiqənin laureatı, hərbi ansamblın balet ustası Əziz Əzimov soyadlı bir əsgər Roza Cəlilovaya məktub yazaraq öz şəkil və tərcümeyi-halını hərbi hissəyə göndərməsini xahiş edirdi. Hərbi hissədə yaratdığı «Dünya ulduzları»

mərkəzində dünya şöhrətli rəqs ustaları Plisetskaya, Ulyanova, Esambayev, Jan Joze, Lol Kolç, Nərgiz Xumara və başqaları ilə yanaşı, Roza xanımın da portretini qoymaq istəyini yazırdı. Çünki onu dünya şöhrətli rəqqasların sırasında görürdü. Bütün bunlar təsadüfi deyildi. Roza Cəlilova, hətta Mədəniyyət naziri E.Furtsevanın imzası ilə 1967-ci il 20 oktyabr tarixdə «Əla işinə görə» döş nişanına layiq görülmüşdü.

***

1983-cü ildə Şərurda «Yallı» ansamblında çalışmışdı. Onu və bəstəkar Ramiz Mirişlini Şərura Elmi-Metodik Mərkəz göndərmişdi. Ramiz Mirişli ansambla bədii rəhbər təyin olunmuşdu. Roza xanım isə rəqs qrupuna rəhbərlik edirdi. Bir-birinə qarşılıqlı etimadları vardı.

Naxçıvan Muxtar Respublikasında «Yallı» rəqsinin növü çoxdur və bu rəqsin gözəl ifaçıları vardı. Çətinlik burasında idi ki, Roza xanım ansamblın üzvlərinə digər milli rəqslərimizi də öyrətməliydi. Ömrü boyu «Yallı» rəqs edən gənclərə başqa rəqsləri öyrətmək elə də asan deyildi. Bu işə xeyli əmək sərf eləsə də, sonda nəticəsi uğurlu oldu. Roza Cəlilovanın səyi nəticəsində «Yallı» rəqs ansamblı dövlət tədbirlərində belə dəfələrlə çıxış etdi. Artıq «Yallı» rəqs ansamblı respublikada peşəkar kollektiv kimi tanınırdı. Hətta Ramiz Mirişlinin və Roza Cəlilovanın təşəbbüsü ilə «Yallı» ansamblı Polşaya qastrola getmişdi. O zaman gənc müğənni olan Alim Qasımovun da ilk səfəri Roza xanımgilnən olmuşdu. Kollektiv Polşadan böyük təəssüratla qayıtmışdı. «Yallı» ansamblı medalla təltif olunmuşdu.

Roza xanım yaratdığı ansamblların hər birinə can yandırırdı. «Yallı»nı Polşaya apardığı kimi, Masallının «Halay»ını da İraqa, Türkiyəyə aparmışdı.

***

1988-ci il hadisələri respublikaya bir gərginlik gətirmişdi. Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı etdikləri mitinqlərə qarşı Bakıda da Azadlıq meydanında hər gün mitinqlər olurdu. Belə bir gərginliyə baxmayaraq, Roza Cəlilova 1989-cu ildə Mədəniyyət Nazirliyinin Elmi-Metodik Mərkəzinin xalq yaradıcılığı şöbəsinin təşəbbüsü ilə «Gülüstan» folklor rəqs ansamblını yaratdı. Bu kollektivdə olan qızların hamısı ali savadlıydı və heç biri peşəkar rəqqasə deyildi. Amma Roza Cəlilovanın peşəkarlığı, mədəni rəftarı, sirayətedici aurası, öyrətmək metodu tezliklə öz bəhrəsini verdi.

1990-cı ilin dekabrında Qaziantep şəhər bələdiyyə idarəsinin dəvəti ilə «Gülüstan» folklor rəqs ansamblı «Qurtuluş şənlikləri» adlı bayram tədbirlərində iştirak etdi. Tədbirin bu cür adlandırılması heç də təsadüfi deyildi. Qaziantep Türkiyənin cənubunda, Suriya ilə sərhəddə yerləşir. Bu şəhər 1922-ci ilə qədər Antep adlanırdı. Hər il böyüklüyünə görə Türkiyənin yeddinci şəhəri olan Qaziantepin fransız qəsbkarlarından geri alınması günü bayram edilir. «Gülüstan» ansamblıyla yanaşı, müğənnilərdən Rauf Adıgözəlov, İdris Mehdiyev, Rafiq Əliyev və Kəmalə Rəhimli də Qaziantep şəhərinin istiqlaliyyətinin 69-cu ildönümündə iştirak etmişdilər. 22–25 dekabr günlərində baş tutan bu tədbirdə «Gülüstan» folklor rəqs ansamblının xüsusi yeri vardı. Ansamblın repertuarına milli xalq oyunları, rəqsləri ilə yanaşı, Roza xanımın quruluşlarında «Salam Azərbaycan» süitası, «Qavalla rəqs», «Səməni», «Muleyli», «Cəmilə» rəqsləri daxil edilmişdi. Ansamblın çıxışları çox böyük anşlaqla keçmişdi.



*«Gülüstan» folklor rəqs ansamblı*
*ABŞ-da*

Yekun konsertində bütün tamaşaçılar ayağa qalxıb «Gülüstan»ı və digər musiqiçilərimizi alqışlamışdılar.

«Gülüstan» folklor rəqs ansamblıyla bağlı daha bir uğurlu qastrol barədə də burada söz açmaq istərdik. 1990-cı ilin may ayında respublikamızda keçirilən «Xarıbülbül» folklor festivalında amerikalı musiqi bilicisi Romi Törner də «Krup Krik Klocerc» ansamblı ilə iştirak edirdi. Roza xanım və onun rəhbərlik etdiyi «Gülüstan» folklor ansamblı «Xarıbülbül» II Beynəlxalq Musiqi festivalında yaxından iştirakına görə o zaman Mədəniyyət Nazirliyinin 3 avqust 1990-cı il il tarixli qərarı ilə Diploma layiq görülmüşdü.

Bu festivalda iştirak edən «Gülüstan» ansamblının çıxışları amerikalı musiqiçinin çox xoşuna gəlmişdi. Romi Törner «Gülüstan» ansamblını 1991-ci ildə ABŞ-ın Florida ştatının Sarasota şəhərində keçiriləcək I Beynəlxalq Folklor festivalına dəvət etmişdi. Məhz bu dəvətdən sonra Roza



*«Gülüstan» folklor rəqs ansamblı Amerikanın Florida ştatının Sarasota şəhərində. 1991-ci il*

Cəlilova bütün gücünü səfərbər edib kollektivin repertuarını daha da zənginləşdirmişdi. Festival üçün «Salam, Azərbaycan» süitası, «Yallı», «Süleymani», «Şənlik», «Səməni» və digər rəqsləri hazırlamışdı.

Deyilən vaxtda ansambl Amerikada oldu. Florida ştatında konsert verdilər. Hər qrupa çıxış üçün bir nömrə nümayiş etdirməyə icazə verilmişdi. Belə olan halda Roza xanım bir neçə rəqsi bir-birinə qatıb elə quruluş vermişdi ki, elə bilmişdilər bir rəqs nömrəsidir. O, belə bir quruluş verməklə kollektivin üzvlərinin hamısının iştirakını təmin eləmişdi.

Beləcə, «Gülüstan» folklor ansamblı Sarasota folklor festivalının diplomuna layiq görülmüşdü.

***

Bütün bu uğurlara baxmayaraq, respublikada vəziyyət heç də ürəkaçan deyildi. Qorbaçovun yenidənqurması ölkəni yüksəlişə yox, uçuruma gətirib çıxartmışdı. Ölkədə xaos hökm sürürdü. Dağlıq Qarabağ vilayətində separatçı qüvvələr, daşnak tör-töküntüləri sadə erməni vətəndaşlarını yolundan sapdırıb mitinqlərə başlamışdılar. Kreml separatizmin qarşısını qətiyyətlə almaq əvəzinə televiziyada yersiz və əsassız olaraq müzakirələr keçirir, bu yolla erməni yalanlarını dünyaya yayırdılar. İstər-istəməz Azərbaycan arzuolunmaz münaqişəyə cəlb olunmuşdu. Bakıda və Azərbaycanın bir çox şəhərlərində, rayon mərkəzlərində etiraz mitinqləri keçirilirdi. Hadisələr arzuolunmaz istiqamətdə inkişaf edirdi. Bütün xalqın əsəbləri gərginləşmişdi. Bədii kollektivlər, teatrlar əvvəlki ovqatda deyildi. Mütəmadi hal almış mitinqlər 90-cı ildə özünün pik həddinə çatdı və 20 Yanvar faciəsi ilə tarixə düşdü. Belə bir faciədən sonra bir bayraq altında yaşamaq sadəcə mümkün deyildi. Artıq respublikaların əksəriyyətində müstəqillik uğrunda mitinqlər keçirilirdi, ölkəni tətillər bürümüşdü. Nəhayət, 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası özünün Müstəqillik aktını qəbul etdi.

Lakin SSRİ deyilən imperiya dağılsa da, xalqlar arasına səpdiyi nifaq toxumu gün-gündən alovlanmaqdaydı. Rusların köməyi ilə qədim Azərbaycan torpaqlarında özlərinə dövlət qurmuş ermənilər əsassız iddialarla Dağlıq Qarabağı öz ərazilərinə qatmaq niyyətilə hər cür hiyləyə, təxribata, terrora əl atırdılar. O zaman hələ Milli Ordusu formalaşmayan Azərbaycanda özünümüdafiə batalyonları yaranmağa başladı. Respublika gəncləri arasında yüksək

vətənpərvərlik ruhu vardı. Belə bir vaxtda Roza Cəlilovanın oğlu, Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, Bakı şəhər Baş Polis İdarəsində müstəntiq işləyən Zahid də hadisələrə biganə qalmayıb könüllü cəbhəyə getmişdi.



*Sağdan Zahid dostu ilə*

Minlərlə azərbaycanlı analar kimi Roza xanımın da ana ürəyi nigarançılıq, səksəkə içində çırpınırdı. Zahid Qarabağ savaşı başlayanda tutduğu vəzifədən imtina edib silaha sarılmışdı. O, Vətən uğrunda məhrumiyyətlər, acılar çəkmişdi və bu gün də çəkməkdədir.

Roza xanım bu gün Yaradanına şükürlər edir ki, min bir fədakarlıqla böyütdüyü oğlu sağ-salamatdır, Aslan və Lalə adlı iki övladı var.

Qızı Yeganə xanım Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin türkologiya şöbəsini bitirmişdir. Hazırda Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində dərs deyir. Lenay və Aslanə adlı iki qızı var. Lenay Moskvada təhsil alır, Aslanə isə həm orta məktəbdə, həm də, xoreoqrafiya məktəbində oxuyur.



*Roza xanım nəvəsi Aslanəyə*
*sənətinin sirlərindən danışır*



*Roza xanımın nəvələri*
*Sağdan: Lenay, Aslanə və Lalə ilə*




*Roza xanım nəvəsi Lalə ilə*



*Roza xanımın nəvəsi Lenay "Hümayun rəngi" rəqsini ifa edir*



*Soldan: Əminə Dilbazi, Rafiq Kaşanlı, Roza Cəlilova və professor Kamal Abdulla*

Roza Cəlilovanın həyatında sevincli, fərəhli günlər olduğu kimi, kədərli, ağrılı-acılı günləri də çox olub. Amma o, hər zaman şəxsi həyatından çox, səhnə həyatını üstün tutub. Keçirdiyi sarsıntıları, məhrumiyyətləri ictimailəşdirməyi sevməyib. Ancaq sənətindən danışıb. Layiq olduğu Xalq artisti fəxri adını çox gec – 2007-ci ildə alıb. Amma o, bu biganəliyi əlində bayraq edib qapılar döyməyib, mətbuata sızdırmayıb. Şəxsiyyətini hər zaman qoruyub. Onu da xatırladım ki, Roza Cəlilova 1999-cu ildən Prezident təqaüdçüsüdür.

Ədalət naminə deməliyik ki, Roza Cəlilovanın səhnə fəaliyyəti, əvəzsiz xidmətləri hər zaman diqqətdə olub. Mədəniyyət Nazirliyi onun 60, 70, 80, 85 illik yubiley gecələrini adına layiq keçiribdir. Roza xanımda keçirilmiş bu yubiley gecələrinin çəkilişlərinin lenti, diski vardır. Bu yubiley gecəsində əbədiləşmiş anlara baxıb, bəzi sənətkarların Roza xanımın şəxsiyyəti, sənətilə bağlı fikirlərini

olduğu kimi köçürmüşəm. Roza xanımın 1989-cu ildə 60 illik yubiley gecəsini ilk öncə professor, yazıçı-dramaturq Kamal Abdullanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyət Fondu keçirmişdir. Bu gecənin dəyəri ondadır ki, Roza Cəlilovanın 60 illik yubiley tədbirinə qoşulanlar onu yaxından tanıyan, onunla bir yerdə çalışan insanlardır. Bu tədbirdə Xalq artistləri – Vasif Adıgözəlov, Sara Qədimova, Firəngiz Əhmədova, Əminə Dilbazi, Şəfiqə Axundova, Tükəzban İsmayılova, Gülxar Həsənova, Əməkdar artistlər – Tutu Həmidova, Salman Məmmədov, millət vəkili Çimnaz Əliyeva, Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin sədri şair Həmid Abbas, aktyorlardan Muxtar Manıyev, Mustafa Süleymanov iştirak edirdilər. Təəssüf ki, indi adıçəkilən bu dəyərli insanların çoxu dünyasını dəyişmişdir, lakin Roza xanımın ünvanına söylədikləri fikirləri lentin yaddaşında əbədiləşibdir. Mən o çıxışların burada dərc olunmasını lazım bildim. Çünki söz həmişə diridir.



**Xalq artisti Vasif Adıgözəlovun dedikləri:**

– Roza xanım Azərbaycan rəqs məktəbinin, rəqs sənətinin ən parlaq nümayəndələrindən biridir. Mən Azərbaycan rəqs sənətinin inkişafının şahidi olmuşam. Çünki bir neçə il Roza xanımla birlikdə işləmişəm. Roza xanım mahnı və rəqs ansam-

blının solisti, mən isə bədii rəhbəri olmuşam. O zaman Roza xanımın bir rəqqasə kimi ən parlaq çağıydı. Roza xanımın bir üstün cəhətini qeyd etmək istərdim: Roza xanım öz sənətinin fədaisidir, öz sənətinin vurğunudur. O, həyatda ən şirin nemətləri belə öz sənətinə qurban verib. Onun üçün sənəti həmişə hər şeydən üstün olub. Roza xanım Azərbaycan rəqs sənətini təkcə respublikamızda deyil, dünyanın bir çox ölkələrində yayıb, sevdirib. Roza xanım texniki cəhətcə çox inkişaf etmiş rəqqasədir. Onun Cahangir Cahangirovun bəstələdiyi «İran rəqsi» süitasını yüksək məharətlə oynaması indi də gözlərimin qabağındadı. Olduqca çətin, ağır bir rəqs idi, amma Roza xanım «İran rəqsi»ni böyük məharətlə ifa edirdi. Hansı ölkəyə getsəydik, Roza xanımın oynadığı rəqslər çox hərarətlə qarşılanardı.

Bu illər ərzində Roza xanımı bir insan, bir yoldaş kimi yaxından tanıyıb müşahidə etmişəm. Mən sənətinə olan münasibəti, sevgini Roza xanımda gördüyüm kimi heç kimdə görməmişəm. Bəzən Roza xanım xəstə olanda, özünü pis hiss eləyəndə belə, səhnəyə çıxmaq lazımdı deyəndə, heç bir şeylə onun qarşısını almaq olmazdı. Səhnə onun üçün həm həyatından, həm canından, taleyindən yüksəkdə duran bir məbəd idi. Roza xanım səhnənin, sənətinin fədaisi idi. Hamımız bilirik ki, Roza xanım rəqqasə kimi həzin qadın rəqslərini müasir texniki üsullarla birləşdirərək sintez yaratmışdır. Ona görə də hər cür cərəyanlı, hər cür tipli rəqs oynamaqda mahir bir sənətkardı. Arzu edirəm ki, Roza xanım uzun illər yaşasın. Çünki onun həyatda olmağı bizim gələcək nəsil üçün böyük bir məktəbdi. Mən istərdim ki, gənc rəqqasələr Roza xanımdan dərs alsınlar. Roza xanımın sənətə münasibəti kimi onların da sənətə münasibəti həmişə ciddi olsun.



**Xalq artisti Əminə Dilbazinin dedikləri:**

– Bizim ansamblımız o gün xoşbəxt oldu ki, ansamblımıza Roza roza kimi – qızılgül kimi daxil oldu. Doğrudan da, o zaman mahnı və rəqs ansamblına gəlmək hər rəqqasın, rəqqasənin işi deyildi. Çünki o dövrdə səhnədə gözəl oynayanlarımız – Əlibaba Abdullayev kimi, Böyükağa Məmmədov kimi böyük rəqs ustalarımız vardı. Belə bir vaxtda səhnəyə gəlmək, Roza adını qazanmaq çox çətin məsələ idi. Deyə bilərəm ki, mən Rozanı məktəb şagirdi olarkən tanımışam. Onun oxuduğu orta məktəbə getmişdik. Rozanı onda uşaqlar arasında gördüm. Onların məktəbində rəqs ansamblı düzəltdik. Roza orada çıxdı qarşıma. Gördüm bu gözəl qız adına layiqdi və həm də qızların arasında ən zirəngiydi. Rəqsin də ən gözəl ifaçısı o idi. Biz onu da məktəbin ansamblına daxil elədik. Ondan soruşdum ki, «a qızım, kimsən, hardansan?» Xəbər tutdum ki, Roza həm də xoreoqrafiya məktəbində oxuyur. Xoreoqrafiyanı bitirəndə onu opera teatrına göndərdilər. İki ildən sonra Roza bizim ansamblımıza gəldi. İnanırsınız ki, Rozanın bizim ansamblımıza gəlməyi kollektivimiz üçün bir bayram oldu. Çünki Rozanın özünəxas xüsusiyyətləri vardı. O, heç kəsi təkrar etmək istəməzdi. Məsələn, mən ona öz «Tərəkəmə»mi

öyrətmək istəyəndə dedi ki, Əminə xanım, olarmı mənim üçün yeni rəqslər qurasınız, mən öz rəqslərimi oynayım. İstəyirəm ki, mənim də öz rəqslərim olsun. Desinlər ki, bax, bunlar Rozanın rəqsləridir. Belə də oldu, Roza üçün yeni rəqslər quruldu. Onun özünəxas oyunu, rəqsə olan münasibəti, səhnə mədəniyyəti çox tezliklə diqqəti cəlb etdi. Xoreoqrafiyanı bitirmiş bu gənc qız üçün rəqs qurmaq heç də asan deyildi. Çünki biz rəqs quranda o da öz fikrini deyərdi: belə yox, bəlkə, belə yaxşıdı? Biz də həmişə onunla razılaşırdıq. Belə-belə, Roza gəlib məşhur rəqqasələr sırasında öz yerini tutdu. Bizim tamaşaçılarımız onu çox sevdi. Rozanın konsertdə çıxış etdiyi günlərdə onu sevənlər, ona pərəstiş edənlər konsertə gələrdilər. Bu bizi çox sevindirirdi. Çünki rəqs sahəsi çox çətin bir sahədi. Həyatını gərək qurban eləyəsən bu sənətə. Hər oynayan da özünü fəda eləməz. Bu sənət fədakarlıq tələb edir. Hər şeydən gərək əl çəkəsən. Mən Rozanı təbrik edirəm. Deyirəm, Roza, qoy gəlim toyuna (gülür), indi də gözəlsən, gözəlliyini heç vaxt itirmə. Səni xalqımız sevir. Əsas xalqın sevgisidi.



**Xalq artisti Sara Qədimovanın dedikləri:**

– Mən əvvəl istəyirəm Azərbaycan rəqsinin bünövrəsini qoyanlardan danışam. Azərbaycan xalq rəqsi deyəndə mənim yadıma ilk öncə Əminə xanım Dilbazi düşür. Deyərdim ki, Əminə xanım Dilbazi Azərbaycan

rəqsinin ağbirçəyidir. İllər öncə filarmoniyada çalışıb. Mən 1942-ci ildə filarmoniyaya gələndə bizim sərvboylu, gözəl rəqqasələrimiz meydana gəldi. Onlardan Tutu Həmidova, İzzət Şıxlinskaya, Mina Cəfərova, Fizzə Hənifəyeva və b. Roza Cəlilova 1949-1950-ci illərdə filarmoniyaya gəldi. Mən cəsarətlə deyə bilərəm ki, Roza Cəlilova mahnı və rəqs ansamblına gəldikdən sonra, yaxşı mənada, bir çevriliş əmələ gəldi. Roza xanımın ifasında təkcə Azərbaycan rəqsləri deyil, həm də dünya xalqlarının ən gözəl rəqs nümunələri onun repertuarında geniş yer tutdu. Roza Cəlilovanın rəqsləri özündən əvvəlkilərdən tamamilə fərqliydi. Onun öz yolu, özünəməxsus ustalığı, özünəməxsus fantaziyası vardı.

Mən Roza xanıma uzun ömür, cansağlığı arzulayıram.

**Xalq artisti Şəfiqə Axundovanın dedikləri:**

– Rozanın sənətinə mənim həmişə böyük hörmətim olub. Özü bilmir, həmişə mahnı və rəqs ansamblının konsertinə gəlib, Rozanın durna kimi səhnədə süzməsinə, baxışlarına, oynadığı rəqsin gözəlliyinə tamaşa etmişəm. Onun duyumuna həmişə heyran qalmışam. Mən ömrüm boyu onun pərəstişkarı olmuşam. Burada əyləşən sənətkar qadınlar da mənim əzizlərim olublar. Sara Qədimova bir çox mahnılarımın ilk ifaçısı olub, Tükəzban İsmayılova «Gözlərimə toxundu» mahnımı ifa edib. Gülxar





Həsənova da həmçinin. Hamımız bu yubiley tədbirinə xoş gəlmişik. Biz çox az qalmışıq, gərək bir-birimizin qədrini biläk.

Roza xanım, sizi ürəkdən təbrik edirəm. Arzum budur çoxdan layiq olduğunuz Xalq artisti adını alasınız.

**Cabir Səfərov, teatrşünas:**

– Mənim çox gənc yaşlarımdan incəsənətə məhəbbətim olub. Yaxşı səhnə ustalarımızı, rəqs ustalarımızı ürəkdən sevmişəm. Bu siyahıda dörd nəfərin adı mənim könül dəftərimdə əbədi olaraq qalıb. Bu gün də həmin adamlar burada iştirak edir. Əminə Dilbazi, burada əyləşən rəqqasəmiz Tutu xanım Həmidova, Roza xanım Cəlilova və Afaq Məlikova.

Roza xanımla Moskvada, Leninqradda, Belorusiyada, Moldovada olmuşam. Mən bu səfərlərə bir qəzetçi kimi gedirdim. Roza xanımın hər dəfə səhnədə çıxışı alqışlarla qarşılanardı. Çünki musiqinin, rəqsin dili beynəlmiləldir. Hansı bir ölkəyə gedirdiksə, Roza xanım səhnəyə çıxanda elə bil özü ilə bir Azərbaycan günəşi gətirirdi, xalqımızın əzəmətini göstərirdi. Bir nəfər rəqs ustası mənə deyirdi ki, Qərb ayaqları ilə, Şərq əlləri ilə oynayır. Doğrudan da, Rozanın əlləri havada cövlan eləyəndə, alqış qopurdu. Bəh-bəh, Azərbaycan günəşi gəlir səhnəyə! Azərbaycan gözəli gəlir! Roza xanım rəqsimizin həmişə narahat kəşfiyyatçısı olub. Axtaran, rəqs edəndə heç kəsi təkrar etməyən, bax, bu yaxşı keyfiyyətlərinə görə Roza xanım Azərbaycan tamaşaçılarının, sənətsevərlərin, xarici ölkə



tamaşaçılarının məhəbbətini qazanmışdır. Eşq olsun ona!

**Çimnaz Əliyeva, millət vəkili:**

– Əziz dostlar, bu gün mənim üçün çox xoşdur ki, bir-birindən gözəl, bənzərsiz xanımlarımızı burada görürəm. Azərbaycan Mədəniyyət Fonduna təşəkkür edirəm ki, bu gün məni də bu məclisə dəvət edibdir. Əminə Dilbazini, Sara Qədimovanı, Tükəzban İsmayılovanı, Şəfiqə Axundovanı, Firəngiz Əhmədovanı, Gülxar Həsənovanı burada görəndə, çox məmnunluq duydum. Xalqımız xoşbəxt xalqdır ki, onun belə övladları var.

Əziz Roza xanım, mən Sizə Qarabağ Mədəniyyət Fondu adından, Qarabağ sənətçiləri adından cansağlığı arzulayıram. Sizin Qarabağda da izləriniz qalıb. Qarabağ həmişə toy-büsat diyarı olub. Bizim keçirdiyimiz bayramlarda, istər Natəvan qızlar bayramında, istər beynəlxalq «Xarıbülbül» festivalında qurduğunuz rəqslər bizim meydanlarımızı, gözəl Cıdır düzümüzü bəzəyib. Arzu edirəm gün gəlsin, həmin yerlərdə çal-çağır günlərimizi bir daha keçirə bilək. Arzum budur siz hamınız bir yerdə o məclislərdə iştirak edəsiniz. Roza xanım, çox istərdim ki, Cıdır düzündə bitən, dünyanın möcüzəsi xarıbülbüldən sizə dərib bir buket gətirəydim. Çox təəssüf ki, bu mənim qüvvəm xaricindədir. Roza xanım, Siz özünüz bu Azərbaycan təbiətinin, xalqının xarıbülbülüsünüz. Bir daha yubileyiniz münasibəti ilə Sizi təbrik edirəm. Bir ana kimi Sizin



qarşınızda baş əyirəm. Çünki sizin oğlunuz Qarabağ uğrunda döyüşüb, vuruşub. Bir qarabağlı kimi də bu xidmətə görə sizə təşəkkür edirəm. Sağ olun, var olun!

**Əməkdar artist Məmməd Salmanovun dedikləri:**

– Əziz dostlar, Roza Cəlilova kimi sənətkar haqqında danışmaq şərəfdi. O həm sənətkar kimi, həm də fədakar bir ana kimi tərifəlayiqdir.

Roza xanımla otuz ilə yaxın bir yerdə işləmişik. Mən mahnı və rəqs ansamblında mahnı oxumuşam, o isə səhnədə pərvaz edib. Onun gözəl rəqsi, özünün gözəlliyi heç yadımdan çıxmaz. Bir epizod danışmaq istəyirəm. Bir gün Cahangir Cahangirov məni yanına çağırmışdı. Deyilən vaxtda getdim. Əlibaba Abdullayev də onun yanındaydı. Cahangir müəllim dedi ki, Məmməd, istəyirəm bir İran süitası bəstələyəm. Üç hissədən ibarət. Sən bildiyin fars mahnılarından oxu, qulaq asaq. Mən onlar üçün bir neçə fars mahnısı oxudum. Aradan bir müddət keçəndən sonra Cahangir müəllim üçhissəli «İran süitası»nı (mövzuca bir, xaraktercə başqa-başqa olan bir neçə pyesdən ibarət musiqi əsəri – *M.Ç.*) bəstələdi. Əlibaba Abdullayev bu süita əsasında Roza xanım üçün rəqs qurdu. Bu rəqsin ilk ifaçısı bizim gözəl xanımımız, gözəl rəqqasəmiz Roza xanım oldu. Heyif ki, Roza xanımın oynadığı bu gözəl rəqs radioda səsləndirildi, amma ekran üçün yazılmadı. Ona görə də ekranda görünmədi. Mən buna çox təəssüflənirəm. O

gözəl rəqsin ayrı-ayrı parçalarını bu saat mən görə bilirəm, yaddaşımda bərpa edirəm. Çünki mən Roza xanımın o gözəl, bənzərsiz rəqsini görmüşəm.

Sənətkar kimi hamınız bilirsiniz Roza xanım kimdi, amma bir ana kimi necə fədakar olduğunu, bəlkə də, çoxunuz bilmir. 1995-ci ildə biz bir yerdə cəbhə xəttinə getmişdik. Əsgərlərə gözəl konsert verdik. Roza xanım balasını axtarırdı. Gördüm Roza xanım gözləri ilə axtarır, axtarır, amma axtardığını tapa bilmir. Komandirləri çağırdılar, gəldilər... Saat 3-ü keçmişdi. Kağızları tökmüşdülər Roza xanımın qarşısına: – Baxın, görün bu siyahıda oğlunuzun adını tapa bilərsiniz... Siz bilirsinizmi bu necə ağır mənzərəydi?! Bu xanım bütün bu məhrumiyyətlərə dözüb.

Roza xanım əsl kişi kimi mətanətli, qadın kimi gözəl və şərəflidir. Mən fədakar bir ana, otuz il səhnəmizdə rəqslərimizi canlandıran bir sənətkar kimi Roza xanımın qarşısında baş əyirəm!

Yubiley tədbirində mərhum şair, **Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin sədri Həmid Abbas** Roza Cəlilovanı Fəxri Fərmanla təltif etməklə yanaşı, ona həsr etdiyi şeirini də oxumuşdu:



## SİLİNMƏZDİR İZİN SƏNİN

*Roza – qızılgülün adı,*
*Sən güldən də təravətli.*
*Özün kimi rəqslərin də*
*Hər vaxt olsun hərarətli.*

*Ötən günlər, keçən aylar,*
*Od-alovu azalmayıb.*
*Artan yaşdan qorxma, bacım,*
*İllər səni qocaltmayıb.*

*Dünən bizim sənətimizin*
*Bəzəyiydi Cəlilova.*
*Bu gün gözəl pedaqoqtək*
*Sevir onu bu el-oba.*

*İndi cavan qız-oğlana*
*Ünvanlanır sözün sənin.*
*Çətin həyat yollarında*
*Silinməzdir izin sənin.*

*Ad günündə budur arzum,*
*Sən yüz yaşa, olmasın az.*
*Təbrikini bu sözlərlə*
*Tamamlayır Həmid Abbas!*



*Pərəstişkarları Roza xanımı yubileyi*
*münasibəti ilə təbrik edirlər*



*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Roza Cəlilovanı «Xalq artisti» fəxri adı alması münasibəti ilə təbrik edir*

Azərbaycan Mədəniyyət Fondundan sonra Roza Cəlilovanın 60 illik yubileyi R.Behbudov adına Dövlət Mahnı Teatrında keçirilmişdi. Ürək sözlərini bura köçürdüyüm sənətkarlar, təbii ki, Mahnı Teatrında keçirilən yubiley tədbirlərində də iştirak etmişdilər və onlardan bir çoxu burada da yenə ürək sözlərini söyləmişdilər.

Bu gecənin ən unudulmaz anlarından biri uzun illər Roza xanımla bir yerdə çalışmış, artıq xeyli yaşa dolmuş rəqqasə və rəqqasların rəqsi idi. Doğrudan da, unudulmaz bir andı. Onların qarşısında Roza xanımın «Tərəkəmə» rəqsini oynaması isə əsl bir tamaşa, sənət möcüzəsiydi. Kimsə inana bilməzdi ki, «Tərəkəmə»ni 60 yaşlı rəqqasə

oynayır. Doğrudan da, yubiley gecəsində 60 yaşlı Roza xanım «Tərəkəmə»siylə əsl rəqs nümunəsi göstərmişdi.

Tamaşaçıların yaddaşında həmişə gözəl, gənc rəqqasə kimi yaşayan Roza xanım çox sevdiyi filarmoniyanın səhnəsində keçirilən digər tədbirlərində – 70, 80, 85 illik yubiley gecələrində də yaşından çox-çox cavan və təravətli görünürdü. Çünki onun taleyi səhnəylə, Azərbaycan rəqs-ləriylə bağlıdır.




*Mədəniyyət və Turizm naziri Ə.Qarayev Roza Cəlilovanı 80 illik yubileyi münasibəti ilə təbrik edir*



*85 illik yubiley gecəsində*

## SON SÖZ

Əslində, mənim yazacağım SON SÖZÜ Roza xanım çoxdan öz ölməz, heç vaxt unudulmaz rəqsləriylə deyib. Oynadığı «Qaragözlə», «Bilmədim»lə, «Tirmə şal»la, «Bənövşə»ylə, «Naz eləmə»ylə, «İnnabı», «Heyvagülü» ilə, hind, tacik, benqal, İran, ərəb... rəqsləriylə.

O, ömrünü gilə-gilə bu rəqslərdə əridib. Ölkələr dolaşıb bu rəqslərlə. Zaman-zaman oynadığı rəqslərə həyat verib, rəqslər də onu ucaldıb, şöhrətə çatdırıb.

Roza xanımın ürək sözləri də, nəğməsi, mahnısı da oynadığı rəqslər olub. Heyiflər olsun ki, onun oynadığı rəqslərin hamısı lentə köçürülməyib, amma tarixləşənlər, arxivlərdə hifz olunanlar da az deyildir. «AzTV»-nin «Azərbaycantelefilm» Yaradıcılıq Birliyi, «Lider» televiziya kanalı haqqında televiziya filmləri çəkiblər. Mavi ekranda hazırlanan müxtəlif səpkili verilişlərdə canlı söhbətləri əbədiləşib. Azərbaycan milli rəqsləri ilə bağlı elə bir televiziya verilişi, mətbuatda gedən disput olmayıb ki, Roza xanımın adı çəkilməsin, özü orada iştirak etməsin, öz dəyərli fikir və mülahizələrini söyləməsin.

2015-ci ildə Azərbaycan Mətbuat Şurası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə «Milli rəqslərimiz milli dəyərimizdir» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi elan etmişdi. Bu yazıların, demək olar ki, hamısında Roza Cəlilova və onun sənəti yad edilib və yüksək dəyərləndirilib. Çünki Roza xanım milli rəqslərimizin nə qədər zəngin, zərif və bəşəri mahiyyət

daşıdığını gözəl bilir. O deyir ki, hər bir rəqsin xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Rəqslərimizi ifa edərkən onlara fərdi, məxsusi yanaşmaq gərəkdir. Çünki hər bir milli rəqsin öz taleyi, öz yaranma tarixi var.

Səhnədə keçən günlərinin xatirəsi onun üçün ən qiymətli xəzinədir. O çağlardan danışarkən çox duyğulanır: «Qalan ömrümü verərdim o günə ki, səhnədə bircə dəfə «Qaragöz» oynaya biləydim – deyir. – Mən 57 rəqs ifa etmişəm. Bu rəqslər məhz mənim üzərimdə qurulub. Rəqqasənin süzməyi, utancaq baxışı, incəliyi olmalıdır. Bu yaxınlarda bir rəqs lentini izlədim. Orada rəqqasə «İnnabı» rəqsini ifa edirdi. O, kəlağayını üzünə tutaraq, gözlərini süzdürərək elə oynayırdı ki, ürəyim atlandı. Onun hər tərpənişi, hərəkəti mənalı idi. Zərif əl-qol hərəkətləri, incə yeriş, rəqsin musiqi və məzmunu ilə sırf bağlı olan mimika, mülayimlik məni heyrətləndirdi. Sanki o oynamır, sadəcə, heç kəsin bilmədiyi, lakin hamının anladığı bir dildə danışır».

Roza xanım guşənişin həyat sürən olmayıb, qapısı hər zaman sənət xiridarlarına açıq olub.

Dünyadan köçən sənət yoldaşlarını, yolunda zəhmət çəkən hər kəsi həmişə ehtiramla, rəhmətlə yad edir, sağ qalanlarla hal-əhval tutmağı da heç vaxt unutmur. Səhnəyə çıxmasa belə, milli rəqslərimizin taleyi, sabahı həmişə onu narahat edir. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının keçmiş möhtəşəm quruluşlarının bu gün yenidən bərpa olunmasının arzusundadır. Milli rəqslərimizə yad elementlər gətirənləri, bayağı geyinən rəqqasələri, adət-ənənəyə xor baxanları görməyə gözü yoxdur. O həmişə bu fikirdədir ki, rəqs paltarlarımız da rəqslərimiz kimi milli olmalıdır. Roza Cəlilova deyir. «O dövrdə maddi



*Roza xanım nəvəsi Aslanə və professor Tariyel Əhmədovla*

cəhətdən çox çətinlik çəkirdik. Arzu etdiyin sayda, ürəyindən keçən zövqdə rəqs paltarı almaq olmurdu. Müasir rəqqasələrin əksəriyyəti zər-zibaya üstünlük verirlər. Çalışırlar ki, tamaşaçı rəqsdən çox əynində olan paltara diqqət yetirsin. Zər-ziba keçmiş əyyamlarda olardı. Həm də kapron parçalar xalqımıza xas geyim tərzi deyil. Bizim rəqs paltarımız xaradan, baftadan tikilərdi. Başımıza indiki kimi tac qoymazdıq, silsilə taxardıq. Mən indi heç bir rəqqasənin başında silsilə görmürəm».

Vətənini canı qədər sevən Roza Cəlilova da bütün azərbaycanlılar kimi Qarabağın azad olacağı o böyük tarixi günü görmək arzusundadır. Oğlu Zahidlə, qızı Yeganə ilə, nəvələriylə nəfəs alır.

Qız nəvəsi Aslanəni özünün vaxtilə oxuduğu xoreoqrafiya məktəbinə qoyub. Onu sənətinin davamçısı kimi görmək istəyir. Qismət İlahidəndi. Bunu gələcək göstərər.

Mənəvi rahatlığını ancaq özünün uzun illər divarları arasında yaşadığı ikigözlü, gül-çiçəkli, şəkillərlə bəzədilmiş evində tapır.




*80 illik yubiley gecəsində*

Zənn etməyin ki, o tənhadır və tənhalığı sevir. Xeyr! Onun yaddaşı və qəlbi həmişə qələbəlikdi. Hər gün, hər an yaşadığı günləri, illəri bir daha yad edərək yaşayır. Dünyadan köçən və həyatda yaşayan bütün sənət yoldaşları – rəqqasələr, rəqqaslar, xor qrupunun solistləri, musiqi ifaçıları, baletmeysterlər, dirijorlar, bədii rəhbərlər... Bir sözlə, hər kəs onunladır.

Tez-tez istiqlal şairimiz Xəlil Rza Ulutürkün ona həsr etdiyi bir bənd şeiri xatırlayır. Bu şeir parçasını ona yeznəsi akademik Aslan Aslanov gətirib vermişdi. O, bu şeiri oxuyub xeyli gülümsəmişdi.

*Sən dəyiş adını Roza Cəlili,*
*Sənət gülüzar versin bülbül ləhcəli.*
*Götür sənin olsun gülşən, gülşəkər, sülhsevər,*
*Saysam, çox çəkər.*

Hər sahədə, hər işdə millilik arayan, milli ruhun daşıyıcısı olan şairin yarızarafat, yarıgerçək təklifini eşidib adını necə dəyişəydi Roza xanım? Adı tanıdan, şərəfləndirən, dillərdə dastan edən onun sahibidir. Roza adının arxasında böyük bir ömür, sənət taleyi durur axı. İncəsənətimiz tarixində ikinci Roza Cəlilova varmı? Yoxdur! O elə səhnəmizin Rozası, Gülü, Gülşəni, Gülşəkəri, Sülhsevəri, ən nəhayət, Ağ Çiçəyidir!

2 fevral – 20 aprel<br>2015-ci il




*Roza xanım «Sənət hekayələri» kitabının təqdimat mərasimində çıxış edir. 2014*

## RƏYLƏR

### YAZIÇI MUSTAFA ÇƏMƏNLİNİN «SƏHNƏMİZİN AĞ ÇİÇƏYİ» KİTABININ ƏLYAZMASINA RƏY

Tanınmış yazıçı-publisist Mustafa Çəmənlinin rəyə təqdim olunan kitabı Azərbaycan rəqs sənətinin canlı əfsanələrindən hesab olunan Xalq artisti Roza Cəlilovanın həyat və yaradıcılığından bəhs edir. Öncə demək lazımdır ki, qədim tarixə və zəngin bədii ənənələrə malik olan rəqs sənətimizin mənəvi yükünü uzun illər ərzində şərəflə daşıyan bu sənətkar barəsində əhatəli kitabın yazılması çox təqdirəlayiq haldır. Digər tərəfdən heç də asan olmayan bu yaradıcı işin məhz Mustafa Çəmənli tərəfindən görülməsi həm də ona görə müsbət haldır ki, o, bədii-sənədli əsərlərin yazılması sahəsində kifayət qədər təcrübəsi olan söz adamıdır.

Elə onun Roza Cəlilovaya həsr olunmuş yeni kitabında da müəllifin yaradıcılığını başqalarından fərqləndirən xüsusiyyəti və özünəməxsus dəst-xətti duymaq mümkündür. Onun topladığı materialları ədəbi-bədii və sənədli tutumda ifadə etmək istedadı məşhur rəqqasənin sənət dünyasından bəhs edən «Səhnəmizin ağ çiçəyi»ndə də duyulandır.

Kifayət qədər zəngin olan informasiyanın oxunaqlı bir dildə ifadə olunmasının qarşılığında işıq üzü görəcək bu kitabın oxucular tərəfindən rəğbətlə qaşılanacağı bir-

mənalıdır. Odur ki, kitabın bədii-tarixi əhəmiyyətini vurğulamaqla onun nəşr olunmasını tövsiyə edirəm.

**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının*
*Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

29.11.2016

## YAZIÇ-PUBLİSİST MUSTAFA ÇƏMƏNLİNİN «SƏHNƏMİZİN AĞ ÇİÇƏYİ» ADLI KİTABININ ƏLYAZMASINA RƏY

Təqdim olunan «Səhnəmizin ağ çiçəyi» adlı kitab respublikanın Xalq artisti Roza Cəlilovanın həyat və yaradıcılığına həsr olunub. Kitab çox oxunaqlı dildə yazılıb. Bu da, ümumiyyətlə, Mustafa Çəmənliyə xas olan özünəməxsus yazı üslubudur. O, həmişə haqqında yazıldığı sənətkarın həyat və yaradıcılıq yolunu tarixi faktlarla, dəlillərlə sanki bir nağıl kimi nəql edir. Belə ki, Mustafa müəllim həm sənətkarın irsini tədqiq, həm də bu tədqiqatı bədii formada təqdim edir. Bu da oxucunu kitaba cəlb edən vacib amillərdən biridir.

Beləcə, səhnəmizin gözəl rəqqasəsi Roza xanım haqqında Mustafa Çəmənlinin kitabını çox diqqətlə və maraqla oxudum. Müəllif oxucuda bu marağı elə kitabın ilk səhifəsindən yaradır. Kitabda müdrik bir sənətkarın, gözəl bir Azərbaycan xanımının, ziyalı nəsildən olan bir insanın, öz xalqının adını uca tutaraq vətənini dünyanın müxtəlif ölkələrində əzmlə təbliğ edən ləyaqətli bir şəxsiyyətin keçdiyi ömür yolundan, yaradıcılıq fəaliyyətindən bəhs olunur. Bu mənada Roza xanımın doğulub boya-başa çatdığı ailə, onun valideynləri, digər doğmaları, məktəb illəri, sənətə gəlişi, yaradıcılıq dövrünün müəyyən mərhələləri, qastrol səfərləri, həyat və sənət haqqında düşüncələri və bu kimi məsələlər kitabda geniş şəkildə, çox bədii dillə öz əksini tapıb. Bu kitab Xalq artisti Roza

Cəlilovanın «ömür kitabı»nın səhifələrini özündə ehtiva edir. Bütün fikirlərimin yekunu olaraq qeyd edim ki, yazıçı-publisist Mustafa Çəmənlinin «Səhnəmizin ağ çiçəyi» adlı kitabı mədəniyyətimizə daha bir töhfədir. Əminəm ki, kitab səlis yazı üslubu, oxunaqlı dili və mövzu baxımından geniş oxucu auditoriyası tərəfindən də müsbət qarşılanacaq.

**Səadət Təhmirazqızı**
*Əməkdar mədəniyyət işçisi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

2.12.2016

## İSTİFADƏ OLUNAN MƏNBƏLƏR

**Kitablar:**

1. Ансамбль песни и танца (tərtibatçılar: Soltan Hacıbəyov və Tofiq Quliyev). Bakı, 1959.
2. Bəsti Əlibəyli. Sönməyən ulduzlar. «XXI» YNE, 2009.
3. Mustafa Çəmənli. Sənət hekayələri. Bakı, «Aspoliqraf», 2014.

**Qəzetlər:**

4. Roza Cəlilova. Yaradıcılıq səfərləri, «Ədəbiyyat və incəsənət», 3 may 1959.
5. T. Şahverdiyev. Azərbaycan toyu. «Bakı», 12 dekabr 1959.
6. Ələsgər Qurbanov. Roza yeni səfərə hazırlaşır. «Azərbaycan gəncləri», 11 mart 1959.
7. Azərbaycanın mahnı və rəqsləri. «Sovet Ermənistanı», İrəvan, 1 fevral 1961.
8. Bahar gəlir. «Bakı», 23 oktyabr 1962.
9. S.Nebedov. Концерты азербайджанских артистов. «Вечерняя Москва», 23 mart 1963.
10. Jeleznov. Günəşli incəsənətin səlahiyyətli nümayəndələri. «Kommunist», 31 mart 1963.
11. C.Cahangirov. Azərbaycan musiqiçiləri Nil sahillərində. «Bakı», 14 may 1965.
12. Roza Cəlilova. Искусство сближает. «Bakinskiy raboçiy», 16 sentyabr 1965.
13. Звучат песни Азербайджана. «Казахстанская правда», dekabr, 1966.

14. Торжественное закрытие Декады таджикской литературы. «Баку», 26 oktyabr 1965.

15. Cabir Səfərov. Rəqs ustası. «Ədəbiyyat və incəsənət», 9 iyul 1989.

16. Sədaqət Məmmədli. Pərdə arxasında. «Yeni fikir», 12 sentyabr 1991.

17. V.Əzizov. Pouzi Pozanı dəvət edir. «Xalq qəzeti», 31 oktyabr 1991.

18. Dilarə Vəkilova. Rəqqasə. «Günay», 18 fevral 1995.

19. Xruşşovu heyrətləndirən rəqqasə. «Rezonans», 10-13 aprel 1993.

20. Saminə Hidayətqızı. «Bala ceyran» məndə Azərbaycan rəqsinə eşq gətirdi. «İmpuls», 11 aprel 2003.

21. İncəsənət dünya xalqlarını bir-birinə qovuşdurur. «İki sahil», 18 sentyabr 2003.

22. Adilə Qocayeva. Rəqs sənətinin vurğunu. «İki sahil», 15 aprel 2004.

23. Təranə. 48 ilin intizarı. «Yeni Azərbaycan», 4 oktyabr 2007.

24. Z.Fərəcova. Ölüm də bir vüsaldır. «El» iurnalı, 2007.

25. Səadət. Rəqsdə gərək süzəsən. «Azadlıq», 13 may 1999.

26. Təranə Məmmədova. Gərək camaatın yadında qalasan. «Kaspi», 1 iyul 2009.

27. Xəyalə Rəisi. Sponsorum sənətim olub. «Kaspi», 4-6 may 2013.

28. Aygün Asimqızı. Azərbaycan rəqslərinin dili var. «Üç nöqtə», 11 may 2013.

29. Xəyal Rəisə. Sənətkar yüz il yaşasa da, öz işində nöqsan tapmalıdır. «Kaspi», 26 iyun 2014.

## KİTABIN İÇİNDƏKİLƏR

Bir neçə söz ............................................................5
Ömürdən fraqmentlər..................................................8
Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında ..........28
Berlin səfəri ............................................................36
Albaniya səfəri.........................................................42
Ailə ........................................................................48
Üçaylıq səfər...........................................................58
Mahnı və Rəqs Ansamblı Çin Xalq Respublikasında ......72
Moskvada keçirilən incəsənt və ədəbiyyat ongünlüyündə ........................................................83
Rəqslərə qovuşmuş tale ...........................................100
Misirdə ..................................................................127
Rəqsə ürək qoymaq lazımdır.....................................135
Elmi-metodik mərkəzdə ...........................................153
Son söz ..................................................................178
Rəylər ....................................................................184
İstifadə olunan mənbələr ..........................................188

Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçısı ***Təhmasib Mehdiyev***
Korrektorları ***Ülkər Şahmuradova, Ülkər Tağıyeva***

Çapa imzalanmışdır 14.02.2017. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 12. Sifariş 1. Tiraj 500.

«Aspoliqraf LTD» MMC nəşriyyat-poliqrafiya
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121$^{B}$
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
e-mail: aspoligraf.ltd@gmail.com

**MUSTAFA ÇƏMƏNLİ**
*(Mustafa Şura oğlu Mustafayev )*
SƏHNƏMİZİN AĞ ÇİÇƏYİ
Bakı, «Aspoliqraf», 2017.